VÜQAR ƏHMƏD

# “ƏFSANƏVİ TARZƏN”

BAKI-2010

Ey tarizən öylə çaldın, yatmış bəxtim canə gəldi,
Şair tə”bim coşdu yenə, qələmim ilhamə gəldi,
Qara keşiş tələ qurdu, Kərəm yanə-yanə gəldi,
Məcnun səhralər dolaşdı, Leyla hey fəğanə gəldi,
Füzuli yandı hicr ilə, Nəsimi irfanə gəldi,
Məmməd Araz vətən dedi, Bəxtiyar “Gülstan”ə gəldi,
Vüqar Əhməd qələm tutub, yenə də meydanə gəldi...

Bizim xalqımızın tarixi və mədəniyyəti çox qədimdir.. Fəqət hər dəfə torpağlarımız işğala məruz qalanda böyük-böyük sənətkarlarımız tərəfindən yaradılan sənət abidələrimiz ya qarət edilib kafir məmləkətlərinə daşınmış, belə ki, düşmən həyasızlığla bu sənət nümunələrini öz adına çıxarmış, ya da yandırılıb külə çevrmişdir.. Lakin xalqın ağrısnı-acısını, əzamkarlığını, döyüşkənliyini, yüksək mənəvi keyfiyyətlərini, eyni zamanda bütün tarixini özündə əks etdirən muğama düşmənlər əl uzatsalar da onu heç cürə özəlləşdirə bilməmişlər. Çünki Azərbaycan muğamı yalnız azərbaycanlılara məxsusdur.. Muğam hər bir azərbaycanlının gen yaddaşıdır. Muğam azərbaycanlılarının qanındakı hüceyrələrində qərar tutub.. Hətta qərib ölkədə doğulub boya-başa çatan, öz dilində danışa bilməyən azərbaycanlı muğam eşidərkən dərhal keçmişinə qayıdır, özü-özünü tanımağa başlayır, kim olduğunu, hansı xalqa mənsub olduğunu, hansı dinə qail olduğunu dərk eləyir.. Muğam onu Nizaminin, Xəqaninin, Nəsiminin, Füzulinin, Xətainin dünyasına aparır.. Xalqımız muğamdan həmişə bəhrələnmiş, qidalanmış, mənəvi zövq almış, bir sözlə özünü dərk edə-edə daim xoş amal və məqsədlərə doğru irəlləmişdir..

Nə qədər hikmət var təranəsində,
Min möcüzə vardır hər şöbəsində,
Muğam əcdadımın sirrli açarı,
Tarixin möhtəşəm abidəsidir..
Muğam Füzulinin eşq naləsidir,
İgid Koroğlunun hərb nərəsidir,
Müdrik babaların şanlı tarixi,
Haqqın şər üstündə qələbəsidir..

Muğam mənəviyyat, öyüd-nəsihət,
Tərbiyə məktəbi, əxlaq dərsidir,
Muğam aləmləri tək Yaradanın,
Bizlərə qiymətsiz hədiyyəsidir..
Sonsuz, intəhasız bir ümmandır o,
Cahan sərgisində gülüstandır o,
Ulu keçmişmizi gətirib gözə,
Çox şeylər söyləyir bu muğam bizə..
“Çahargah” qəflətdən oyadır bizi,
Qələbə eşqiylə yaşadır bizi,
İntiqam almağa səsləyir bizi,
Artıq şanlı zəfər gözləyir bizi...
“Humayın” məzlumun nalə-fəryadı,
“Şüştər” çoxlarının arzu-muradı,
“Segah” aşiqlərin şikayətuidir,
“Dilkəş” Leyli-Məcnun hekayətidir...
“Bayatı-şirazı”ın sirrini açsan,
Möminin Allaha ibadətidir,
“Şahnaz”ın sevdalı bağından keçsən,
Övladın anaya itaətidir...
Sən “Şur”un eşq dolu ruhunu dinlə!
Gözəl bir məhəbbət rəvayətilə
Göylərə yüksəlir “Şur” pillə-pillə,
“Səmayi-şəms” onun eşq həsrətidir..
“Mahur” gələcəyə bizi haylayır,
“Rast” atalarmızın mətanətidir,
“Rahab” sevənlərə vüsal paylayır,
Muğam Azərbaycan həqiqətidir dir...

Muğam tədqiqatçısı professor Rafiq İmrani “Muğam tarixi” (Bakı, Elm, 1998, 280 s) 1 cild əsərinin 31-ci səhifəsində tətbiz etdiyi birinci cədvəldə muğam janrının yayıldığı əraziləri göstərmişdir.. Əgər bu cədvələ istinad etsək muğamın coğrafiyasının bir tərəfdən Çin Türküstanından başlayaraq, Yunanstana qədər uzandığını, o biri tərəfdən isə Hindistandan ayaq tutaraq bütün Şərqi dolaşıb Afrika qitəsinə qədər rişə atdığını görərik.. ABŞ-da yaşayan soydaşımız Tariyel Vəli Nuvədilinin “Əcdad” kitabına əsaslansaq müəllifin özünün qeyd etdiyi kimi muğamın şəcərə ağacının Azərbaycandan və türki-kərkükdən başlayayaraq əsas kökdə TÜRK- türkməm, özbək, qazax, qırğız, uyğur, sol kökdə İRAN- İran xalqları, yunan, sağ

kökdə isə ƏRƏB- Misir, İraq, Suriya, Əlcəızair, eyni zamanda Dağıstan və Gücüstana qədər atdığının şahidi olarıq..
"Muğam bütün musiqi növlərinin sintezidir.. Muğam ana musiqidir.. Bütövlükdə Şərq musiqisinin və ərazicə Avropada yerləşən Yunanstan musiqisinin deyil, o eyni zamanda Afrika-Amerika mənşəli caz musiqisinin də kökündə duran ən qədim tarixi reallıqdır.. Buna görə də muğamın yaşca əlahiddə qoca olduğunu deməyə tam haqqımız var.. Muğam bəşər tarixi ilə birgə yaranıb.. Heç şübhəsiz dünyaya yeni gəlmiş və bilavasitə biz Azəri türklərinin şaquli istiqamətdə birbaşa babası olan adam muğam oxumurdu. Amma muğamın yaşı barədəki fikirlərimiz yazılı tarixi mənbəələrə əsaslandı".. (T.V.Nüvədili. Əcdad. Sieti. Abş.. 1997. Səh 5.)..

Muğamlar haqqında elmi traktatlar Şərqin böyük musiqişünasları- Səfiəddin Urməvi, Əbdülqədir Marağayi, Əl-Fərabi və başqaları tərəfindən yaranmışdır.. Onlar öz elmi əsərlərində muğamların yaranma tarixindən, şöbə və guşələrin bir-biri ilə qarşılıqlı əlaqsəindən, musiqi alətlərində istifadə olunan ifaçılıq ştrixlərindən və bir çox başqa xüsusiyyətlərdən bəhs edirlər.. Səfiəddin Urməvinin yazdığı "Kitab əl-ədvar"da ("Musiqi dövrləri haqqında kitab") geniş şifahi ənənələrə və yüksək professional keyfiyyətlərə malik olan xalq musiqimizin əsasını təşkil edən səs komplekslərinin sistemləşdirilməsi başlıca yer tuturdu.. Müəllif burada özünün yaratdığı vahid sistemi təşkil edən risalələrində meydana çıxardığı mükəmməl tabulatura (musiqi notları yazısında qrafik işarələr, hərflər-rəqəmlər sistemi) 12 əsas (dövri) və 6 törəmə məqamın səs düzümünü, eləcə də melodiyalardan parçaları verirdi..
Onu da qeyd etmək lazımdır ki, ümumiyyətlə musiqi yazılışında tabulaturadan (not yazısından) istifadə etmək Urməvinin həmin yaradıcılıq işi ilə başlanan ilk tədqiqat, yaxud nailiyyət deyildi.. Çünki hələ Şumer şəhəri Uqaritdə aparılan qazıntılarda tapılan 3 min il əvvələ aid (yəni eramızdan əvvəl 10-cu əsrə aid) üstündə mixi yazı üslubu ilə qədim bir mahnının sözləri və melodiyası yazılmış gil lövhəcik , Yaxın və Orta Şərqdə hələ 8-ci əsrdən bu sahədə məlum olan bir sıra mümunələr və həmçinin əl-Fərabinin (10-cu əsr) məhşur "Kitab əl-musiqi əl-kəbir" əsərində cədvəldə iki oktava həcmində diatonik qamma səslərinin ardıcıllığının ərəb əlifbası hərfləri ilə göstərilməsi bu sahədəki dünyəvi işlərin ilk təməllərindəndi və şübhəsiz ki, Urməvi

bunlardan xəbərdar idi.. Lakin onun həmin əsərinin əsl dəyəri burada verilən tabulaturanın bütün özündən əvvəlkilərin məcmusu kimi tam təkmilliyində və məhz buna görə də bütün Şərq aləmində, eləcə də Qərbi Avropada ilk mükəmməl tabulatura olmasında idi. "Kitab əl-ədvar" əsərindəki cədvəllərdə məqamların, poetik vəznlərin adı verilmiş, əbcəd hərfləriylə səslərin yüksəkliyi , rəqəmlərlə isə uzunluğu göstərilmişdi.. S.Urməvinin sistemi üzrə hərflərin ardıcıllığı uçun 2 oktava (hərəsində 17 pillə) həcmindəki səslərinə uyğundur ki, bu da yazılmış melodiyanın səs yüksəkliyini müəyyənləşdirməyə imkan vermiş, ritmik dəqiqlik ilə musiqi düsturlarının-dövrlərinin (tən, tənən, tənənən və s.) qeyd olunması ilə əıdə edilmişdir.. Bu kitabda Urməvi muğam haqında da ətraflı söhbət açmış, muğamın kökünün hardan rışalandığını ətraflı surətdə açıb göstərmişdir.. Urməvinin kitabdakı risalərində özündən əvvəlki sələflərini (Fərabi, İbn Sina) maraqlandıran bir çox nəzəri məsələlər araşdırılıb öz əksini tapmışdır ki, bu da onun dünyəvi şöhrətini artıran əsas amillərdəndir..

Səfiəddin Urməvinin yaradıcılığı bütün yaxın və Orta Şərq xalqları musiqisinin inkişafında yeni dövrün başlanğıcıdır.. Məhz buna görə də onun əsərləri və ümumən fəaliyyəti əsrlər boyu dəfələrlə müxtəlif Şərq və Qərb ölkələri alimlərinin diqqətini cəlb etmiş, bu cəhətdən Qütbəddin Şirazi (XIII əsr), Məhəmməd əl-Cürcani, Əbdülqədir Marağayi (XIY əsr), Əbdülrəhman Cami (XY əsr) və b.. onun əsərlərinə risalələr, şərhlər yazmışlar.. Ustadın "Kitab əl-ədvar" əsəri hələ XY əsrdə məhşur türk musiqiçisi Şükrulla Əhmədoğlu tərəfindən osmanlı türkcəsinə tərcümə olunmuşdur.. Fransız musiqişünası R. D"Erlanje özünün "Ərəb musiqisi" kitabının III cildində (1937) Urməvinin "Kitab əl-ədvar və "Risaleyi-Şərəfiyyə" əsərlərinin fransızca tərcüməsini vermişdir.. "Kitab əl-ədvar"ın özünün əlyazma nüxsələri isə Sankt-Peterburq Universitetinin Şərq fakultəsinin kitabxanasında, İstanbulda, Nyu-Yorkda, London muzeyində, Oksfordun Bodli kitabxanasında və b.. yerlərdə saxlanılır.. Azərbaycan EA Memarlıq və İncəsənət İnstutunun kitabxanasında isə həmin əsərin surəti var.. Urməvinin ən birinci həmkarı və davamçılarından olan digər görkəmli Azərbaycan musiqi nəzəriyyəçisi, mütəfəkkir, bəstəkar və xanəndə Əbdülqədir ibn Qeybi əl-Hafiz Marağayidir.. Marağayi "Came əl-əhvan" ("Melodiyalar külliyatı"), "Məqasid əl-əlhan" ("Melodiyaların məqsədləri"), "Şərh əl-ədvar" ("Səfiəddin

Urməvinin “Kitab əl-ədvar” əsərinə izahat”), “Fəvaidi-əşərə” (“On fayda”) və bu günədək əlyazması tapılmayan “Kənz əl-əlvan” (“Melodiyalar xəzinəsi”) əsərlərində özündən əvvəl musiqişünaslıq sahəsində görülən bütün işləri ümumiləşdirib təjkmilləşdirməklə bərabər, həm də ayrı-ayrı məqam və ritmlərin quruluşunun izahını vermiş, həmçinin bir sıra dəyərli tədqiqat işləri meydana çıxarmışdır ki, bunlardan orta əsr musiqişünaslığında məlum olan 24 şöbə sisteminin elmi cəhətdən əsaslandırılması, həmin dövrlərin əsas musiqi formaları olan növhə, bəsit, əməl, pşrov və s. nin şərhləri ümumən bütün Şərq musiqişünaslıq elmində özünə möhkəm yer tutmuşdur.. Bütün bunlardan başqa o da məlumdur ki, Marağayinin həmin elmi-nəzəri əsərlərində ümumiyyətlə bəstəkarlıq və ifaçılıq məsələlərindən, musiqidə şer və onun vəzninin əhəmiyyətindən, həmçinin müəllifin özünün yaratdığı 20 yeni ritmdən 6-sı (zərb ur-rəbi, zərb ül-fəth, si-fövr, qumriyyə, dövri-cədid və dövri-ədl) geniş təfsir olunmuş, bütün bunlar sonrakı dövr musiqişünasları tərəfindən qorunub saxlanaraq əsas mənbələr kimi klassik ritmlər silsiləsinə daxil edilmişdir.. Marağayi bu əsərlərində muğama da geniş yer vermiş, muğamın həqiqi kökünü araşdırmış, cədvəllərini tərtib etmiş, muğamım Şərq xalqlarının həyatında nə qədər əhəmiyyətli bir rol oynadığından söz açmışdır.. Marağayinin müsiqi elmi sahəsində ömrü böyu gördüyü işlər ələlxüsus onun vəfatından sonra geniş yayılaraq həmçinin Yaxın və Orta Şərq xalqları mədəniyyətinə də mühüm təsir göstərmişdir.. Bu əsərlərin əlyazmaları bu günədək İstanbulun Nuriosmaniyyə kitabxanasında, eləcə də Hollandiyanın Leyden şəhərində Oksford kitabxanasında saxlanılır.. İstər Səfiəddin Urməvi, istər əl-Fərabi, istərsə də Əbdülqədir Marağayi öz elmi əsərlərində muğamların yaranma tarixindən, şöbə və guşələrin bir-biri ilə qarşılıqlı əlaqəsindən, musiqi alətlərində istifadə olunan ifaçılıq ştrixlərindən və başqa xüsusiyyətlərindən bəhs edirlər..

Bütün muğam, şöbə və guşə adlarının yaranma tarixi 4 qismə bölünür.. 1.Say adları. 2.Yer, məkan adları, eyni zamanda xalq, tayfa, qəbilə adları.. 3.Tarixi şəxsiyyət və ifaçının adı ilə bağlı muğam və şöbə adları..

Say adı ilə bağlı olan muğam və şöbələr bunlardır.. 1.Yegah.. 2.Dügah.. 3.Segah.. 4.Çahargah.. 5.Pəncgah.. 6.Şeşgah..6.Həftgah..

Müasir ifaçılıqda adlarını çəkdiyimiz muğamlardan yalnız beşi ifa olunur..
“Yegah”-“Rast” nuğamının başqa adıdır.. “rast” sözü ərəbcədir.. Düz, dopğru, dürüst deməkdir.. “Yegah” isə fars dilindədir.. Birinci mənasını verir..
“Dügah”- farscadır.. İki mövqe, məkan, vəziyyət, eyni zamanda axşam-səhər, gecə-gündüz mənasını verir..
“Segah”- üç mövqe, məkan, vəziyyət mənasını verir.. “Segah” muğamı forma etibarilə də üç hissədən ibarətdir.. “Zabul”, “Segah” və “Hissar müxalif”..
“Çahargah”- dörd mövqe mənasını verir.. Qədim musiqi alimlərinin fikrincə göy gurultusu ilə əlaqədardır.. Məhz təbiətin bu hadisəsi ilə əlaqədar olaraq yarabnmışdır.. Üzeyir Hacıbəyov “Çahargah” muğamının dinləyicidə coşqunluq və ehtiras hissi oyatdığını qeyd edir.. “Çahargah” muğamı Yaxın Şərq xalqları musiqisində ən çox şöhrət qazanmış muğamlardan biri, onların musiqisinə mənsub muğam köküdür..
“Pəncgah”-“Rast” muğamının zil pərdəsidir.. Bu hissənin ahəngi çox gərgin və ciddidir.. “Pəncgah” şöbəsinin “Rast” dəsgahında tutduğu mövqe çox əhəmiyyətli olduğundan “Rast” dəstgahı çox zaman “Rast-Pəncgah” adlandırılır.. Fars muğamında da “Rast-Pəncgah” çox işlənən muğamlardan sayılır.. Bunu məhşur musiqi tədqiqatçısı, alim Jan Dürinq “İran musiqisinin ənənələri və mənşəyi” adlı elmi-tədqiqat əsərində bu barədə ətraflı söhbət açmışdır..
“Şeşgah” və “Həftgah” – muğam və şöbə adı kimi heç bir mənbədə qeyd olunmayıb. Lakin mərhum bəstəkarımız və musiqişünasımız Əfrasiyab Bədəlbəylinin “Musiqi lüğəti” kitabında bu adlar diatonik səs düzümünün 6-cı və 7-ci səsi kimi şərh olunur.. Eyni kökə mənsub olan say adlarının bir qisminin muğam və şöbə adı, digər qisminin isə səs düzümünün pərdələri kimi adlanmasının səbəbi isə müqəddəs bir rəqəm sayılan “7” rəqəmi ilə bağlıdır.. Buna misal olaraq Uca Yaradanın həyatı yeddi günə yaratdığını, göyün yeddi qatdan ibarət olmasını, rənglərin əsasən yeddi olmasını, həftənin yeddi gündən ibarət olmasını, dünyanın yeddi möcüzəsini, eyni zamanda əsas notların da sayının yeddi olmasını və s.. misal gətirmək olar.. Üzeyir Hacıbəyov “Azərbaycan xalq musiqisinin əsaslari” kitabında yazır: “Ərəb, İran və Avropa musiqişünasılarına görə qədim yunanlar yeddi səma cisimlərindən hər birinin Pifaqor tərəfindən icad edilmiş 7 tondan birinə müvafiq olduğunu zənn

esdirlərmiş!”.. Bundan belə nəticəyə gəlmək olar ki, qədim zamanlarda muğam 7 əsas avazatdan ibarət olmuş və yuxarıda adları çəkilmiş ardıcıllıqla adlandırılmışlar.. Zaman keçdikcə isə zənginləşmiş və nəhayət öz intuişarını tapmış “Rast”, “Bayatı-Şiraz”, Çahargah”, “Segah”, “Şur”, “Humayun” “Şüştər”, “Mahur-hindi”, “Orta mahur” kimi əsas muğamlardan, ”Bayatı-kürd”, “Rahab”, “Şahnaz” və s. kimi əlavə muğamlardan, çox sayda və şöbə və guşələrdən ibarət bir şəklə düşmüşdür.. Onu da qeyd etmək lazımdır ki, istər əsas, istərsə də əlavə muğamlar yeddi məqam üstündə ifa olunur.. Bu məqamlar isə “Rast”, eyni zamanda “Mahur-hindi” və “Orta mahur” məqamı, “Bayatı-Şiraz”, “Şur”, Çahargah”, “Segah”, Humayun” və “Şüştər” məqamlarıdır.

Bir çox muğam və şöbə adlarının yaranma tarixi öz yerləri və məkanları ilə əlaqədardır.. Qarabağ şikəstəsi, Şirvan şikəstəsi, Salyan şikəstəsi, Şikəsteyi-fars, Arazbarı, Bayatı-Şiraz, Bayatı-İsfəhan, Bayatı-kürd, Bayatı-türk, Ərak, Əfşarı, Ovşarı, Zabul, Herat-Kabili, Osmanlı, Katar, Hicaz, Nəva-Nişapur, Hissar, Xəvəran, Mavərənnəhr, Pəhləvi, Tehrani, Azərbaycan, Xarəzmiyyə, Mahur-hindi və başqalarını buna misal gətirmək olar.

Azərbaycan xalqı təbiətən şair ruhlu, sənətsevər xalqdır.. Buna ana dilimizin poetik imkanları, səs çalarlarının əlvanlığı, həm də zəngin milli şerimiz, füsunkar aşıq sənətimiz və ecazkar muğamımız subutdur.. Şerlə musiqinin, səda və intonasiyanın uyarlığı bəşər tarixinin inkişafının ilkin mərhələlərində bir kökdə, vahid bir qaynaqda cilalanmışdır.. Bədii söz, musiqi həmişə xalqın estetik zövqünün formalaşmasında mühüm rol oynayıb.. Həm də bu sehrli qoşa sənət qəlbə xoş duyğular saçan mənəviyyat çeşməsi insana billur saflıq, sağlamlıq bəxş edib..

Şer-musiqi sehrli ruhi qida kimi xalqımızın məişətinə daxil olub... İlk yetkin-bitkin sənət nümunələrindən olan laylaların, oxşamaların ana kimi ustad bəstəkarı və ifaçısı vardı.. İnsan övladları laylaların könüloxşar melodiyası ilə nəşvü-nüma tapıb, həyat mübarizəsinə atılıblar..

Göründüyü kimi, musiqi sözsüz, şer nəğməsiz keçinmir.. Bunların sehrli dili, qəlb dünyasına təsiri ölçüyəgəlməzdir.. Dilimizin musiqiliyini, zərifliyini, məlahət və gözəlliyini təmin edən cəhətlər bilavasitə dilin təbiəti ilə, onun qayda-qanunlarının mövcudluğu və onlara müntəzəm əməl edilməsi ilə müəyyənləşir..

Azərbaycanda muğamı qəzəlsiz təsəvvür etmək mümkün deyil.. Çünki qəzəllər əruz vəznində yazılır.. Azərbaycanda əruzun Həcəz, Rəməl, Müktərik, Rəcəz, Müzare, Müctəs, Xəfif, Mütədarik, Mütəqarib, Kamil, Səri və Müctəzəb bəhləri mövcuddur ki, bu bəhrlərin demək olar ki, hamısında klassiklərimiz tərəfindən şer nümunələri yazılmış və bunların əksəriyyəti də muğam üstündə oxunmuşlar.. Lakin bədii ədəbiyyat tariximizdən məlumdur ki, klassik şairlərimiz əruz vəznində təkcə qəzəl deyil, növbənöv şer nümunələri: məsnəvi, qitə, rübai və s.. yaratmışlar.. Əruz vəzni sözlərin axıcılığını, rəvanlığını, musiqiliyini təmin etdiyi üçünEyni zamanda qəzəl bəhləri ilə, muğam bəhlərinin bir-biriylə harmoniya təşkil etdiyi üçün, muğam ifaçıları xanəndələr adətən bu vəznə müraciət etmişlər.

Məhşur alim, tarixçi, ədəbiyyatşünas, şair, nəqqqaş, xəttat və musiqişünas Mir Mövsüm Nəvvab Qarabaği "Vüzuhul-ərqam" əsərində Muğamın fəlsəfi şərhini verməklə yanaşı, "Saqinamə"dən də söhbət açmış, dəstgah muğamlarda- "dəraməd", "təsnif", "diringə" və "rəng"lərlə yanaşı "Saqinamənin də özünəməxsus yer tutduğunu qələmə almışdır.. "Saqinamə" ərəb və fars sözlərindən əmələ gəlmişdir.. Qədim şairlərin saqiyə xitabən yazdığları qəsidə, mənzumə və s. şerlər "Saqinamə" formasında öz əksini tapmışdır.. Bundan başqa klassik Şərq ədəbiyyatında da "Saqinamə" adətən poemaların əvvələrində verilir və əsərin proloqu mahiyyətini daşıyır.. Nizami, Şeyx İraqi, Əmir Xosrov Dəhləvi, Xacə Kirmani, Xacə Hafiz Şirazi, Əbdürrəhman Cami, Məhəmməd Füzuli, Əlişir Nəvai və başqa şairlər "Saqinamə"lərin klassik nümunələrini qələmə almışlar.. XII əsrdən etibarən fars, ərəb, türk dilli ədəbiyyatda "Saqinamə"lərə geniş təsadüf olunur.."Saqinamə"lər əruz vəzninin ən müxtəlif bəhrlərində, eləcə də müxtəlif poetik formalarda yazılırdı. "Saqinamə"lər adətən saqiyə müracətlə başlanır.. Ana dilli şerimizdə "Saqinamə"nin klassik nümunələrini ən çox Füzuliyə aiddir.. Lakin "Saqinamə"lərdə Sovetlər dönəmində bəzi tədqiqatçıların qeyd etdiyi kimi mey, şərab, badə, saqi ifadələri real məna daşımır.. Bu daha çox simvolik xarakter daşıyır.. Bu obrazlar təsəvvüv fəlsəfəsi ilə əlaqədar konkret mənalara malikdilər.. Şərab, mey bu dünyadakı insanı sərxoş eləyib misgin bir vəziyyətə salan şərab, mey deyil.. Bu Allahdan qorxub günah eləməkdən qaçan, işıqlı iman sahibləri üçün ülvilikdən, paklıqdan hazırlanmış cənnət şərbətidir.. "Saqinamə" ayrı-ayrı sufi

təriqətlərində konkret muğamlarla ifa olunurdu.. Ədəbiyyatda olduğu kimi, musiqimizdə də “Saqinamə” keçmiş zamanlardan indiki dövrümüzə qədər muğamlarmızın tərkibindəki şöbə və guşələrdə ğz adını qoruyub saxlamışdır.. Hal-hazırda Azərbaycan musiqisində cəmi iki “Saqinamə” qorunub saxlanmışdır.. Bunlardan biri “Şur”, digəri isə “Humayun” muğamına daxildir.. “Şur” muğamında səslənən “Saqinamə”yə- “Saqinamə-Əcəmi”də deyilir.. Əcəm sözü ərəb dilində ərəb olmayan müsəlman deməkdir.. “Saqinamə-Əcəmi” Azərbaycan muğamının köklərində inkişaf edir.. “Şur” muğamındakı “Saqinamə” əsasən “Səmayi-şəms” şöbəsinin pərdələrində səslənir.. “Saqinamə” “Şur” dəstgahının zilində, daha dəqiq desək aşağıdakı ardıcılıqqla ifa olunur.. Şah-Xətai, Saqinamə, Mavərənnəhr, Sarənc.. “Humayun” “Saqinamə”si muğamın zilində, “Bidad” və “Üzzal” şöbələrinin arasında çalınır: Məsnəvi, Tərkib, Bidad, Saqinamə, Üzzal...

Keçmiş zamanlarda muğamda “Saqinamə”lər yalnız instrumental ifada səslənirmiş “Saqinamə”lərə ilk dəfə sözdən don geyindirən, onu ləhuti qəzəllərlə obrazlı bir hala gətirən məhşur xanəndə Cabbar Qaryağdı oğlu olmuşdur.. “Saqinamə”lər əsasən Bakıda keçiriləm muğam məclislərində ifa olunmuşdur.. Bu məclislər adətən İçərişəhərdə Məşədi Məlik Mənsurovun evində keçirilmiş.. Məşədi Məlikin vəfatından sonra belə məxclisləri onun oğlu Məşədi Süleynman Mənsurov keçirirmiş Bu məclislərdə Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski, Üzeyir Hacıbəyov, Müslüm Maqamayev, Keçəçi oğlu Məhəmməd, Mirzə Fərəc Rzayev, Şirin Axundov, Qurban Pirimov, Mirzə Mənsur Mənsurov və b. Iştirak edirlərmiş..

Bu həmin Mirzə Mənsur imiş ki, ilk dəfə dahi bəstəkarımız Üzeyir Hacıbəyov, məhz onun ifasında nuğamlarımızı nota salmışdır.. Sonralar isə “Rast” dəstgahı isə 1934-cü ildə unudulmaz bəstəkarımız Tofiq Quliyev tərəfindən nota salınmışdır..

Dünya miqyasında Azərbaycan muğamları xüsusi yer tutur.. Dünyanın bir çox musiqi nəzəriyyəçisi və ifaçıları Şərq musiqisi deyəndə ilk növbədə Azərbaycan muğamlarını nəzərdə tuturlar.. Bu ona görədir ki, bizim muğamlar mürəkkəb formaya, dərin fəlsəfəyə, heyrətamiz dərəcədə mənalı və məntiqli bir ahəngə, eyni zamanda intonasiya köklərinin müxtəlifliyinə malikdir.. Şair Mirzəbaba Mustafayev (1882-1976) “Musiqi şəlaləsi” şerində muğamın oldsuqca poetik lövhələrlə əks etdirmişdir...

Musiqilə muğam dinləyirəm mən,
Muğamat nəğmələr xəzinəsidir,
Təmiz məhəbbətlə sevən, sevilən,
Odlu ürəklərin vurğun səsidir.
“Rast”ında məna var göylərdən dərin,
“Şəhnaz” sədasıdır düşüncələrin,
“Şur” Xəstə Qasımın, böyük Mirzənin,
Aşıq Ələsgərin zənguləsidir..
“Zabul” yada salır hicran qəmini,
“Qatar” xatırladır vüsal dəmini,
“Mahur” arzuların silsiləsini,-
Məcnunlar, Kərəmlər nəşidəsidir..
“Bayatı-İsfəhan”, “Bayatı-Şiraz”,
“Hicaz” dəstgahından heç doymaq olmaz,
Diqqətlə, həvəslə qulaq as bir az,
Ürək tellərinin dəfinəsidir.
“Segah”ı nə zaman dinləyirəm mənm,
Duyğular karvanı keçir qəlbimdən,
Gözəl “Heyratı”nı elə bil ki, sən,
Qoç Koroğlumuzun cəngi səsidir..
Çıxıb seyrangaha bir al səhərdə,
Qulağını bir ver “Bayatı-kürd”ə,
Dayan “Səmayi-Şəms” oxunan yerdə,
Gör: necə kamanın inləməsidir?
Bu yurdun kamança, qaval səsi də,
Çoban tütəyinin gur nəfəsi də,
Şirin gəraylısı, şikəstəsi də,
Coşqun bir musiqi şəlaləsidir...

Fəqət Azərbaycan muğamı nə qədər böyük olsa da, nə qədər heyrətamiz olsa da mədəniyyət və incəsənət xəzinəmizin bu qiymətsiz ləli bir sıra üzürlü və üzürsüz səbəblərdən tamamilə unudulmasa da, sanki öz nüfuzunu itirməyə başlamış, bir növ baxımsız qalmış, bir sıra gərəksiz musiqi janrları Azərbaycanın musiqi meydanında necə deyərlər at oynatmağa başlamışdı.. Bundan əlavə çox təəsüflər olsun ki, bəzi Avropa musiqi nəzəriyyəçiləri muğama bir ehkam kimi baxırdılar.. Belə qeyri-elmi münasibət bəsləndikdə  təbiidir ki, muğam öz ölkəsinin hududları daxilində hərlənib kənara çıxa bilmirdi.. Mətləb də burdadır ki, muğamın milli çərçivədə qapanıb qalmaq təhlükəsindən xilas etmək üçün, eyni zamanda təkcə bizim deyil, dünya xalqlarının da sərvətinə çevrilməsi üçün, muğama yiyə

duran yüksək bir ağıl sahibi, həqiqi bir vətənpərvər lazım idi.. Çox şükürlər olsun Uca yaradana ki, O həmişəki kimi Azərbaycan xalqından öz intəhasız mərhəmətini və inayətini əsirgəməyib bu adamı yetirdi.. Bu adam isə muğama layiq olduğu qiyməti verən, onun bütün dünya musiqisinin şahı olduğunu subuta yetirən, muğamı məntiqi qaydalara əsasən diqqət və zəhmətlə düşünülüb hazırlanmış layihə üzrə bütün bəşəriyyətə çatdıran "Heydər Əliyev" fondunun prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyevadır.. Azərbaycan muğamının son illərdə şöhrət tapması, status alması, əvvəlkindən də artıq məhəbbət qazanması, yayım coğrafiyasının genişlənməsi birbaşa Mehriban xanım Əliyevanın adı ilə bağlıdır.. Mehriban xanımın təəsübkeşliyi sayəsində keçirilən muğam konsertlərinin, muğam müsabiqələrinin, muğam ifaçılarına hər kəsin arzu edə biləcəyi qayğının və ümumiyyətlə muğamın təbliği ilə bağlı gördüyü işlərin anoloqu yoxdur.. Mehriban xanım muğama layiq olduğu yüksək qiyməti vermək və lazımınca tanıtmaq üçün misilsiz bir vətəndaşlıq qeyrəti göstərmişdir. Mehriban xanım Azərbaycan xalqının zəngin mənəviyyatını ayna kimi əks etdirən muğamı tanıtmaqla Azərbaycan insanının saflığını, paklığını, yüksək mənəvi keyfiyyətlərini, nəcib sifətlərini, yüksək mədəniyyətini, olduqca qədim köklərə söykənən tarixini,  yüksək intilektini, iti şuurunu, dəriin zəkasını, işıqlı ziyasını, mərdliyini, igidliyini, qorxmazlığını, eyni zamanda sülhsevərliyini, beynəlmiləlçiliyini, humanistliyini dünya ictimayyəti qarşısında nümayiş etdirmişdir və etdirməkdədir.. Çünki muğam Azərbaycan xalqının milli dəyərlərini, adət-ənənələrini və yeddi arxa dönəninin kim olduğunu xarakterizə edən Nyuton qanunu kimi çox dəqiq bir vasitədir.. Muğama qulaq asan, muğamı dinləyən hər bir normal adam Azərbaycan xalqının nə qədər böyük bir xalq olduğunu dərhal anlayır və onun kimsənin torpağını işğal etmədiyini, kimsəyə qarşı soyqırım tətbiq etmədiyini,  əksinə bütün xalqlara və millətlərə hüsn-rəğbət bəslədiyini, hörmət göstərdiyini musiqinin diliylə başa düşür.. Bu layihə eyni zamanda bizim milli sərvətimiz olan muğamı öz adlarına çıxarmaq istəyən riyakar və nankor ermənilərə sarsıdıcı bir zərbə və qətiyyətli bir cavabdır.. Mehriban xanımım hazırlatdığı "Azərbaycan muğamı multimediya toplusu" muğamımızın olduqca qədim tarixindən, muğam ifaçılarımızın həyatı, yaradıcılığından, onların heyrətamiz

ifalarınndan, misilsiz səslərindən, iki böyük bəstəkarımızın "simfonik-muğamları"nın beynəlxalq aləmdə qazandığı uğurlardan və möhtəşəmliyindən, eyni zamanda on səkkiz dənə qədim alətimizin yaranma tarixindən, onların dövrümüzə gəlib çıxana qədər kimlərin əlindən keçdiyindən söhbət açılır.. Bunun muğam sevərlərə qiymətsiz bir ərməğan olmağı ilə yanaşı, muğamın beynəlxalq aləmdə tanınması üçün nə qədər əhəmiyyətli olduğunu yəqin ki, hər bir vətənpərvər insan bütün varlığı ilə anlayır və buna görə də Azərbaycanın birinci xanımı Mehriban xanıma uzun ömür, cansağlığı diləyir, eryni zamanda ona öz dərin minnətdarlığını və təşəkkürünü bildirir.. Bu layihənin içində "Qarabağ xanəndələri" diski isə xain ermənilərin "Qarabağ bizimdir" deyə bütün dünyaya car çəkdikləri cəfəngiyyatı alt-üst eləyən və onların xəstə təxəyyüllərinin uydurduğu xülyaların nə qədər əssassız və yalan olduğunu subuta yetirən möhtəşəm bir sənəd, eyni zamanda erməni iddəalarını zərərsizləşdirmək üçün olduqca uğurlu bir addımdır.. Çünki uca Yaradan bulaq suyu kimi şəffav, bülbül avazı kimi füsunkar, dağ laləsi kimi sevdalı, ballı-şərbət kimi şirin səsi Qarabağın əzəli sakinlərinə, milliyəti azərbaycanlı, dini isə müsəlman olan insanlara bəxş etmişdir.. 170 il bundan əvvəl İrandan Qarabağa köçürülmüş həyasız tayfanın nümayəndələri ermənilərin arasında isə hələ indiyə qədər nəinki gözəl, hətta ortabab səsə malik bir dənə də adam olmayıb və şübhəsiz ki, heç vaxt olmayacq.. Çünki Qarabağ torpağı azərbaycanlılara məxsusdu və damarlarından yalnız azərbaycanlı qanı axan insanların belə gözəl səsi ola bilər.. Mehriban xanımın olduqca yüksək vətənpərvərliyi və uzaqgörənliyi ilə hazırlanan bu diskin əhəmiyyəti də bizim xalq üçün o qədər böyükdür ki, bunu bir-iki cümlə ilə ifadə eləmək mümkün deyil.. Bu Mehriban xanımın vətənimizə, torpağımıza, xalqımıza nə qədər namusla, qeyrətlə xidmət göstərdiyinin ən parlaq nümunələrindən biridir.. Şübhəsiz ki, bütün bunlar eyni zamanda hörmətli prezidentimiz zati-aliləri İlham Əliyev cənablarının da bütün sahələrə olduğu kimi, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə intəhasız və təmənnasız məhəbbətinin təzahürüdür.. İstər zati-aliləri İlham Əliyev, istərsə də Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva Azərbaycanın ən qiymətli xəzinəsi olan muğamı qoruyanların başında durmuşlar.. Muğamı qorumaq isə Azərbaycanın müstəqiilyini, milli dəyərlərini, mədəniyyətini, eyni zamanda ədəbiyyatını qorumaq deməkdir.. Məhz zati-aliləri İlham Əliyevin

və Mehriban xanım Əliyevanın dəstəyi nəticəsində bu gün muğamımız xarici ölkələrdə ləyaqətlə nümayiş olunur, milyonların ürəyinə yol tapır.. Məhz onların gündəlik qayğısı ilə bu gün Azərbaycan xalqının bu sənət çeşməsi oduqca gur qaynayır, bu sənət bağçası heç vaxt solmayan güllər-çiçəklər yetişdiririr...

Muğam ürək hissləridir, ürəyin danışmasıdır.. İnsan qəlbi sirrli-müəmmalı bir aləmdir.. İnsan qəlbinin dərinliklərində saxladığı saysız-hesabsız hekayətin hamısını dili ilə danışsa ona yüz illər lazım olar.. Muğam isə hansısa tarzənin və yaxud kamanzənin ifasında bizim qəlbimizdə olan minlərlə hekayətin mövzüsünü bizdən soruşmadan, bizimlə sorğu-sual aparmadan bizə söyləyir.. Özü də elə şəkildə söyləyir ki, biz dərhal anlayırıq ki, bizi və bütün mövcudatı yaradan Allahdan sonra bizi onun qədər kimsə anlaya bilməz.. Dahi şairimiz Seyyid Əzim musiqini insanı nukbinləşdirib həyata bağayan , ona diriliyin mənasını anladan, “elmi ədəb feyzini” qandıran sehrli bir qüvvə hesab edir.. Şairə görə insanın “səbri-qərarı”nı qarət edən ağac parçasında sirli bir aləm var.. Şair “naleyi-ney”, “nəğmeyi-tar” və “müğənni-dəmini” çox üstün tutur və belə bir qənaətə gəlir ki,  musiqidə öz ilahi səsiylə göydə süzən quları belə valeh eləyib qanadlarını saxlamağa məcbur edən Həzrəti Davud əleyhəssalamın səsində insanları yüksəlişə, mənəvi paklığa, irfana, qüssədən azad, xoşbəxt bir aləmə çağırış əks olunmuşdur.. Çünki “Ləhni-Davud” cansız əşyalara təsir etməz.. Bundan ötrü yüksək mərifət və zövq tələb olunur..

Musiqi məclisinin əhli gərək əhli-bəsər,
Ta görə pərdeyi-əsrarda yüz nəqşi süvər,
Kim ki, zövq əhli deyil, ani hesab eylə həcər,
Ləhni-Davud eləməz novi-cəmadətə əsər,
Məni ərbabi edər guş suxən, ey huşyar..

Azərbaycanda ta qədim dövrlərdən bəri olduqca mahir muğam ifacıları olub və hal-hazırda da var.. Hamıya məlumdur ki, dünyanın bütün xəzinələrindən daha qiymətli olan muğamımızın zaman-zaman top dağıtmaq sutunlarını əzmkarlıqla və mətanətlə öz çiyinlərində saxlayan tar aləti və onun ifaçılarıdı.. Məlum məsələdir ki, muğam ifasını tarsız, tarı da muğamsız təsəvvür eləmək mümkün deyil.. Tar aləti sanki Uca Yaradan tərəfindən muğam ifa eləməkdən ötrü insan əli ilə yaradılıb.. Dahi şairimiz, artıq beş yüz ildən çoxdu bütün Şərqə öz irfanı irsiylə işıq saçan Mövlanə Füzuli “Həft cam” əsərində lirik qəhrəman kimi üçüncü

gecəni Tarın məclisində keçirir. O nalə çəkən Tarın dərdlərindən xəbərdar olmaq istəyir.. Tar öz nemət verənindən uzaq düşdüyü üçün nalə və əfğan etdiyini bildirib, çərxin əzablarından şikayətlənir, keçirdiyi qara günlərdən danışır, halının dəyişilməsini, uzaq yollar keçib, yenə əslinə qayıtdığını bildirir. Tarın nəğməsindən ilhamlanan, təskinlik tapan şair gələcəyə, vüsala ümid edir.. İnanır ki, fələyin ayrı saldığı dostlar, aşiqlər bir gün mütləq qovuşacaqlar. Tarın dilindən verilən bu misralarda maddənin əslinə qayıtması haqqında fəlsəfi fikir ifadə edilmişşdir.. Bu fikir əsərin əsas ideya-istiqaməti ilə ahəngdar surətdə qovuşur.. Füzuli "Həft cam" əsərində musiqi və nəğmənin ekstatik mənasından bir bəddi-estetik vasitə kimi istifadə edir, əsl mətləbi onun arxasında ustalıqla gizlədir.. Musiqi alətləri ney, dəf, ud, qanun, tar, çəng və setardan obraz kimi istifadə edir, eyni zamanda bunlar vəcd və həyəcan rəmzi mənasında alınır, idrak, kamal, irfan mənbəyi hesab olunur.. Musiqi alətlərinin obrazlı təsvirinə Füzuli bu əsərdə  geniş yer ayırır. Belə ki, yeddi məclisin yeddisi də musiqi alətləri ilə şairin , lirik qəhrəmanın intim-emosional, psixoloji-ruhi münasibətləri əsasında qurulmuşdur.. Füzuli qədim yunanlarda məlum olan yeddi diatonik musiqi qamması nəzəriyyəsinə və Nizami Gəncəvinin "Həft peykər" poemasının quruluşuna uyğun olan "Həft cam" əsərinə  yeddi səma cismi və həftənin yeddi gününə müvafiq kompazisiya vermiş, əsərdə təsvir olunan musiqi alətlərinin söhbətlərini də onlarla bağlamışdır.. Füzulinin bəddi-estetik görüşləri silsiləsində "Həft cam" poeması xüsusi əhəmiyyətə malikdir. Şair sənətin bütün növləri kimi  musiqi aləminin sehrlərini də duyub dərk etmiş, insanın daxili aləmini, onun mənəviyyatı ilə musiqi ahənginin qarşılıqlı əlaqəsi, zövqün tərbiyə və inkişafında musiqinin rolunu yüksək qiymətləndirmişdir. O musiqi alətlərinin xarakterik xüsusiyyətlərindən, ifa və səslənmə tərzindən, onların yaranma yollarından bəhs edir.. Neyin iniltisi nakam bir eşqin möhnətindən danışır. Dəfin tüğyan və tufanında dünya kədəri, bəşər zülmü və əzablarından doğan faciə öz əks-sədasını tapır.. Ud ərşə yüksəlib aləmi yandırıb-yaxır.. Tar ilə Cəngin naləsi dağı-daşı əridir..

Şübhəsiz ki, Mövləna Füzuli bütün bəşəriyyətin şairi olmaqla yanaşı azərbaycanlıdır.. Onun bu möhtəşəm əsərində tardan söhbət açması,  tar alətinin nə qədər qədim dövrlərə aid olduğunu bildirir.. Bununla da belə qənaətə gəlmək olar ki,

muğamımızı abidələşdirən və tar ifaçılığını gün-gündən inkişaf etdirən ulularımız, muğamla yanaşı, bu ecazkar aləti də bizə ərməğan qoymuşlar. Bir vaxtlar dahi Üzeyir Hacıbəyovun "Koroğlu" operası Azərbaycanın musiqi tarixində çox böyük və əlamətdar hadisə olmuşdu.. "Koroğlu"nun ilk tamaşası milli mədəniyyətimizin bayramına çevrilmişdi.. Bəstəkarın uzun illərdən bəri topladığı yaradıcılıq təcrübəsi, onun yüksək musiqi mədəniyyəti bu operada yeni bir qüvvətlə parladı.. "Koroğlu" dünya musiqi mədəniyyətinin naliyyətlətlərini özündə təcəssüm etdirən, yüksək sənət tələblərinə cavab verən ölməz bir əsərdir.. Üzeyir Hacıbəyivun bu operanın partiturasında tardan istifadə etməsi təsadüfü deyildi.. O bu barədə öz fikrini izah edərkən belə demişdi: "Mən tarın bu iştirak etməsi üçün başqa cür düşünürəm.. Hərgah tarı milli bir alət olduğu üçün irəli çəkmək istəsəydim, o zaman kamançaya da müəyyən yer verərdim.. Lakin bu lazım deyildi.. Şərq musiqisi əsasında yazılan əsərdə kamançanın vəzifəsini skripka daha yaxşı bədii surətdə ifa edə bilər.. Lakin tar belə deyil, tarın tembri orkestrdə yenilik yaradır və onun incə səsləri artıq dərəcədə xoşa gəldiyi üçün orkestrə daxil edilməsini lazım bilirəm"..

Dahi Üzeyir Hacıbəyov bu operada tarı əziz tutmaqla zəngin xəzinəmizi-Azərbaycan xalq musiqisini bəzi nankor sosializm ideoloqlarından müdafiə edirdi.. O zaman Moskvada keçirilən Azərbaycan incəsənəti dekadası günlərində simfonik orkestrdə sarı simli Azərbaycan tarının və başqa milli çalğı alətlərimizin müvəffəqiyyətlə səslənməsi Üzeyir Hacıbəyovun yaradıcılıq ideyalarının qələbəsi və milli musiqimizin təntənəsi idi..

1965-ci ildə İngiltərəyə səfər edən və möhtəşəm "Nizami" simfoniyası ilə İngiltərə ictimayyətini heyrətə gətirən böyük bəstəkarımız Fikrət Əmirov Londonlu həmkarları-İngiltərə Bəstəkarlar ittifaqının sədri Riçard Arnelə-in, bəstəkar Ernest Temlinsonun xahişi ilə İngiltərəyə özü ilə tar aparıbmış.. Fikrət Əmirov özü də çox gözəl bir tarzən olduğu üçün İngiltərə musiqi sevərləri qarşısında Kembric universitetinin təmtəraqlı salonlarında tar çalıb və tamaşaçıların tara nə qədər heyran olduğunu görəndən sonra onlara bu milli alətimizə məhəbbətinin tarixindən danışıb və bildirib ki, onu bəstəkar edən də Azərbaycan tarıdır... Bundan sonra Londonda tarın sədası gündən-günə daha geniş yayılmağa başlayıb.. Görüşlərə gedərkən tarı da özü ilə aparmağı bəstəraımızdan xahiş ediblər.. İngiltərə ictimayyətində tara maraq o qədər artıb ki, Bi-Bi-Si radio

və televiziya şirkəti Fikrət Əmirovdan tarla çıxış eləməyi xahiş eləyib.. Bəstəkarımız “Ay qız, ay qız amandır” və “Küçələrə su səpmişəm” xalq mahnılarını İngiltərə ictimayyəti qarşısında ifa eləyib və milyonlarla tamaşaçı Azərbaycanın bu olduqca nəfis musiqi aləti ilə tanış ola bilib...
“Azərbaycan tarı” termini Azərbaycanda işlədilməsə də, Qafqaz və Orta Asiya respublikalarında Türkiyədə və İranda musiqişünaslar arasında iifadə olunan sözlərdəndir.. 1929-cu il “Yeni yol” qəzetinin 15-ci nömrəsinə və bir çox başqa mənbələrə istinadən deyə bilərik ki, ilk dəfə tarı miladi təqvimi ilə X əsrdə Türküstan türklərindən olan Tərxan oğlu Məhəmməd, Cərco şəhərinin Fərab adlı bir kəndində icad etmişdir.. Həmin dövrdən, yəni X əsrdən tar alətindən Azərbaycanda da istifadə edilmişdir.. Professor Vaqif Əbdülqasımov “Azərbaycan tarı” (V. Əbdülqasımov. “Azərbaycan tarı”, Bakı, “İşıq”, 1989, səh 3.) kitabında tarın ilkin adının “vətər” olduğunu yazır..
Belə ki, yuxarıda qeyd olunduğu kimi bizim klassik şairlərimiz, ədiblərimiz öz əsərlərində tardan söhbət açmış, onun musiqidə nə qədər əhəmiyyətli bir rol oynadığınıı qələmə almışlar.. 19-cu əsrin ikinci yarısında 1870-1875-ci illərdə isə Şuşada yaşayan Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan..1846-1902) tar üzərində bir sıra uğurlu islahatlar apararaq, onun texnalogiyasını dəyişmiş, həm çanağını xeyli böyütmüş, həm də onu 5 simdən, 11 simə gətirmişdir.. Bununla da tarda muğamların bütün şöbələrinin, guşələrinin ifası üçün olduqca əlverişli imkan yaranmışdır.. Sadıqcandan sonra Azərbaycanda bir sıra görkəmli tar ifaçıları meydana gəlmişdir ki, bu insanlar öz ifaları ilə tar sənətini, tar avazını get-gedə daha da gözəlləşdirmiş, ona, Allahdan onlara bəxş olunan istedadlarına ramən çox gözəl boyalar və naxışlar əlavə etmişlər.. Qədim tarixə malik olan Azərbaycan mədəniyyəti bu insanların sənət bulağından süzülüb gələn yaradıcılıq nəhri, xalqın inkişaf və tərəqqi xəzinəsidir.. Məhz bu insanlar zaman-zaman muğamı gələcək nəsillərə ötürmək üçün əllərindən gələni əsirgəbəyiblər.

Bu sənətkarlardan biri də artıq uzun illərdir öz ecazkar çalğısı ilə ürəkləri fəth etmiş tarzən Firuz Əliyevdir.. Elə adlar var ki, onları eşidəndə təqdim və tərif gərək olmur.. Onlar nə əlavə izahata, nə köməkçi bir əlamətə, nə fəxri ada, nişana, təmtəraqlı ünvana möhtac görünmürlər.. Belə şəxsiyyətlərin qazandıqları məhəbbət sonsuz, etimad isə misilsizdir.. Onlara qarşı xalqın rəğbəti az qala pərəstiş rəmzinə çevrilir.. Onlar insanı

saflaşdıran, ucaldan, nəcibləşdirən təsir və təlqin qüvvəsi kəsb edir.. Belə insanlardan biri də Firuz Əliyevdir.. Mən bir neçə dəfə Firuz Musiqi Akadermiyasında öz tələbələrinə dərs keçərkən tamaşa eləmişəm.. Onun çox tələbkar bir müəllim olmağıyla yanaşı, tələbələrlə olduqca səmimi və mehriban rəftarının, onlara olan qayğısının dəfələrlə şahidi olmuşam.. Onu adiləşdirən və sadələşdirən bir də onun danışıq tərzi, ləfzi, ifadəsidi.. O tələbələrə muğamın sirrlərini öyrətməklə yanaşı, klassik səbnətkarlardan, onların ifa tərzindən hansı məqamda alt, hansı məqamda üst mizrab vurmağlarından, eyni zamanda muğamla hər zaman yanaşı addımlayan qəzəl janrından, əruz vəznindən və onun bəhrlərindən söhbət açır.. Onun qəzəl janrından, əruz vəznindən mütəxəssislər qədər xəbəri olduğunu görəndə məətəl qalırsan.. Bunun səbəbini soruşanda isə "Muğamdan dərs deyən pedaqoq, muğamın ekiz qardaşı qəzəli də elə muğam qədər bilməlidir və tələbələrinə də öyrətməlidir ki, onlar xanəndələri müşayət eləyərkən elə özlərinə qapılıb qalmasınllar, xanəndənin oxuduğu hər kəlməni, hər sözü yaxşıca dərk eləsinlər ki, onunla birlikdə ifanı necə deyərlər səhnələşdirib dinləyicilərin zövqünü oxşaya bilsinlər",-deyə cavab verir...

Firuz Əliyev haqqında, onun yaradıcılıq yolu haqqında düşünərkən belə qənaətə gəlirəm ki, sənətkarın şəxsiyyəti ön planda durmalıdır.. Çünki sənətkarın ifası onun bütün mənəvi aləmindən süzülüb gəlir; şəxsiyyətin böyüklüyü, paklığı, alicənablığı, ümumiyyətlə ləyaqəti və sənət qüdrəti onun yaradıcılığında hökmən əks olunur.. Sənətlə şəxsiyyəti bir-birindən ayrı təsəvvür etmək mümkün deyil.. Bu iki mühüm keyfiyyət vəhdətdə olmalıdır.. Yalnız bu halda əsl mənada böyüklükdən, dahilikdən söhbət gedə bilər.. Firuza da belə bir səadət nəsib olub.. Firuz haqqında düşünərkən fikrimin fövqündə bir Firuz əlçatmazlığı, Firuz yüksəkliyi dayanlır. Bu elə bir yüksəklikdir ki, bu yüksəkliyə qalxmaq üçün ilk növbədə Allah vergisi olmalıdır. Bundan da əlavə sənətə olan intəhasız sevgi və çalışqanlıq, eyni zamanda mənəvi paklıq, yüksək mənəvi keyfiyyətlər, nəcib sifətlər insanı bu zirvəyə qaldıra bilər..

"Firuz Əliyevin yaradıcılığına necə baxırsız?"-sualını mənə çox veriblər.. Əvvəla bu sual ilk baxışda nə qədər sadə görünsə də, mən deyərdim bir o qədər də mürəkkəbdir.. Sadədir ona görə ki, Firuz ölkəmizin sərhədlərindən çox-çox uzaqlarda tanınır və sevilə-sevilə dinlənilir. Mürəkkəbdir ona görə ki, onun bu dərəcədə mükəmməl bir sənətkar olub özünü sevdirməsi Allahın

ona verdiyi fitri istedaddan əlavə, yuxusuz gecələrin, gərgin zəhmətin və ciddi axtarışların məhsuludur.. Firuz aramsız əməyi nəticəsində müvəffəqiyyət qazanmışdır.. Məhz buna görə Firuzun çalğısında lakoniklik, fikir yığcamlığı hakimdir. Dahi Hüseyn Cavid incəsənət haqqında çox gözəl demişdir;

İncəsənət dediyin pək-tənnaz,
Bir gözəl qız ki, çapuq ram olmaz,
Başqadır ondakı həşmət-əzəmət,
Hər təsadüflə yaxın gəlməz əvət..
Bəlkə illərcə dözərsən nazına,
Sadə, bir kərrə gülümsər o sana...

Cavid əfəndinin olduqca poetik və mənalı misralarının pruizmasından yanaşsaq incəsənət Firuzun üzünə gülümsəməkdədi, çünki onun ilham pərisi daim həqiqət eşqi ilə qanad çalır.. Firuzun ilham pərisi bəzən əngin səmalarda qanadlansa da, bəzən coşub-daşan dəryalarda kükrəyib tüğyan etsə də, bəzən nalə çəkib, fəryad qoparsa da, o həmişə öz vicdanının səsinə qulaq asmış və həqiqətin eşqi ilə öz sevimli tarını dilləndirmişdir.. Elə sənətkarlar var ki, insanların ürəyində həmişəlik sakin olurlar. Onlar xalqın mənəvi təşəkkülü və inkişafına çox qüvvətli təkan verir, hər kəsin hörmət və məhəbbətini qazanırlar.. Firuz da bu siyahıya aiddir.. Firuz uzun illərdir Azərbaycan insanına, eyni zamanda harda yaşamağından asılı olmayaraq hər bir azərbaycanlıya tarın ecazkar simləri vasitəsilə onun tarixindən, mədəniyyətindən, kədərindən-qəmindən, iztirabından, zaman-zaman məruz qaldığı haqsızlıqlardan, eyni zamanda sevincindən, eşqindən-məhəbbətindən, hicranından-vüsalından danışır.. O çaldıqca bizim dərdimizə şərik olur, lakin bununla belə bizi ovundurur, sakitləşdirir, bizə ruh verir.. Firuz çaldıqca biz Leyla və Məcnunun nələr çəkdiyini daha yaxşı anlayırıq, çünki hər birimiz özlüyümüzdə bir məcnunuq.. Firuz çaldıqca biz çox qədim tarixə malik olduğumuzu dərk eləyirik, qədim dövrlərdən indiyə boylanırıq, sevgili peyqəmbərimiz Həzrəti Muhəmməd əleyhəssəlamla görüşmüş, onunla görüşəndən sonra İslam dinini qəbul etmiş və vətənə dönərək oğuzların müsəlman olmasına nail olmuş, iki yüz on beş il ömür sürmüş ulu Dədə Qorqudu gözümüzlə görürük, Xaqaninin, Nizaminin, Əl-Fərabinin, İbn-Sinanın, Səfiəddin Urməvinin, Əbdülqədir Marağayinin, Şəms Təbrizinin, Mövləna Cəlaləddin Ruminin, Hacı Bektaşinin, Yunus Əmrənin, Nəiminin, Nəsiminin nə qədər

böyük olduğunu görürük, Mövlənа Füzuliylə daha yaxından tanış oluruq, onun dahiliyini hiss eləyirik, onun əsərlərindəki irfanı misraların ecazına bürünürük, “şəbi-hicran” təkcə Füzulini yox, bizi də yandırlb-yaxır, böyük Seyyid Əzimin bədii irsinin qarşısında diz çökürük, Cavid əfəndi, Məhəmməd Hadi fikrimizin fövqündə dayanır, Mehmed Akif Ərsoy isə misilsiz bir istiqlal şairi kimi əlçatmaz bir zirvəyə çevrilir.. Firuz Əliyevin yaradıcılıq yolu aydın və maraqlıdır.. O, öz ilhamını yalnız sənətdən alır və fitri istedadını səxavətlə dinləyicilərə bəxş edir; həyatının mənsaını musiqidə görür.. Ona görədir ki, həmişə tardan söhbət düşəndə, onun tembrini, koloritini, texnologiyasını, ifa imkanlarını xarakterizə edəndə istər-istəmə Firuz yada düşür.. Bir çox musiqiçilərimiz məndə iftixar hissi doğurur.. Ancaq Firuz sənətinə xüsusilə valeh olmuşam; bu ona görədir ki, onun ifaçılığı üçün canlı, təbii yaradıcılıq ilhamı olduqca xarakterikdir.. Firuz sarı simlə həqiqətən möcüzələr yaradır.. Onun ifasında bir-birinə bənzəməyən laylar, fikir zənginliyi var.. Firuz tar çalarkən sanki ətraf mühit onu tamamilə maraqlandırmır.. Özünün yüksək yaradıcı anında, ilhama gələn zaman öz yaradıcı ovqatından kənarda qalan hər şey onun nəzərində kiçilir.. O sanki öz ifası ilə min illər bundan əvvəl yaranmış muğam xəzinəmizin bir ahəngdə vuran nəbzini tapır və öz ifasını bu nəbzin döyüntüləri üstündə kökləyir..

Firuz Əliyev Azərbaycanın hududlarından kənarda, bir çox xarci ölkələrdə də çox sevilən sənətkarlarmızdandır.. 1991-ci ildə Azərbaycan nümayəndə heyəti ilə 70 gün ilk dəfə olaraq Tehrana qastrol səfəri zamanı Firuzun ifasının bütün Tehran ictimayyəti tərəfindən necə böyük sevgiylə qarşılandığının mən özüm şahidi olmuşam.. Həmin qastrol səfərində Hacıbaba Hüseynov, Arif Babayev, Teymur Mustafayev kimi nəhəng xanəndələrimiz, Ramiz Quliyev, Ağasəlim Abdullayev, Mirnazim Əsəddullayev, Munis Şərifov kimi ustad tar, kaman ifaçılarımız, bir də klarnet çalan Vaqif Mirzəyev iştirak eləyirdi.. Musiqilərimiz hər gün cürbəcür konsetr salonlarında konsertlər verir, hər dəfə də musiqiduyumu çox yüksək olan Tehran cammatı tərəfindən böyük bir məhəbbətlə qarşılanırdı.. Firuza olan sevgi və maraq isə tamam başqa idi.. Tehran camaatı Fruza bir möcüzə kimi baxır, onun ifasını fövqəladə bir ifa hesab eləyirdilər.. Firuzla biz Tehranın kücələrində gəzişərkən milliyətindən asılı olmayaraq insanlar oma yaxınlaşır, onun əlindən öpür, “Sənə qurban olum”. “Sənin mizrab vuran barmaqlarına qurban olum”,- kimi ifadələr

işlədirdilər.. Həm farsların, həm də azəri türklərinin sevimlisinə çevrilən Firuz, o vaxtdan bəri dəfələrlə İran musiqsevərlərinin, muğamsevərlərinin xahişi ilə Hacı Arif Babayevlə, Hacı Ağaxan Babayevlə Tehranda və İranın başqa bölgələrində çıxışlar etmişdir.. Hər dəfə də Firuzun gəlişi İran muğamsevərləri üçün bir bayrama çevrilmişdir..

Firuzun Türkiyədə də pərəstişkarları çoxdur.. Bir çox Avropa ölkələrində, ABŞ da, Kanadada və s. ölkələrdə də Firuz sevərlər kifayət qədərdir.. Təsadüfü deyil ki, Türkiyənin ən məhşur müğənnilərindən biri İbrahim Tatlısəs, Bakıda Firuzun kəndliləri buzovnalıların toy məclisində aparıcı-müğənni kimi iştirak etdiyi zaman, Firuzun heyrətamiz ifasını dinləyəndən sonra dərhal onun pərəstişkarına çevrilmişdir.. Amerikalı musiqiçi Cefri isə Firuzu sənət aləmində özünün idealı hesab edir.. Bütün bunlar Azərbaycan musiqisinin misilsizliyi ilə, bənzərsizliyi ilə yanaşı, Firuzun ilham sarvanının, muğam-musiqi karvanını dünyanın bir çox məkanlarında böyük bir sevgi ilə və Azərbaycan xalqına sədaqətlə gəzdirməsindən irəli gəlir..

***

## Firuz Əliyevin qısaca tərcümeyi halı

Firuz Əliyev 1950-ci ildə Abşeron torpağında, mavi Xəzərin sahilində Buzovna qəsəbəsində anadan olub.. 1957-ci ildə 206 nömrəli məktəbə daxil olub, 1965-ci ildə səkkizinci sinifi bitirib və həmin ildə Asəf Zeynallı adına orta-ixtisas musiqi məktəbinə daxil olub, 1969-cu ildə oranı bitirib, 1970-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlər Konservatoriyasının “Xalq çalğı alətləri” şöbəsinə daxil olub, 1975-ci ildə oranı bitirib.. Əmək fəaliyyətinə 1967-ci ildən Əzizbəyov rayonundakı mədəniyyət evində müəllim kimi başlayıb. Bir qədər sonra isə 19 nömrəli və Buzovnadakı 4 nömrəli musiqi məktəblərində müəllim işləyib.. 1983-cü ildən mərhum sənətkar İslam Rzayevin rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında konsertmeyster kimi fəaliyyət göstərməyə başlayıb.. 1992-ci ildən Azərbaycan Dövlət Milli Musiqi Akademiyasında baş müəllim, dossent vəzifəsində çalışır. Hal-hazırda “Abşeron” instrumental ansambılının bəddi rəhbəridir.. 2002-ci ildə ulu öndərimiz Heydər Əliyev cənabları tərəfindən Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif edilmişdir.. 2007-ci ildə

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları tərəfindən Azərbaycan Respublikasının xalq artisi fəxri adına layiq görülmüşdür.. Müxtəlif illərdə çoxsaylı xarici ölkələrdə; ABŞ-da, Kanada da, Fransa da, Braziliyada, Yunanstanda, Türkiyədə, İranda, Hollandiyada, Almaniyada, Avstraliyada, Macarıstanda, Rumuniyada, Belçikada və sairə yerlərdə olmuşdur.. Dəfələrlə beynəlxalq müsabiqələrdə, festivallarda iştirak etmiş, laureat adına layiq görülmüşdür. .. Xarici ölkələrdə muğamlarımızdan ibarət kompakt-diski buraxılmışdır.. Moskva şəhər Azərbaycan Təhsil Mədəniyyət Mərkəzi və Ümumrusiya Azərbaycan Konqresinin Moskva Regional Bölməsinin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan musiqi ifaçılarının 2005-ci il mart ayının 1-də və 2-də "Bakı" kinokonsert kompleksində keçirilən Moskva şəhər müsabiqəsində məhşur və sevimli xanəndəmiz Arif Babayevin sədrliyi ilə, peşəkar kamança ustası Mirnazim Əsəddullayevlə, eyni zamanda Qorxmaz Axundov və Zaur Teymurbəıyovla birlikdə münsiflər heyətinin üzvü olmuşdur.. Ailəlidir.. Dörd qızı, iki oğlu, iki qız nəvəsi var..

Abşeron torpağı zatən musiqili, nəvalıdı.. Bakının və onun otuz iki kəndinin tarixini söyləyən Xəzər Azərbaycan xaıqının musiqi ilə qanadlanan mənəviyyat aynasıdır.. Firuz gözünü açandan Xəzərdə cilalanıb saflaşan, paklaşan və Ulu Yaradanın hökmü ilə daim Abşerona can verən səfalı havanı udmuş, Abşeronun tayı-bərabəri olmayan şanısını, sarı əncirini yemiş, dəmyə bitgilərini dadmış, yarımsəhranın içində gülüstan mənzərəsi əks etdirən qızılgüllərindən ilham almışdır..

Firuz Əliyev Abşeronun ən gözəl məkanlarından biri olan Buzovnada dünyaya göz açıb. Buzovna isə "Məcməüş-şüəra" ədəbi məclisinin rəhbəri, onlarla şairin püxtələşməsində böyük rolu olmuş, eyni zamanda "Oğuznamı", "Çingiznamə", "Bakı xanı Dərya xanın Bikə xanım ilə olan əhvəlatı", "Həmvətənlərimə" poemalarının və bir çox qəzəllərin, şerlərin, tərcümələrin müəllifi Məşhədi Azərin, Haşımbəy Saqib, İsmayıl Amil Səmədzadə, Ağaəmi Əliyev, Əliabbas Zəki, Əlibala Zahir, Əzizağa Kərimov, kimi əruz biliciləri şairlərin, Ruhulla Axundov kimi ziyalının, AMEA-nın müxbir üzvü, görkəmlı ədəbiyyatşünas alim Əziz Mirəhmədovun, iqtisadiyyatımıza öz elmi əsərləri ilə çox böyük töhvələr vermiş akademik Ziyad Səmədzadənin, professor Şamil Səmədzadənin, Hökümə Dərbənd qızı Əliyeva kimi jurnalistin və

publisistin, Azərbaycan teatr səhnəsinə öz adını qızıl hərflərlə yazmış Sidqi Ruhullanın, əməkdar jurnalist Fəridə Aslanbəyovanın, cürbəcür obrazlar qalareyası ilə bizi əfsunlamış, özü gözəl, sözü gözəl aktrisa Nəcibə Məlikovanın, ustad xanəndə və gözəl muğam pedaqoqu, əməkdar müəllim Nərimal Əliyevin, xalq rəssamı Mirnadirin, əməkdar incəsənət xadimi-rəssam Rafael Muradovun, professor-doktor Ağarəfi Zeynalızadənin, uzun illər Azərbaycan radiosunda baş rejissor işləmiş, rejissor-şair İsmayıl Xudaverdiyevin, gözəl bəstəkarımız Aygün Səmədzadənin, mahir klarnet və balaban ustası Elşad Cabbarovun, Arif, Murtuz Əsədullayevlərin, həmçinin Mirnazim Əsədullayevin, Heydər Əliyev fondunun təqaüdçüsü Toğrul Əsədullayevin, hər ampulada möhtəşəm obrazlar yaradan aktyor Hacı Mirzə Ağabəylinin, qaboy ustası Kamil Cəlilovun, şair-qəzəlxan Arif Buzovnalının, eyni zamanda bir çox elm və mədəniyyət xadimlərinin məskənidir..

Rəvayətə görə təxminən on dörd əsr bundan əvvəl əmirəlmömininin Həzrət Əli əleyhəssalam Buzovnaya qədəm basmışdır.. O gündən onun qədəm basdığı yer müqəddəs bir ziyarətgaha çevrilərək “Əli ayağı” adlanmışdır.. Həzrət Əli isə Uca Yaradanın yanında çox böyük nüfuz və şərafət sahibi, sevgili peyğəımbərimiz Həzrəti Muhəmməd əleyhəssalatu vəssələmin doğma əmisi oğlu və gözünün bəbəyi qızı Xanım Fatimeyi-Zəhranın həyat yoldaşı, eyni zamanda əhlü-beytinin nümayəndəsi, şücətdə, rəşadətdə tayı-bərabəri olmayan bir sərkərdə, olduqca adil bir xəlifə, fövqəladə bir gücə və qüdrətə malik olan pəhləvan, bir həmləsində onlarla düşməni cəhənnəmə göndərən olduqca cəsarətli, cəsur bir qəhrəman, eyni zamanda irfani şerlər yazan bir şair idi.. Artıq Həzrət Əli əleyhəssalamın Buzovna torpağına həqiqətən də qədəm basması tarixi həqiqətlər əsasında subuta yetirildiyi üçün Buzovna özü də bütünlükdə müqğddəs bir ocağ sayılır.. Hər gün bu müqəddəs ocağı yüzlərlə insan ziyarət edir, burda Uca Yaradandan mətləb istəyir, hər kəs ailəsi üçün, yaxınları üçün, xalqı vətəni, torpağı üçün Allahdan əmin-amanlıq, bol-bol ruzi-bərəkət, salamatlıq və səadət diləyir.. Əgər Buzovnadakı qədim dövrlərdən qalma Alban kilsəsinə nəzər yetirsək burda bir zamanlar bir çox Abşeron kəndləri kimi Qafqazın əsl sakinləri albanların yaşadığının və indiki buzovnalıların əcdadları olduğunun qənaətinə gələrik.. Buna misal olaraq Buzovna camaatının sarışın və açıq rəngli çöhrələrini, eyni zamanda mavi və yaxud

qonur gözlü olmalarını misal gətirmək olar. Bunun da ən bariz nümunələrindən biri elə barəsində söhbət açdığımız Firuz Əliyevdir.. Buzovna öz gözəl təbiətinə və səfalı havasına görə təkcə Abşeronun deyil, bütün Azərbaycanın ən əsrarəngiz məkanlarından biridir.. Təsadüfü deyil ki, yay vaxtı burda dincəlməyə təkcə ana yurdun cürbəcür bölgələrindən deyil, xarici ölkələrdən də insanlar axışıb gəlir və dənizinin suyu, havası, qızıl rəhgli qumu, dəmyə meyvələri dərman olan Buzovnadan ömrü boyu unutmayacaqları çirin xatirələrlə geri dönürlər..

Gecələr uyuyub Xəzər qoynunda
Səhərlər oyanır gözəl Buzovna,
Sübhün o füzünkar bir zamanında,
Yenə də boyanır min cürə dona,
Yeni bir sevdayla gəlir cövlana,
Ümid bəxş eləyir min-min insana,

Keçmişə aparır hər daşı bizi,
Burda Həzrətin var ayağnın izi,
Daş üstə yazılar sirrlə doludur,
Buranın tarixi çox-çox uludur,
Nələr söyləmirlər bu kitabələr,
Burda İsgəndərdən var xatirələr,
Dil açıb məbəd də başlayır sözə,
Qədim albanlardan danışır bizə..

Vətənin gövhəri-dürrüdür bura,
İgidlər, ərənlər yurdudur bura,
Alimlər, şairlər burda boy atıb,
Nə qədər insanlar murada çatıb..
Nə qədər gözəldir burdakı həyat,
Burada yetişib Nəcibə, Ziyad,
Dünya yaranandan vardı Buzovna,
Məşhədi Azərin yurdu Buzovna,
Əzəldən muğama yardı Buzovna,
Özü də ecazkar, gözəl təranə,
Bəxş etdi Firuzu Azərbasycana...

Çox füsünkar olur Buzovnanın səhəri.. Dünən qöncə kimi gördüyün güllər, səhər tezdən açır, öz gözəllikləri ilə baxanların gözünü oxşayır, xoş ətirləri ulə könüllərə rahatlıq gətirir.. Buzovna səhər tezdən başdan ayağa gül-çiçəyə bürünür.. Yaşıl köynək geymiş ağacların zərif ətri havaya süzülür.. Günəş yavaş-yavaş boylanıb ucalır, sanki dənzin üzərindən asılı qalır,

ətrafa xoş, ilıq nur ələyir.. Uzaqdan olduqca həzin bir tar sədası eşidilir.. Tarzən sanki bu əsrarəngiz gözəlliyin nuruna bürünüb onun üçün sevda şərqiləri ifa eləyir.. Bu an dünya daha da gözəlləşir, daha da füsukarlaşır.. Sanki hər tərəf eşqlə, məhəbbətlə, sevgiylə dolur.. Hər şey həmişəkindən qat-qat gözəl görünür.. İnsan olduqca romantik bir aləmə düşür.. Bu elə bir aləmdir ki, belə şeyi ancaq şirin röyalarda görmək olar.. Lakin bu röya deyil... Reallıqdan qat-qat üstün bir həqiqətdir.. Bu humanist duyğularla yaşayan bütün insanların daima görmək istədiyi bir səhnədir.. Bu səhnənin fonunda səslənən musiqi isə sevimli tarzənimiz, ustad sənətkarımız Firuz Əliyev tərəfindən sədalanır...

Firuzun möhtəşəm ifası haqqında düşündükcə, xəyallara daldıqca, heç vaxt unutmayacağım bir xatirə məni qoynuna alıb bir neçə il arxaya aparır.. Bir neçə il bundan öncə aparıcısı olduğum "Unudulmaz ifaçılar" silsiləsindən növbəti verilişi mərhum ustad tarzənimiz Baba Salahova həsr etmişdim.. Verilişin sonunu çəkirdik.. Bununla əlaqədar mərhum tarzənin qəbrinin üstündə çəkiliş aparmaq üçün bir neçə nəfərdən ibarət çəkiliş qrupumuz Buzovnaya yollandlq.. Redakror Çingiz Abbasov, operator Vahid Nəzərov, adını unutduğum texniki işçi və sürücü Rəsul Babayev.. Hava çox isti idi.. Firuz bağ evində idi.. Zəng vurdum ona ki, pürrəngi çay hazırlatdırsın gilas mürəbbəsiylə, gəlirik sizə.. Çox yaxşı bilirdim ki, Firuzun həyat yoldaşı Səyyarə müəllimə əla gilas mürəbbəsi bişirir.. Firuz mənə dedi ki, artıq Səyyarə müəllimə sənin payını ayırıb..

Baba Salahovun qəbrinin üstünə ziyarətə gələn mahir qoşanağara ustası, respublikanın xalq artisti Sadıq Zərbəliyevlə və Buzovnanın axundu Hacı Salmanı da Firuz gilə dəvət elədim..

Firuzgilin həyətində sərin bir yerdə oturub çay içirdik.. Birdən bir ideya beynimi silkələdi.. Firuza dedim bir "Dilkeş" çal dincəlim.. Operatora da dedim ki, kameranı hazırla.. Öz peşəsini çox yaxşı bilən operator Vahid Nəzərov dərhal kameranı hazırladı.. Firuz çalmağa başlayan kimi kameranı işə saldı.. O dəqiqə də bədahətən fikrimə gəldi ki, elə burda masa ətrafında oturan adamlardan Firuz barədə öz ürək sözlərini deməyi xahiş eləyim.. Elə də oldu... Onlar Firuzun sənəti haqqında çox isti sözlər dedilər.. Ertəsi gün isə mərhum sənətkarımız İslam Rzayevdən və ifası ilə dinləyiciləri məftun edən Hacı Tələt Qasımovdan Firuz barədə müsahibə aldım.. Beləliklə əla bir film yarandı.. Bir neçə gündən sonra

Azərbaycan Televiziyasında nümayiş olundu.. Bu film televiziyada nümayiş olunandan sonra Azərbaycanın bir çox bölgələrindən, eləcə də Bakı şəhərindən və Abşeron kəndlərindən şirkətimizə çoxlu zənglər oldu.. Hamı filmin təkrarən göstərilməsini arzu edirdi.. Film xalqın o qədər xoşuna gəlmişdi ki, biz Firuz sevənlərin xahişi ilə ən azı əlli dəfə filmi nümayiş elətdirdik.. Şübhəsiz ki, filmin inanılmaz dərəcədə səbəb ilk növbədə Firuzun ruhoxşayan, könül tumarlayan, qəlb sığallayan, əsəb sakitləşdirən, dərd unutduran, şirindən-şirin, kövrəkdən-kövrək, hamardan-hamar, eybsiz, qusursuz, səhvsiz, xətasız ifası idi..

Hamıya məlumdur ki, Abşeron toyları hər hansı bir konservatoriyadan, musiqi akademiyasından qat-qat üstün olan, daha sanballı, daha tələbkar bir muğam məktəbidir.. Belə ki, bu məktəb hələ nə konservotoriya, nə akademiya olmamışdan yüzlərlə muğam biliciləri, muğam ifaçıları, xanəndələr, tarzənlər, kamanzənlər, hətta balaban çalanlar yetişdirmişdir.. Kimləri, hansı böyük sənətkarları görməyib Firuz Abşeron toylarında?! Xanəndələrdən Hacıbaba Hüseynovu, Yağub Məmmədovu, Əlibaba Məmmədovu, Əbülfət Əliyevi, Tələt Qasımovu, Arif Babayevi, tarzənlərdən Bəhram Mənsurovu, Hacı Məmmədovu, Əhsən Dadaşovu, Həbib Bayramovu, Sərvər İbrahimovu, kamanzənlərdən Habil Əliyevi, Tələt Bakıxanovu, Elman Bədəlovu və ilaxır və ilaxır.. Hərəsinin öz dəsti-xətti, öz üslubu, öz yaradıcılıq manevrası, öz yolu... Bu sənətkarlar özlərindən əvvəlki ustadi-əzəmlərin məktəbinin əlaçı tələbələri idilər..Bu sənətkarlar Sadıqcanın, Qurbanın, Məşəd Süleymanın, Mirzə Mənsurun, Cabbarın, Ələsgətrin, Seyidin, Mütəllimin, Zülfünün məktəbində təhsil almışdılar.. Muğam qədim zamanlardan bu yana sənətkarlar tərəfindən sistemli şəkildə qurulmuşdur.. Lakin hər sənətkar bu qiymətsiz gövhərə Allahın ona verdiyi istedada güvənərək öz naxışlarını vurmuş, bununla da muğamı musiqi mədəniyyətimizin mehrabına çevirmişlər.. Firuz da bu sənətkarların məktəbində dərs almış, ondan bəhrələnmiş, öz sələflərinin yolunu ləyaqətlə davam etdirərək, uşağlığından bu yana musiqimizin mayası, qanı-canı olan muğamı damla-damla mənimsəmiş, sonra isə özü mahir bir ifaçıya çevrilərək muğama insanı ehtizaza gətirən, yaxşı mənada bədənində qanını donduran naxışlarını vurmuşdur və vurmaqdadır.. Firuzun ifasında diqqəti ən çox cəlb edən nədir? Hər şeydən əvvəl hissi dərinlik, obrazlı ifadə.. O, çox imporvizə edən yaradıcıdır.. Məhz

canlı imporvizə etmək xüsusiyyətinə görədir ki, o tarzənlərin ən mahir ustalarından sayılır. İndiki zamanda çox az tarzən tapılar ki, Firuz qədər muğamı kiçik detallarına qədər bilsin və olduqca peşəkarcasına ifa eləsin.. Firuzun fantaziyasında yeni ifaçılıq ştrixləri, orjinal üslub özünü parlaq şəkildə göstərir.. Firuz yaşadılmağa layiq, ənənəvi cizgiləri özünün yaratdığı cizgilərlə məharətlə əlaqələndirə bilir. Firuzda texnika yumuşaq, incə səslə uyuşur, onun barmaqlarının texnikası qeyri-adidir. O coşqun tempdən, yumuşaq tempə heyrətamiz bir təbiiliklə keçir.. Firizun ifasındakı cəhətlərdən biri də ahəngin gözəlliyidir. Onun dinamik ifası əhatəli olduğu qədər də şirindir.. Olduqca məlahətli ahəng, coşqun, güclü səsdən yarıpıçıltı səsə qəfil keçid Firuzun ifasını son dərəcə gözəlləşdirir.. Bütün varlığı ilə tara bağlı olan Firuz tarı əlinə alan kimi birdən-birə tanınmayacaq dərəcədə dəyişir. O tarı elə böyük bir ilhamla çalır ki, az qala özündən bixəbər kimi görünür.. Belə bir cəhət isə ancaq əsl musiqiçilərə xasdır... Firuz hər muğamı onun məzmun və xarakterinə uyğun ifa eləyir.. Onun ifası könüllərdə xoş, eyni zamanda romantik duyğular oyadır.. Firuz mizrabı, Firuza məxsus ahəng başqa tar sədalarından xeyli fərqlənir, dinləyicidə fərəh, sevgi, eyni zamanda kədər kimi dəruni hisslər oyadır və onu düşünməyə vadar eləyir.. Firuz tarı məharətlə və yüksək peşəkarlıqla ifa eləməklə yanaşı, yaradıcı bir sənətkar olduğu üçün, bitib-tükənməz fantaziyasının ninniləriylə dinləyicini elə bir aləmə aparır ki, burda yalan, riya, cinayət, xəyanət, rüşvət və bu kimi pisliklər yoxdur.. Bu aləmdə yalnız paklıq, saflıq, haqq və ədalət, sevgi və məhəbbət, eyni zamanda Uca Yaradana eşq və ibadət hökm sürür.. Bu Firuz Əliyevin iç dünyasıdır ki, o hisslərini, duyğularını tardan çıxardığı səslər vasitəsilə öz dünyasının nəıcibliyini, gözəl əxlaqını, humanizmini, bir sözlə yüksək mənəvi keyfiyyətlərini göstərərək, bizi də öz dünyasına çəkib aparır və biziim də iç dünyamızı saflaşdıraraq, humanist duyğular bəxş edir.. Artıq sağlığında canlı klassikə çevrilən xanəndəmiz Ağaxan Abdullayev Abşeron toylarının birində “Kəsmə-şikəstə” oxuyarkən, Firuzun çalğısı onu o qədər duyğulandırıb ki, üzünü ona tutub bədahətən “Ay Firuz səni məndən ayıranın ürəyi parçalansın” deyib.. Bu ifadəni isə elə şənliyində iştirak eləyənlər maqnitafon kasetinə yazıblarmış.. Bu böyük sənətkarın Firuz sənətinə olan məhəbbətinin poetik ifadəsi bu iki möhtəşəm sənətçinin həmin toyda çalıb-oxumaları ilə bir yerdə tez bir zamanda təkcə Azərbaycan məkanında deyil, ərazicə Azərbaycandan çox böyük olan İran İslam

Respublikasında yayılıb.. Belə ki, Firuz haqqında bu kitabın müəllifi-yəni mən özüm İranda olarkən həmin kasetin üzünün bir təbərrik kimi evlərdə, mağazalarda dinləndiyinin şahidi olmuşam.. Hətta səsyazma firmaları kaseti satışa buraxıb..

Abşeronun ən ucqar kəndlərindən birindəki toy məclisindən birlikdə çıxırıq.. Firuzun çalğısı yenə məni valeh edib.. Maşına otururuq.. Firuzun öz şəxsi maşını var.. Lakin maşınını yüngülvari təmirə verib.. Bu oturduğumuz maşın isə sadəcə olaraq taksidi.. Sürücü mühərriki hərəkətə gətirir.. Hələ ən azı düz bir saat yol gedəcəyik.. Firuzdan əməlli-başlı müsahibə almağın əsl məqamıdı.. Lakin bütün toy mərasimi boyu onun çaldığı musiqinin sehrinə düşdüyüm üçün bir müddət danışmıram, susuram.. Onun da danışmağla o qədər də arası olmadığı üçün susur.. Ürəyim saysız-hesabsız sualla dolu olduğu üçün baxışlarımdan suallar saçılır, lakin yenə danışa bilmirəm.. Hardan başlayacağımı bilmirəm.. Firuz mənə ani olaraq nəzər salıb əsil ariflər kimi nələr düşündüyümü hiss eləyir.. Amma öz qızıl xasiyyətinə ramən yenə susur.. Nəhayət yenə mən həmişəki kimi sükutu pozuram:

-Fikrimdən keçir ki, sənin haqqında kitab yazım.. Dahi şairimiz, rəhmətlik Bəxtiyar Vahabzadə Türkiyədə Mövlanə Füzulinin 500 illik yubileyi keçiriləndə sənə “Əfsanəvi tarzən” adı verib.. Elə kitabı da bu adla adlandırmaq istəyirəm..

-Allah hər ikisinə qəni-qəni rəhmət eləsin.. O vaxt ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyev cənabları da orda idi.. Tanrı onun da ruhunu şad eləsin.. O bizim vətənizmiz üçün çox böyük işlər görüb.. İndi də onun bəhrəsini dadırıq. Yəqin ki, uzun illər dadacağıq.. Allah səndən də razı olsun ki, öz qızıl vaxtını sərf eləyib mənim haqqımda kitab yazmaq istəyirsən.. Amma sən mənə de görüm ki, indi mən neyləməliyəm?

-Heç nə! Sadəcə olaraq mənim suallarıma cavab verməlisən, vəssalam!

-Vüqar, bilirsən ki, mən danışmağı o qədər də xoşlamıram.. Saatlarla tar çalım, yorulmuram, amma bir az çənəmi tərpədən kimi yoruluram.. Birdə ki, axı sən mənim haqqımda demək olar ki, hər şeyi bilirsən.. Götür qələmi, yaz da...

-Bu səfər gərək yorulmayasan.. Çünki qayda-qanun var.. Nə olsun ki, mən sənin haqqında çox şey bilirəm.. Amma gərək biz Firuz sevərlərə hər şeyi bütün təslifatıyla, nöqtəbənöqtə çatdıraq.. Çünki inşallah bu kitab onlar üçün çox gözəl bir ərməğan olacaq.. Ona görə də mən səndən hökmən mübahisə

almalıyam.. Yoxsa nəyisə düz yazmaram, nədəsə səhv buraxaram, həm xalqı aldadmış olaram, həm də elə sən özün inciyərsən ki, bu nədi yazmısan?
-(Gülümsəyir) Daha sənsən də.... Hamı bilir ki, mən səni özümdən çox istəyirəm.. Yaxşı, döşə suallarını gəlsin...
-Bax, bu başqa məsələ... (Dərhal cibimdən balaca bir diktafon çıxarıram, bir qədər fikirləşirəm, sonra sual-cavaba başlayıram.. Amma ilk sualım ənənəvi suallardan olmur, bir az qeyri-adi olur)
-Səni bu tara nə bağladı ki, onun sirrini tapdın?
(O isə yenə həmişəki kimi gülümsəyir)
-Mənə elə gəlir ki, tara olan sevgi, məhəbbət mənimlə bir yerdə doğulub. Çünki elə ayaq açıb yeriyən zamandan böyük sənətkarlarımızın ifasında tar sədası eşidəndə sanki tərki-dünya olurdum, elə bil bütün dünyanı mənə bağışlayırdılar.. Mən fəhlə ailəsində anadan olmuşam. Atam uzun illər neft buruqlarında işləyib.. Yəni onu demək istəyirəm ki, ailəmizdə musiqiçi olmayıb.. Əlbəttə hamı musiqini sevirdi, amma mən musiqinin məcnunu idim.. Uşaq vaxtı başqa şeylərdə öz tay-tuşlarımdan heç bir şeylə fərqlənmirdim, amma musiqiyə olan marağıma görə yəqin ki, başqalarından fərqlənirdim.. Çox vaxt xəmir yayan oxlonu sinəmə basıb təsəvvür eləyirdim ki, tar çalıram... Valideynlərim də məndə bu həvəsi görüb məni on bir yaşım olanda musiqi məktəbinə qoydular..
-Özün istədin, yoxsa atan dedi, gəl səni musiqi məktəbinə qoyum?
-Həm özüm istədim, həm də elə atam istədi.. O vaxt Buzovnada musiqi məktəbi olmadığına görə Maştağadakı 10 saylı musiqi məktəbində oxumağa başladım.. Sevincimin həddi-hududu yox idi.. Neçə vaxtdır tar əvəzinə əlimdə tutduğum oxlov əsil tarla əvəz olunmuşdu.
-Müəllimin kim idi?
-İlk müəllimim Novruz Aydəmirov idi.. Musiqi məktəbindən evə gələn kimi Novruz müəllimin tapşırıqlarını yerinə yetirmək üçün tarı bağrıma basıb saatlarla çalırdım, daha doğrusu çalmağı öyrənirdim.. Çox vaxt yemək, hətta su içmək yadımdan çıxırdı.. Elə indiki kimi heç cürə, heç cürə tardan ayrılmaq istəmirdim.. Düz beş il Novruz müəllim mənə dərs dedi..
Bu yerdə kövrəldiyi üçün bir qədər susur.. O dəqiqə anlayıram ki, onu kövrəldən Novruz müəllimin ağır bir xəstəliyə tutulmasıdı.. Artıq mən də hələlik ona sual vermirəm..

Firuzun həyat və yaradıcılığından az-çox xəbərim olsa da, yenə də onun öz dilindən bunları eşitmək olduqca xoş olduğu üçün onun danışdıqlarını səhnələşdirirəm və gözümün önünə mavi Xəzərin qumlu sahillərində doğulan və hər bir cəhətdən mavi Xəzərə bənzəyən mavigözlü bir yeniyetmə gəlir.. Bu səhnələri mən öz xəyyallarımda qursam da, onlar reallığdan doğduğu üçün sürətlə axan bir sinemalenti kimi gözümün önündə canlanır. Əlində tar tutmuş sarışın, mavigözlü yeniyetmə mavi Xəzərin ləpədöyəninə yaxınlaşır və gözlərini uzaqlara zilləyib ona doğmadan da doğma olan Xəzərin ənginliklərinə baxır.. Xəzər isə şıltaq bir uşaq kimi gah coşur, dalğaları şahə qalxır, gah sakitləşir və həzin nəğmələr oxuyur.. Yeniyetmə Firuz isə Xəzərin şıltaqlığlarına da, coşub-daşmasına da, eyni zamanda həzin nəğmələrinəı də böyük bir məhəbbətlə tamaşa eləyir.. Çünki o özü Xəzərin övladıdı və Xəzərin mavi sularından müsbət enerji və ilham alır.. Yeniyetmə tarı sinəsinə basıb çalır və çalğısı ilə sinəsində ana yurdun bütün tarixini və milyonlarla sirrini saxlayan Xəzəri salamlayır.. Xəzər də öz növbəsində öz övladının salamını hörmət və ehtiramla alır.. Bundan sonra yeddi məqam ahəngi bir-birini əvəz eləməyə başlayır. Firuz çalır, mavi Xəzər isə onun çalğısına ramən kövrək şərqilər oxumağa başlayır..

Bilirəm, danışmağı sevməyən, fəqət tarı danışdıran və tar vasitəsilə dinləyicələrə çoxlu-çoxlu hekayətlər söyləyən Firuz mənim xatirimi dünyalar qədər istədiyi üçün, eyni zamanda söhbət tardan düşdüyü üçün hekayətinə davam edəcək.. Elə də olur, onun mavi gözlərinin dərinliklərində sənətkar qığılcımı görünür və o yaddaşını vərəqləyib sözünə davam edir;

-Musiqi məktəbində brinci, ikinci siniflərdə oxuyanda bir az çətinlik çəkirdim.. Amma artıq üçüncü sinifdə oxuyanda çox çətin əsərlər çalırdım.. Dahi alman bəstəkarı Mosartın əsərlərindən də ifa eləyirdim.. Elə həmin il musiqi məktəbləri üzrə müsabiqə keçirilirdi. Məni də saldılar müsabiqəyə.. Müsabiqə 7-saylı musiqi məktəbində keçirilirdi.. Onda mənim on üç-on dörd yaşım vardı, boyum da yaşıma görə bir qədər balaca idi.. Müsabiqədə bir neçə nömrə ifa elədim.. Bramsın "Macar rəqsi"ni çaldım.. Adil Gərayın "Səfiyi-kürd"ünü, "Şahnazsayağı"sını ifa elədim. Böyük sənətkarımız, mərhum Əhmədxan Bakıxanov münsiflər heyətində iştirak edirdi.. Allaha and olsun, o mənim ifamı dinləyəndən sonra, dedi ki, oğlum, çal yenə qulaq asaq və rəhmətlik mənim çalğımı çox bəyəndi.. Mən bu müsabiqədə yer

tutdum.. Buna görə də məni Filarmoniyada açıq konsertə saldılar.. Açıq konsertdə “Macar rəqsi”ni ifa elədim.. O qədər balaca idim ki, syulda oturanda ayağım yerə çatmırdı.. Buzovnada özfəaliyyət ansambılı var idi.. Mən həm də ora gedirdim.. Yaxın dostum var idi.. Mərhum Yusif Quliyev, kamança çalan.. Biz həm bir yerdə oxuyurduq, həm də birlikdə ansambıla gedirdik.. Uşaq vaxtı kənddə kluba gedirdik, orda da məşqlər eləyirdik.. Novruz müəllim çox tələbkar idi, əla not bilicisi idi.. O mənə Mosartın əsərlərini çaldırırdı.. Sonra Hacı Xanməmmədovun 1 nömrəli konsertini, Cahangir Gahangirovun əsərlərini caldım.. Bəstəkar Ruhəngiz Qasımova da məni “Ulduz” verilişinə çəkdi.. Bundan sonra lap həvəslənib sənədlərimi Asəf Zeynallı adına musiqi məktəbinə verdim və qəbul olundum..O zaman orda direktor Azər Abdullayev, tar üzrə şəbə müdiri rəhmətlik Adil Babayev idi.. Burda not müəllilim Ceyran Haşımova, muğam müəllimim isə Əlikram Hüseynov oldu.. Rəhmətlik Yusif də burda mənimlə bir yerdə oxuyurdu..
-Əlikram müəllim mərhum yazıçımız, professor Çingiz Hüseynovun qardaşıdı. Çingiz Hüseynovun bədii əsərləri beynəlxalq aləmdə çox məhşurdu..  Həm də elmlər dokroru, professor Arif Zeynallı ilə bibioğlu, dayıoğludular.. Əlikram müəllimin ifasını radioda lentə mən almışam.. Onun radioda heç bir lent yazısı yox idi.. Aşığı mən bilmirdim ki, Əlikram müəllim sənin müəllimin olub..
-O vaxt sinif olmadığı üçün mən dərsə onun evinə gedirdim.. Xalam gili də Əlikram müəllim gilin qonşusu idi.. Ordan da çıxıb xalam gilə dəyirdim..
-Əlikram müəllimin ifasını lentə alandan sonra o təşəkkür əlaməti olaraq iki dənə araxis tortu, bir də üzüm gətirdi.. Sentyabrın axırları idi.. Abşeronun şanısının dadını bilməyən yoldaşlar bir az büzüşmüş üzümlərə baxıb ağız büzdülər.. Mən isə onların hərəsinə bir qədər üzüm verib dedim ki, dadına baxın, sonra ağız büzün.. Mən yüz faiz əminəm ki, üzümün dadına baxandan sonra, kişiyə min dəfə çox sağ ol deyəcəksiz..  Şanını dadandan sonra dedilər ki, bu üzüm deyil, baldır.. Yeyəndə adamın boğazı qəhərlənir və o ki, var, Əlikram müəllimə minnətdarlıqlarını bildirdilər.. Uşaq vaxtı Fatmayıdakı bağımızda özümdən böyük qardaşım Mövsümlə birlikdə radioya qulaq asırdıq. Onu da qeyd eləyim ki, qardaşım Mövsüm Əhməd yazıçı-dramaturqdu, bir çox bədii əsərlərin müəllifidi, həm də sənin pərəstişkarındı, yox, pərəstişkarın deyil, fanatındı.. Deyir mənim üçün tutaq ki, vokal

sənətində Müslüm Maqamayev, Rəşid Behbudov hansı zirvədə dayanıbsa, Firuz da tar ifaçılığında o zirvədə dayanıb.. Nə isə, sözüm onda deyil, çox yaxşı yadıma gəlir ki, radioya qulaq asırdıq, orda diktor elan elədi ki, Fransada keçirilən müsaqibədə Abşeronun ağ şanısı həm tərkibində olan vitaminlərin sayına, həm də elə ümumiyyətlə dadına görə birinci yeri götürüb.. Allah-təala bizə gör necə nemətlər verib, amma çox əfsuslar olsun ki, biz qədrini bilmirik.. Nə isə, söz-sözü çəkdi, mən də üzümdən söhbət saldım.. Əlikram müəllimin o vaxt gətirdiyi üzüm lap yerinə düşmüşdü.. (Zarafata keçirəm) Bəlkə sənin çalğını da elə Abşeronun şanısı, sarı ənciri bu qədər şirinləşdirib, hə? (Firuz da zarafata, zarafatla cavab verir)

-Bunu deyə bilmərəm, amma səni, mənim əziz dostum, istedadlı alim-publisisit, xalqımızın gözəl şairi Vüqar Əhmədi yüz faiz əminəm ki, bu qədər qanışirin eləyən Abşeronun üzümü və ənciridi..

-Mən şəhərdə doğulub böyümüşəm..

-Nə olsun? Hər yay Fatmayı bağlarına əncir-üzüm yeməyə getmisən...

-Deyəsən axı mövzudan ayrı düşdük...

-Muğamın arasında hərdən rəng də çalmaq lazımdı da.

-Yaxşı, Asəf Zeynallını bitirəndən sonra neylədin?

-Asəf Zeynallı adına məktəbi bitirəndən sonra 1970-ci ildə indiki musiqi akademiyasına daxil oldum.. Orda da mənə köhnə müəllimim Novruz Aydəmiriv dərs dedi.. Bir müddət mənə dərs dedi, sonra işdən çıxdı getdi Maştağadakı musiqi məktəbinin direktoru oldu.. Not müəllimim isə professor Vaqif Əbdülqasımov idi.. O vaxt muğam kafedrası yox idi.. Sonradan muğam kafedrasını gözəl bəstəkarımız, mərhum Süleyman Ələsgərov yaratdı..

-Muğam kafedrasının ilk müəllimlərindən biri də sənsən...

-Düz beş il orda təhsil aldım.. O vaxt oranın böyüyü rəhmətlik Soltan Hacıbəyov idi, bizi möcüzəli bir aləmə aparan “Karvan” simfonik lövhələrinin müəllifi.. Hərbi xidmətdən qayıdandan sonra isə müəllim işləməyə başladım..

-İndi də iyirmi iki ildi orda müəllim işləyirsən..

-Hə! Amma o vaxt konservotoriyada oxuya-oxuya Buzovnadakı musiqi məktəbində müəllim işləyirdim, həm də toy şənliklərinə gedirdim..

-Musiqi məktəbində dərs dediyin ərəfədə ailə qurdun, eləmi?

-Hə!... 1980-cı ildə ailə qurdum.. Uşağların anası mən işlədiyim musiqi məktəbində nəzəriyyə müəllimәsi idi. Orda tanış olduq..
-Məsuliyyətin artdı, çiyninə bir az da ağır yük düşdü..
-Artdı da sözdü... Daha subay deyildim, ona görə də özümü oda-közə vurmalı idim...
-Birinci dəfə kiminlə getmisən toya?
-Birinci dəfə deyərdim ki, əvəzolunmaz pedaqoq Nəriman Əliyevlə toya getmişəm... Nəriman müəllimin səsi çox yüksək diapazona malik olmasa da, çox qüvvətli muğam bilicisi idi və tələbələrə də muğamı bütün detalları ilə öyrədirdi.. İndiki muğam ifaçılarının çoxu onun tələbələri olub.. Allah ona qəni-qəni rəhmət elədin.. Hə, birinci dəfə onunla toya getmişəm.. Sonra çox möhtəşəm ifası ilə milyonların qəlbini fəth eləmiş Ağaxan Abdullayevlə tanış oldum, onunla toylara getdim. Rəhmətlik Məmmədbağırla da çox toya getmişəm.. Məmmədbağırla bir yerdə böyümüşük.. Çox güclü oxuyan idi Məmmədbağır, hər şeyi bilirdi, bir muğamdan başqa bir muğama çox rahat modulasiya eləyə bilirdi. Bu xüsusiyyət çox az xanəndələrdə olub.. Hacıbaba rəhmətliyin belə şeylər eləməsi yadıma gəlir.. Bu çox çətin bir şeydi.. Hansısa musiqi alətində bəlkə də o qədər çətin deyil, amma xanəndənin ifasında fitri istedad tələb eləyən bir şeydi..
Yenə bir qədər sükunət hökm sürür.. Nəhayət Firuz özü sükunəti pozur;
-Sonra böyük xanəndəmiz və gözəl insan Hacı Tələt Qasımov hələ məni el şənliklərinə, toy-düyünlərə aparmağa başladı... Sonra mərhum sənətkarlarımız Hacıbaba Hüseynovla, Yağub Məmmədovla, Rübabə Muradova ilə yaradıcılıq ünsiyyəti qurdum..
-Rübabə Muradova musiqi xəzinəmizdə çox qiymətli bir ləl idi.. Füzulişünas alim, qəzəlnəvis şair, rəhmətlik Hacı Mail onun haqqında gözəl bir “Qoşma” yazmışdı:

Hududsuz dünyaya bənzər muğamat,
Sən onda açmısan dünya, Rübabə,
Səsindən həzz alır bütün kainat,
Səninlə fəxr edir dünya, Rübabə..
Eşqin gözəllərin piyaləsidir,
Nəfəsin aşiqin öz naləsidir,
Səsin gur çayların şəlaləsidir,
Sənə həsrət çəkir dünya, Rübabə..
Ayağın düşməsin heç üzəngidən,
Necə zövq alarıq Ərəbzəngidən,

Əgər əl götürsən birdən cəngidən,
Olursan ismətli Leyla, Rübabə..
Olmasa bülbülün çəməndə gülü,
Nə qəlbi açılmaz, nə ötməz dili,
Ey şurə gətirən şair Maili,
Qəlbimə dolduran sevda, Rübabə...

-Allah Hacı Mailə qəni-qəni rəhmət eləsin.. Onun tək Rübabə xanıma deyil, bir çox sənətkarlarımıza həsr elədiyi şerlər var. Hacıbaba Hüseynova, Əşrəf Əşrəfzadəyə, Yağub Məmmədova, Əiibaba Məmmədova, Tələt Qasımova, Ağaxan Abdullayevə, opera müğənniləri Gülxar xanıma, Sahibə Əhmədovaya və sairə.. Bu siyahini çox uzatmaq olar. Muğam aşiqi idi.. Çox hörmətli adam idi.. Tək Nardaranda deyil, bütün Abşeron kəndlərində böyük nüfuz sahibi idi.. O qədər hörməti çox idi ki, o məclisə gələndə məclis əhli onun üçün ayağa qalxırdı.. Onunla da çox məclislərdə olmuşam.. Musiqini çox dərindən duyurdu, muğamı bütün detallarına qədər bilirdi.. Mənim ifamı çox bəyənirdi.. Əla qəzəllər yazırdı.. İstər peşəkar, istərsə də gənc xanəndələr tez-tez onun qəzəllərinə müraciət edirlər.. Bütün xanəndələrimə sevgisi vardı.. Amma Rübabə xanıma ayrıca hüsn-rəğbəti vardı..

-Rübabə Muradova sənə necə demişdi? Mümkündüsə bir az danış...

-İlk dəfə o böyük sənətkarla toyda idim.. Toyun ən qızğın yerində mən "Haşım-segah" çalırdım, o da oxuyurdu.. Muğamın ortasında bir az qulaq asdı mənə sonra cənub ləhcəsiylə dilləndi: "-Oğlan məni görüb coşmusan? Çalan əllərin barmağların var olsun"! Mən də çox ehtiyat edirdim, çox nəhəng oxuyan idi.. Çox yanığlı səsi vardı. Bu qadınlar arasında yeganə səs idi, elə bil səs nalə çəkə-çəkə çıxır.. Kişilərdə də Hacı Tələtdədi... Çox əfsuslar olsun ki, Hacı Tələt daha oxumur.. Onun da səsi çox yanıqlıdı..

Burda Firuz yenə susur.. Elə bu anda gözümün önünə şəxsiyyətinə və sənətinə pərəstiş etdiyim Hacı Tələt Qasımov və ondan Firuz haqqında aldığım müsahibə gəlir; "Firuz çox böyük ustadı, o qədər mahir ifaçıdı ki, əgər onun yanında oturan xanəndə gəncdirsə və muğamı o qədər yaxşı bilmirsə, Firuzun çalğısı onu oxutdurur, sonra o gənc öz oxumağına heyran qalır.. Bir sözlə Firuz muğamı bişirir və necə deyərlər qoyur xanəndənin ağzına ki, gələ ye! Xanəndə də bunu çox asanlıqla həzmi-rabedən keçirir.. Onun çalğısı Allah vergisidi, buna başqa cür ad

vermək olmaz.. Belə sənətkarlar çox az olur. Biz çox xoşbəxt xalqıq ki, belə virtouz sənətkarlarımız var.. Firuzun barmaqlarından bal tökülür.. Bu heyrətamiz bir çalğıdı.. Onu da qeyd eləyim ki, Firuz böyük bir məktəb keçsə də onun çalğısı sələflərinə bənzəmir.. Bu olduqca orjinal bir üslubdur.. Onun çalğısını eşidən kimi o saniyə bilirsən ki, bu Firuzun çalğısıdı... Firuzun çalğısı adamı düşündürür, dərinliklərə aparır.. Bir sözlə Firuz çox peşəkar və mahir bir sənətkardı.. Bir oldu ki, tarı basdı sinəsinə, hər şeyi unudur.. Bir vaxtlar biz Firuzla toy-düyünlərdə çox olmuşuq.. Elə o zamanlar da mən Firuza yaxşı bələd olmuşam.. O ki, qaldı Firuzun şəxsiyyətinə və dostluğuna, mən ondan yerdən-göyə qədər razıyam.. Onun misilsiz ifası haqqında da, həmçinin mərdliyi, kişiliyi, insanlığı haqqında çox xatirələr danışa bilərəm.. Firuz gözəl ailə başçısı, əsil dost, mənəvi cəhətdən çox zəngin, dedikcə səxavətli, təmiz əxlaqlı, eyni zamanda olduqca vətənpərvər bir adamdır.. Bir sözlə Vüqar müəllim, Firuzun haqqında ən xoş sözləri söyləmək olar.. Mən Firuza can sağlığı, uzun ömür, ailə səadəti, eyni zamanda həyatda və sənətdə yeni uğurlar, nəailiyyətlər arzulayıram”...

Firuz yenə də sanki mənim ürəyimi oxuyur və ona nə barədə sual veləcəyimi gözləmir...

-Hacı Tələtə ömrü boyu minnətdaram.. O olmasaydı, bəlkə də mən elə ancaq toyxana çalanı olaraq qalacaqdım.. Uzun illər bundan qabaq əvəzolunmaz sənətkarımız, mərhum İslam Rzayaev, Hacı Tələt Qasımova samballı bir tarzən axtardığını bildiribmiş.. Elə həmin gün Hacı Tələt məni peşəkar bir tarzən kimi İslam Rzayevə təqdim etdi.. İslam müəllim mənim çalğıma qulaq asıb çox bəyəndi və o vaxtdan mən o böyük sənətkarla bir yerdə çalışmağa başladım..

Firuz yenə susur.. Mənim gözümün önünə bir neçə il bundan qabaq dünyasını dəyişmiş şahanə sənətkar İslam Rzayev və onun Firuz haqqında söylədikləri gəlir... “Firuz uzun illərdir mənim rəhbərlik etdiyim ansamblın konsertmeysteridir.. O fitri istedada malik bir sənətkar və vəfalı bir dostdur.. Onunla birlikdə dəfələrlə cürbəcür yerlərdə, xarici ölkələrdə, vətənimizin demək olar ki, hər bölgəsində qastrollarda olmuşuq.. Elə hər yerdə də tamaşaçılar mənə əl çaldıqları qədər, onu da alqışlayıblar.. Azərbaycanın hər yerində onu çox istəyirlər.. Tək Azərbaycanda yox, İranda da, başqa ölkələrdə də onun pərəstişkarları çoxdu.. Hara getmişiksə tamaşaçıları öz çalğısı ilə valeh eləyib. O həmişə həm mənim, həm də bütün ansamblın üzünü ağ eləyib..

Onunla bir yerdə işləmək mənim üçün çox xoşdur. O çox ədəb-ərkanlı və tərbiyəlli adamdır. Mən bu neçə il ərzində hələ Firuzdan iynənin ucu qədər inciməmişəm. Firuz nzam-intizamı, səliqə-sahmanı çox sevir.. O ki, qaldı onun çalğısına, o bu gün ki, tar ifaçılarımızın əksəriyyətinə örnək ola bilər.. Barmaqlarındakı məlahət, şirinlik, yüksək peşəkarlıq onu dinləyicələrə sevdirən əsas məziyyətlərdəndir.. Bundan başqa Firuz sənətin canını orjinallıqda görür.. Heç vaxt başqasının mizrabını vurmur, nəyi varsa özünündür.. Mən də uzun illik təcrübəmdən bilirəm ki, məhz bu xüsusiyyət sənətkarı zirvələrə qaldırır.. Onu əvəzolunmaz edir.. Muğam böyük bir dəryadır, musiqi aləmində misilsiz bir məktəbdir.. Lakin hər dövrün öz tələbi var.. Muğamı imporvizə eləmədən oxumaq və yaxud çalmaq tutuquşuluq kimi alınır.. Hər bir sənətkarın sənətdə öz dəsti-xətti, öz üslubu olmalıdır.. Firuz məhz belə sənətkarlardandır ki, muğam xəzinəmizə yeni-yeni töhvələr bəxş edir.. Mən Firuzla fəxr edirəm”...

Böyük sənətkar İslam Rzayevin söylədiklərini yaddaşımda vərəqləyəndən sonra nədənsə gözümün önünə dünyasını vaxtsız dəyişmiş çalarkən nalə çəkib yeri-göyü yandıran mərhum kamanzən Ədalət Vəzirov gəlir.. Onun sonuncu dəfə Türkiyə səfərindən qabaq Firuz haqqında söylədiyi sözlər poetik misralar kimi qulağımda səslənir; “Firuzdan bir də analar doğmaz.. O milli musiqimizi yaşadan musiqi fədailərdən ibarət ordumuzun ən qəhrəman əsgərlərindən biridir.. Çünki çiyinlərinə milli musiqimizin inkişafndan ötrü, ən mürəkkəb və məsuliyyətli məsələləri həll etmək üçün mühüm bir vəzifə götürüb. Onun çalğısında olan təsir və ifadə vasitələri dinləyicini o qədər valeh edir ki, dinləyici özündən asılı olmayaraq bu çalğının ecazına boyanır və bir müddət bu çalğının təsirindən çıxa bilmir”.. Mən Firuzla bir yerdə olanda, hansısa xanəndəni müşayət eləyəndə xüsusi zövq alıram.. Biz onunla bir yerdə dəfələrlə xarici ölkələrdə də olmuşuq.. Firuz tar çalanda elə bir aləmdə olur ki, musiqi ilə elə yaşayır ki, o zaman tarı tutub onun əlindən alsan, sanki dünya dağılar.. Firuzun çalğısı o qədər fövqəladədir ki, sanki bu sədanı şirin bir röyada eşidirsən.. Mən Firuzla bir yerdə çalanda ruhum o qədər uçur ki, çox vaxt çalmaq istəmirəm.. Elə ona qulaq asmaq istəyirəm.. Bu olduqca möhtəşəm, mükəmməl bir ifadır.. Firuz həqiqətən də sənətin zirvəısindədir.. Mənə elə gəlir ki, o ömrünün axırınadək bu zirvədən düşməyəcək.. Mən fəxr eləyirəm ki, Firuz kimi sənətkarla uzun illərdi həm sənətdə

həm də həyatda dostam.. Firuz kimi sənətkarlar çox nadir hallarda olur ki, həm sənəti həm də şəxsiyyəti bir-birini tamamlasın"..
Əlbəttə bu sözlər elə rəhmətlik Ədalətin özünə də aid idi.. Ədalətin Firuz haqqında söylədiklərini yaddaşımda vərəqlədikcə rəhmətliyin olduqca yaraşıqlı görkəmi, pəhləvan boy-buxunu gözlərimin önündə canlanır və özümdən asılı olmayaraq gözlərim yaşarır....




Ədalətlə bağlı xatirələr də məni qoynuna alıb aparır, onun kamançanı heyrətamiz bir surətdə ifa eləməsi canlı bir səhnə kimi gözümün önündən keçir və fikirləşirəm; ümummilli liderimiz, ulu öndərimiz bu ifadəni nə qədər dahiyanə işlətmişdir, "Hər kəs öz xalqıyla, öz milli mənsubiyyətilə fəxr edə bilər.. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"... Ulu öndər bu sözləri elə təkcə şirinlik xatirinə işlətməyib.. Onun ağzından çıxdığı hər söz kimi bunda da hikmət var.. Həqiqətən

də azərbaycanlı olmağına görə fəxr eləməyə dəyər.. Çünki elə təkcə musiqi aləmində azərbaycanlılar arasında elə istedadlar var ki, yüz minlərlə erməninin görə bimədiyi işi təkbaşına görə bilirlər..Buna misal olaraq elə ilk növbədə rəhmətlik Hacı Ədaləti və Firuzu göstərmək olar.. Ermənilərin arasında nə Firuz kimi, nə Ədalət kimi, nə Habil Əliyev kimi, nə Şəfiqə Eyvazova kimi, nə Hacı Məmmədov kimi, nə Əhsən Dadaşov kimi, nə Vaqif Mustafazadə, nə də Ramiz Quliyev kimi, nə balaban və klarnet ifaçısı Ələkbər Əsgərov kimi  ifacılar olmayıb və qiyamətə qədər də olmayacaq.. Onların ən məhşur ifaçısı bizim on beş yaşlı ifaçımızın yanında çox cılız və zəif görünür.. Çünki mənəviyyatları boşdu, mənəvi cəhətdən çox kasıbdılar.. İstedad isə mənəviyyatın zənginliyindən kükrəyir.

Firuza növbəti sualımı verirəm:

-Mərhum Qulu Əsgərov da sənin ifanı çox bəyənirdi, düzdü?

-Qulu Əsgərov onlarla xalq üslubunda mahnılar bəstələyib.. Bu mahnılar indi də müğənnilərin repertuarından düşmür.. Onun “Əziiz dost” mahnısı qardaş Türkiyədə o qədər sevilir ki, bunu dil ilə söyləmək mümkün deyil.. Mən özüm Türkiyədə qastrol səfərində olarkən bunun şahidi olmuşam.. Qulu müəllim özü əla tar çalırdı, mənə qədər onu tarda heç kəs müşayət eləməmişdi, toy-düyünlərdə muğam oxuyarkən özü-özünü müşayət eləyirdi, həm də çox peşəkarcasına müşayət eləyirdi.. Ancaq mənim çalğımı o qədər bəyənirdi ki, mənimlə tanış olandan sonra necə deyərlər özünəməxsus olan tar ifaçılığı estafetini də mənə həvalə elədi.. O titanı çox müşayət eləmişəm.. Bizim ansambılla da çox çıxışlar eləyib.. Axı o sənətkar, İslam Rzayevin ən yaxın dostlarından biri idi.. Çox vaxt elə bir yerdə olurdular..

-Respublikanın xalq artisti Elmira Rəhimova da sizin ansambılla oxuyurdu...

-Hə! Nə yaxşı yadıma saldın.. Çox gözəl oxuyur Elmira xanım, çox.. Səsi elə bir baldı.. Tərttəmizdi, bulaq suyu kimi... Onunla elə mahnılar yazmışıq ki... Dəfələrlə də bizim ansambılla televiziya ekranında çıxış eləyib.. Mən Elmira xanımın səsini, sənətini çox sevirəm.. Amma o boyda sənətkar bir az unudulub elə bil.. Səsi olmayan adamlar, uşaq-muşaq televiziya kanallarında daha gözümüzün zibərini aparıb.. Amma Elmira xanım qalıb bir kənarda..  Belə şeylər məni heç açmır..

-Sonra kimlər oxuyurdu ansambılda?

-Qoy canlı klassiklərimizdən bir neçəsinin adını çəkim, sənin də yadına düşsün.. Qədir Rüstəmov, Sabir Mirzəyev, Süleyman

Abdullayev, Razi Şükürov, Sabir Əliyev.. Bunlar hamısı ayrı-ayrılığda necə deyərlər yaxşı mənada yırtıcı sənətkarlardı.. Nə oxuyublarsa möhür vurublar.. Bunu hamı bilir.. Onlardan sonra nisbətən gənc ifaçılardan Baloğlan Əşrəfov, Qədir Məmmədov, Ağadadaş Ağayev bə başqaları da oxuyub bizim ansamblda..

-Uzun illər bundan qabaq mən ali məktəbdə oxuyarkən rəhmətlik İslam Rzayevin ansambılının konserti olanda bütün ailə yığışırdıq televizorun qabağına.. Çox zövq alırdıq sizin ansambılın çıxışından.. Əla harmoniya vardı ifanızda.. Heç bir alət o birinə maneçilik törətmirdi.. Hər kəs öz işini zərgər dəqiqliyilə yerinə yetirirdi.. Bütün ifalarınız olduqca mükəmməl idi.. Bir sözlə səhv tapmaq mümkün deyildi.. Əlbəttə burda İslam müəllimlə yanaşı sənin də xidmətlərin az deyildi.. Bu öz yerində.. Amma bir iş var idi ki, biz o vaxt sənin ifanı dəfələrlə dinləsək də, eyni zamanda tamaşa eləsək də, səni yaxşı tanımırdıq.. İslam müəllim füzulili olduğu üçün, elə bilirdik sən onun yerlisisən.. Ona görə də sənə “füzulili oğlan” deyirdik.. Onu da qeyd eləyim ki, sənin solo ifanı və yaxud hansısa bir müğənnini muğam müşayət eləməyini səbirsizliklə gözləyirdik.. Sənin ifan bizə xüsusi zövq verirdi.. Elə deyirdik ki, bu tarı başqa cür çalır.. 1993-cü ildə İrana qastrol səfərində bir yerdə olana qədər mən elə bilirdim sən Füzuli bölgəsindənsən.. Bizim çox gözəl kamança ustamız Munis Şərifov səndən söhbət düşəndə həmişə deyirdi ki, Firuz o qədər gözəl çalır ki, mən ondan öyrənirəm... Çox böyük sənətkardı Firuz deyirdi.. Onu da qeyd eləyim ki, Munis elə demək olar ki, Ağdaşdan Bakıya gələn gündən bizim əziz bir adamımıza çevrilib.. O vaxt mən hələ uşaq idim.. Munis, qardaşım Mövsümlə dostluq eləyirdi.. 1994-cü ildə Mövsümün toyunda da təmənnasız olaraq çaldı.. Rəhmətlik anam onun da xətrini çox istəyirdi.. Deyirdi Munis çox təmiz uşaqdı, özü də seyid nəslindəndi, ona görə də ona xüsusi hörmət göstərmək lazımdı..

-Munis hər cür tərifə layiqdir.. Həm çalğısı, həm də insanlığı.. Özü də yaxın dostumdu.. Onunla da çox çalmışıq.. İndi də yeri düşəndə bir yerdə oluruq.. Mən onun həm çalğısından, həm də özündən çox razıyam.. İstedadına da ki, söz ola bilməz... İnşallah bu yaxında YUNESKO-nun xətti ilə “Novruz bayramı” ilə əlaqədar türk dilli xalqların beynəlxalq festivalında iştirak eləmək üçün Fransanın paytaxtı Parisə onunla bir yerdə gedəcəyik..

-Eşitdiyimə görə rəhmətlik Hacıbaba Hüseynovla bir yerdə toyda olanda elə çalmıasan ki, o böyük sənətkar ilhama gəlib və daha

da artıq zövqlə oxuyub.. Özü də bu bir dəfə olmayıb, bir neçə dəfə baş verib...

-Hacıbaba müəllim bir aləm idi.. O bu sənətdə elə bir mövqe tutub ki, o rəhmətə gedəndən sonra ona məxsus olan boşluğu inanmıram kimsə doldura bilsin.. O ilahi bir eşqlə oxuyurdu.. Musiqi onsuz da sosializm quruluşu-zad tanımır.. Amma Hacıbabanın ifası çox irfanı idi.. O sanki öz oxumağıyla sovet ölkəsinin sərhədlərini vurub dağıdırdı.. Bu ruhani bir ifa idi.. Bu ifa bu dünyaya sığmırdı.. Çox təvəzökar adam idi rəhmətlik.. Elə hər dəfə toyda olanda mənə deyirdi ki, ay Firuz elə çaldın ki, daha mənim üçün bir şey saxlamadın.. Amma özünün o qədər güclü baqajı, fantaziyası var idi ki, bir dənə boğazı heç vaxt ikinci dəfə təkrar eləmirdi.. Özü də dərvişanə oxuyurdu.. Buna görə adamda elə bir istedad lazımdı ki... Rəhmətliyin isteadından gecə-gündüz danışmaq olar.. Onun qəzəlləri gör neçə vaxtdır xanəndələrimizin repertuarını bəzəyir.. Bir dəfə rəhmətlik mənə dedi ki, ay Firuz sən mənim ürəyimi çalırsan... Allah ona qəni-qəni rəhmət eləsin...

-Bu gün Firuz Əliyev tar ifaçılığında öz məktəbini yaradıb.. Yəni çox tarzənlərimiz var ki, daim bu məktəbdən bəhrələniblər, eyni zamanda onlar tara mizrab vurarkən Firuzun yolu o dəqiqə bilinir.. Şəxsən mən özüm neçə-neçə gənc tar ifaçılarına sənin yolunda çalmağı məsləhət görmüşəm və mənə elə gəlir ki, pis iş də görməmişəm.. Çünki o gənclər indi çox populyardılar.. Xalq tərəfindən tanınır və sevilirlər.. Onları tez-tez televiziya ekranlarında görmək olar. Eyni zamanda səs-sorağları xarici ölkələrdən gəlir.. Bu bizi çox sevindirir.. Amma hər halda indiyə bilərlər deyə adlarını çəkmək istəmirəm.. Bu öz yerində.. Ancaq sənin bu sənətdə bir dənə də xidmətin var.. Bəlkə bunu sən özün o qədər hiss eləmirsən.. (Bu səfər Firuz mənə sual verir)

-O nə xidmətdi elə?

-Çox gözəl tar pedaqoqu Kamil Əhmədov... (Firuz burda özümü kəsir)

-Allah rəhmət eləsin..

-Kamil Əhmədov danışırdı ki, əvəzolunmaz xanəndəmiz “Ağa”, bilirsən də söhbət Seyid Şuşinskidən gedir, elə nəfəslər, elə boğazlar eləyirdi ki, biz onun bu melizmalarını tara köçürdüb çalırdıq və çalğımız qat-qat şirin və ecazkar alınırdı.. Amma indi tərsinə olub.. Xanəndələrin bir çoxu Firuz Əliyevin tarda işlətdiyi xırdalıqları, şirinlikləri, imperviziyasaları boğazlarında eləməyə başlayıblar.. Bununla da sən tarzənlərin “Ağa”dan aldıqları

borcu təzədən xanəndələrə qaytarırsan.. Bu da sənin tar ifaçılığında olduqca mühüm əhəmiyyət kəsb eləyən xidmətlərindən biridir..
-Sözün düzü mən buna o qədər də fikir verməmişəm..
Belə bir fikir var ki, elə dünya qədər yaşı olan “ney” aləti bəşər övladının icad etdiyi yüz minlərlə alətin içində ən çox nalə çəkənidi.. Rəvayətə görə ilk insan və ilk peyğəmbər Həzrəti Adəm əleyhəssalam ney çalırmış.. Bu da neyin nə qədər ecazkar bir alət olmağından əlavə musiqinin ilk insanla bir yerdə mövcud olduğundan xəbər verir.. Klassik ədəbiyyatda cəfakeş kimi adı çəkilən ney, ən çox dahi şairimiz Füzuli poeziyasında öz orijinal bədii ifadəsini tapıb:

“Vücudum ney kimi surax-surax olsa ah etmən
Məhəbbətdən dəm urdum, incimək olmaz cəfalərdən”..

Və yaxud:

“Eşqdir ol nəşeyi-kamil kim, ondadır müdam,
Meydə təşviri-hərarət, neydə təsiri-səda”...

Nemət verəndən, əslindən ayrıldığı üçün ney, daim nalə və fəryadlıdır, ilahi mənşəyinə, “vahid dost”a qovuşmağa can atır.. Şair neyin zahiri əlamətlərinə, onun surax-surax olmuş cisminə, ürək yaxan təsirli sədasına qəlbən acıyır.. Belə bir fikir də var ki, ney torpaqda bitən qamışdan düzəldildiyi üçün bu qədər insan qəlbinə yaxındır.. Hamıya məlumdur ki, Allah-taala insanı torpağdan yaradıb.. Bəlkə elə buna görə torpaqda bitən ney insanın ah-naləsini hər tərəfə car çəkə bilir, eyni zamanda onun öz Yaradanına tərəf can atdığını bütün kainata elan eləyir.. Füzulinin “Həft cam” əsərində neylə söhbət zamanı “vəhdəti-vücud” fəlsəfəsinin mahiyyəti; maddənin itməməsi və materiyanın bir növünün başqa növünə keçməsi ideyası öz bədii həllini tapır.. Yoxluq aləmindən qopan zərrələr bir müddət seyrdən sonra qazandıqlarını itirib, yenidən öz əsillərinə qayıdırlar.. Lakin tar da torpaqda bitən ağacdan düzəldilir.. Elə həmin əsərdə tarın şikayətli sədası insan qəlbini triqqətə gətirir, ən incə duyğuları yerindən oyadır:

Hal əhlinin işi belə qərarlaşıb
Ki, vüsal və fəraq bir-birindən doğur.
Əgər fələk sitəmlə ayrı salırsa,
Bir gün onlar birləşəcəklər...

Şairin gəldiyi nəticə belədir: hər uzun hicrandan sonra mütləq xoş bir vüsal gələcək. Vüsal hicrandan nəşət edir, hicran aşiqləri

mətinləşdiruir... Bu poetik çağırışla Füzuli vəhdəti-vücud fəlsəfəsi ideyasını irəli sürərək, bütün şeylərin və predmetlərin, maddi varlıqların nəhayət öz əsillərinə, cüzün güllə qovuşacağı nəticəsinə gəlir.. Bundan isə belə nəticəyə gəlmək olar ki, tarın da ney kimi xəmiri sanki insanla bir yerdə yoğrulub ki, insan öz ürək yanğılarını, dərdini, qəmini, qüssəsini onunla daha tez bölüşə bilir, necə deyərlər onun dərdinə şərik olur.. Daha doğrusu insan dil ilə deyə bilmədiklərini, söz ilə ifadə eləyə bilmədiklərini tarın simləri vasitəsilə çatdırır.. Elə bundan da hər kəs öz payını götürür...

-Böyük Füzuli bunun şərhini elə verib ki, bundan sonra mənim bu haqda nəsə bir söz deməyim, yəqin ki, yersiz olar...

-Mövlanə Füzuli öz sevgisini, məhəbbətini təmənnasız olaraq paylayırdı, heç bir əvəz gözləmirdi, xeyir ummurdu, əksinə bunun uğrunda nəsibinə düşən iztirab və bəlaları, möhnət və ələmi, çəkdiyi hicran və kədəri ən böyük səadət, mükafat kimi intixab edirdi:

Ya Rəbb, bəlayi-eşq ilə qıl aşina məni!
Bir dəm bəlayi-eşqdən etmə cüda məni!

Biz beş yüz ildi bu məhəbbəti ən möhtəşəm, ən ümumi mənada alırıq.. Sən də bu baxımdan dahi Füzuliyə çox bənzəyirsən.. Öz sevgini, məhəbbətini təmənnasız olaraq tarın pərdələrinə köçürdüb xalqa paylayırsan.. Bu qədər ecazkarlıq, sehr, gözəllik hardandı sənin ifanda? Birdə ki, sənin otuz ildi ifanı böyük zövqlə dinləyirəm.. Təxminən 1990-cı ilə qədər sən tarı çox məharətlə ifa eləsən də, bu qədər yanıqlı çalmırdın.. 90-cı ildən sonra bəzən tarda nalə çəkirsən, fəryad qoparırsan..Bu zaman mənim beynimdə suallar dolaşır, sənin çalğındakı ah-fəryad, həsrət, şam tək yanmaq notları nəylə bağlıdır? Bəlkə bunun səbəbini bir az açıqlayasan...

-Əvvəllər mən tar çalanda sadəcə olaraq musiqini, muğamı, tarı sevən bir adam kimi çalırdım.. Lakin 20 yanvar hadisəsindən sonra bunun üstünə xeyli dərd yükləndi.. 20 yanvar hadisəsi məni elə sarsıtdı ki, xeyli müddət özümə gələ bilmədim.. Amma nə qədər eləyirdim ağlaya bilmirdim.. Sonra elə ki, tarı götürürdüm əlimə, görürdüm mənim əvəzimə tar ağlayır..

-Deyirsən çalarkən sənin əvəzinə tar ağlayır.. Bax, bu zaman nə düşünürsən?

-Gözümün önündən qanlı yanvar hadisəsi, Xocalı faciəsi keçir.. Eyni zamanda qəhrəman şəhidlərimizi, onların gözüyaşlı analarını göz önünə gətirirəm.. Bütün bunları qəlbimdə tara nəql

eləyirəm. Tar da mənim söylədiklərini dinlədikcə körpə uşaq tək göz yaşı töküb zülm-zülm ağlayır.. Amma bu həmişə belə olmur.. Bəzən ifamı nikbin notlar üzərində qururam.. Bu vaxt üçrəngli bayrağımızın gözəl Şuşanın ən yüksək zirvəsində dalğalandığını görürəm və inanıram ki, inşallah yaxın zamanlarda bu hökmən baş verəcək.. Buna inanmasam heç tara əlimi də vurmaram.. Daha tar çalmaq mənə lazım da olmaz..

-Bizim qəzəl şairimiz, gözəl şairimiz Əliağa Vahidin qəzəllərində daim insan psixologiyasının saysız-hesabsız təzahürləri haqqında təsəvvür verir: şikayət, sevinc, şuxluq, qurur, küskünlük, ümid və ilaxır... Bu baxımdan sənin ifanda da sanki kədərlə və sevinc daim bir-biriylə yarışa girir.. Lakin sənin tar ifa eləyərkən tez-tez düşdüyün bir məqam var.. Bu məqam çox qeyri-adidi.. Sənin yolunla çalan tarzənlərin heç biri bu məqamı tuta bilmir.. Bu olduqca fövqəladə bir şeydi.. Sən hansı muğamı çalsan da, mütləq o məqama düşürsən.. Bu muğama o qədər gözəllik, şirinlik və həzinlik verir ki, bynun şərhini verməkk üçün elə bir dənə kitab yazmaq olar.. Bu muğamın hansısa bir şöbəsi, ya guşəsi deyil.. Bu sənin bitib-tükənməz təxəyyülünün ən bariz təzahürüdür.. Çox qəribədir sən bu məqama ifan zamanı yüz dəfə düşsən də hər dəfə bu başqa bir gözəllik verir, başqa bir cizgi ilə səslənir.. Bu lap poeziyadakı təşbihlər kimi ifadə olunur.. Barmaqlar eyni notların üstündə gəzişir, lakin musiqi başqa bir şəkil alır.. Hər dəfə yeni bir ahəng, yeni bir avaz yaranır.. Mən televiziya ekranlarında sən xanəndələri müşayət eləyərkən buna çox diqqət yetirmişəm.. Sanki xanəndələr səbirsizliklə bunu gözləyir, sən hər dəfə o məqama düşəndə özlərindən asılı olmayaraq üzlərini sənə tərəf çevirib böyük bir zövqlə başlarını tərpədirlər.. Yox, bu məqam barədə sənə sual verməyəcəyəm.. Mənim fikrimcə bu sevgililərin vüsala yetməsi ifadəsidir.. Sən çalırsan, çalırsan, sanki tar vüsal həsrətiylə yanan sevgilələlərin hekayətini söyləyir, lakin hər dəfə onları bu məqamda gətirib qovuşdurursan..

-Bizim həyatımız da elə bundan ibarətdi.. Amma bunsuz həyatın ləzzəti də yoxdu.. Mən yüz faiz əminəm ki, insan həyatında heç bir çəkinliklə üzləşməsəydi, arzularla, ümidlərlə yaşamasaydı, sıxıntılara, çətinliklərə düşməsəydi, əzab-əziyyətlərlə üzləşməsəydi, vüsala can atmasaydı, elə rahat ömür sürsəydi, nəyi istəyirdisə elə o dəqiqə əldə eləsəydi, onda həyatın heç bir mənası olmazdı.. Onda nə muğam yaranardı, nə tar olardı.. Uca Yaradan öz intəhasız elmi sayəsində həyatı belə bir şəkildə

yaradıb ki, insan bu çətinliklərə düşdükcə, bu sınaqlardan, imtəhanlardan keçdikcə islah olunsun, ağla-qaranı, yaxşıyla-pisi, qaranlıqla-işığı ayıra bilsin.. Bütün bunlardan əlavə gözəlliyi duya bilsin.. Yoxsa yaşamağın da heç bir mənası olmaz...

-Şərq musiqisində dörddə bir tonlar var... Məsəlçün ərəb musiqisində, fars musiqisində.. Türkiyədə də bəzi hallarda dörddə bir tonlardan istifadə edirlər.. Ancaq bizim milli musiqidə bundan demək olar ki, istifadə olunmur.. Lakin bildiyimə görə dahi Üzeyir Hacıbəyov muğamı nota salmamışdan əvvəl tarın pərdələrində dörddə bir, hətta üçdə bir tonlar olub.. Bunların notla yazılışı mümkün olmadığına görə Üzeyir bəy muğamları nota salarkən bunları salmayıb... Sonralar da muğam tədris olunan ocaqlarda zaman-zaman tələbələrə dörddə bir, üçdə bir tonsuz öyrədilib.. Zaman keçdikcə tarzənlərimiz dörddə bir və ya üçdə bir tonlardan tamamilə istifadə eləməyiblər.. Şübhəsiz ki, bu tarzənlərin yaradıcılığında olduqca müsbət rol oynayıb.. Ustad tarzənimiz Əhmədxan Bakıxanov dəfələrlə bu mövzuya toxunub, bunun Azərbaycan musiqisinə çox xeyir gətirdiyini vurğulayıb.. Özü də tək tarzənlərmiz yox, dünyaşöhrətli bəstəkarlarımız da öz yaradıcılıqlarında bunun bəhrəsini görüblər.. Çünki dörddə bir və yaxud üçdə bir tonların üstündə böyük-böyük əsərlər, simfoniyalar və başqa musiqi nümunələri yaratmaq qeyri-mümkündür.. Səndən əvvəl İslam Rzayevin ansambılına konsetrtmeysterlik edən Abdulla Qurbani bəzən fars musiqisinin ahəngi əsasında dörddə bir tonlardan istifadə eləyirdi.. Bu da ilk baxışda qulaqda çox gözəl səslənsə də, dərindən düşündükdə yalnnız dörddə bir tonun hesabına gözəlləşən ifa olduğu açıq-aydın özünü biruzə verirdi.. Eşitdiyimə görə Abdulla Qurbani hansısa pərdəni dörddə bir tona salmaq istəyəndə, o pərdəni çəkirmiş və yalnız bu zaman istədiyi ahəngi ala bilirmiş.. Sən isə heç bir pərdəni çəkmədən istədiyin zaman çox ecazkar notlar götürürsən.. Buna necə nail olursan?

-Əvvəlcə onu deyim ki, Əhmədxan Bakıxanov çox böyük bir ustad idi.. O olduqca mahir bir tarzən idi.. Bununla yanaşı, bir çox musiqiçilər, xanəndələr, müğənnilər onun əlindən su içib.. Çoxlarının püxtələşməsində, tanınmasında Əhmədxan müəllimin xidmətləri əvəzsizdir.. Mən də o ustadın ifasını çox dinləmişəm və hər dəfə də çox feyziyab olmuşam, həm də öyrənmişəm.. Mənə elə gəlir ki, bizim hələ də Əhmədxan Bakıxanova, Bəhram Mənsurova, Hacı Məmmədova, Əhsən Dadaşova, Həbib Bayramova, Baba Salahova, Kamil Əhmədova, Sərvər

İbrahimova ehtiyacımız var.. Yəni mən gördüklərimi deyirəm.. Çünki bizə bu qiymətsiz xəzinəni onlar miras qoyub gediblər.. Özü də təmənnasız miras qoyublar.. Valideyn öz övladına miras qoyan kimi.. Onlar olmasaydı, biz də olmazdıq.. Nə Ramiz Quliyev olardı, nə Firuz Əliyev, nə Möhnət Müslümov, nə Ağasəlim Abdullayev, nə Vamiq Məmmədəliyev nə də başqa tarzənlər.. O böyük sənətkarlar muğam dərsini Qurban Pirimovdan, Məşəd Süleymandan, Mirzə Mənsurdan aldıqları kimi, biz də bu dərsləri onlardan almışıq.. Bizim borcumuzdur ki, hər gün onlara rəhmət oxuyaq, onların ruhuna salavat çevirək, fatihə verək ki, ruhları şad olsun.. O ki, qaldı mənim bu cür ifama, mən sadəcə olaraq səslər quru alınmasın deyə onlara necə deyərlər rəng verirəm.. Yəni notlar titrəyərək üçdə bir, dörddə bir tonlara dəyib qayıdır. Lakin mütləq öz yerinə qayıdır.. Çünki bu bizim musiqinin zənginliyindən xəbər verir.. Əgər təmiz dörddə bir ton götürülsə kənardan baxanlar bzim misilsiz musiqini fars musiqisi hesab edəcəklər.. Bu isə bizə heç bir şərəf gətirməz.. Fars musiqisi, fars muğamı çox gözəldi.. Amma o farslara aiddi.. Qoy onu farslar özləri ifa eləsinlər.. Əsl Azərbaycan musiqisində oktava 7 diatonik və 12 xromatik pərdədən ibarətdir.. Ən kiçik interval yarım tondur.. Böyük tersiya temperasiya tersiyasına nisbətən qısa (bəm), kiçik tersiya isə teperasiya tersiyasına nisbətən (zil) dir. Yarım ton temperasiyadan genişdir.. Hansısa bir musiqi alətində təmiz dörddə bir ton götürmək və ifanı bunun üzərində qurmaq Azərbaycan musiqisini ancaq gözdən sala bilər. Bəzən müğənnilər ifa etdikləri mahnını sintezatorda dörddə bir ton üstündə oranjirovka elətdirirlər.. Ancaq özləri oxuyarkən dörddə bir tonu götürə bilmirlər.. Bu isə çox gülünc görünür.. Bizim xalq mahnıları isə bu hala salınanda ürəkağrıdıcı olur.. Bir vaxtlar böyük Üzeyir Hacıbəyov deyib ki, Azərbaycan musiqi dilinin spesifikliyi üçdə bir və dörddə bir tonlarda deyil, daha əsaslı amillərdən ibarətdir ki, bunlar da kök, hava, vəzn və cairədən ibarətdir.. Melodiyanı bütövlükdə dörddə bir tonlar üzərində qurmaq bayaq dediyim kimi ərəb və fars musiqisinə xasdır.. Bu onların musiqisində çox gözəl səslənir..
-Bir dəfə korifey sənətkarımız Zeynəb xanım Xanlarova gecə zəng vurmuşdu mənim rəhmətlik anama..
-(Firuz yenə mənim sözümü kəsir) Allah qəni-qəni rəhmət eləsin.. Sənin anan kimi adamlar yüz ildə bir doğular.. Çox mömin və əməlisaleh bir qadın idi, çox... Hər dəfə onunla

görüşəndən sonra ruhən o qədər yüksəlirdim ki, hər şeyə həvəsim birə-beş artırdı..
-Allah ölənlərinə rəhmət eləsin.. Hə, Zeynəb xanım saatlarla anamla telefonla söhbət elədi və söhbət səndən düşəndə vurğuladı ki, Firuz mənim ən çox bəyəndiyim tarzəndir.. O elə bil tar çalanda layla çalır.. Elə gözəl çalır ki, adam elə onun çalğısına qulaq asmaq istəyir.. Əlbəttə dünyaşöhrətli bir müğənninin sənin sənətinə belə yüksək qiymət verməsi olduqca təqdirəlayiqdir.. Onu da deyim ki, Zeynəb xanım hər adamın ifasını bəyənmir.. Bəs Zeynəb xanımı müşayət eləmək necə, sənə qismət olubmu?
-Taleyin hökmüylə hesablaşmaq lazımdı.. Bu mənə nəsib olmayıb.. Amma mənim Zeynəb xanımın həm sənətinə, həm də şəxsiyyətinə çox böyük hüsn-rəğbətim var.. O əvəzolunmaz bir sənətkardır.. Onun sənətinin böyüklüyü haqqında çox danışmaq olar.. O bizim milli musiqini dünya ictimayyəti qarşısında ən çox sevdirən müğənnilərdən biridir..
-İlk dəfə xarici ölkəyə qastrola kiminlə getdin?
-Dostum, qardaşım Hacı Ağaxan Abdullayevlə.. Biz artıq onunla “Muğam üçlüyü” yaratmışdıq, bir çox tədbirlərdə, konsertlərdə çıxış eləyirdik.. İlk dəfə səfərimiz Macarıstana oldu.. Allah səsinə şəfa versin, gözəl müğənnimiz Akif İslamzadə də bizimlə idi.. Sonra kamança çalan rəhmətlik Bilalla Macarıstana və Türkiyəyə qastrol səfərinə getdik.. O vaxt sovetlər dönəmi olduğu üçün Türkiyəyə gediş-gəliş çox məhdud idi.. İzmir şəhərində Fidan Qasımova, Tələt Qasımov və Alim Qasımovla birlikdə konsertlər verdik.. Çıxışlarımız çox böyük sevgiylə qarşılandı.. Bunlar xarici ölkələrə ilk qastrol səfərlərim idi, ona görə də bu səfərlərlə çox xatirələrim var.. Amma bunları danışsam elə ən azı bir kitab söz ləyər... Bu səfərlər mənim gələcək həyatım üçün bir cığır idi.. O vaxtdan çox qastrol səfərlərində olmuşam.. Otuzdan çox ölkənin torpağında gəzmişəm.. Özü də kimlərlə olmuşam... Hacıbaba Hüseynov, İslam Rzayev, Fidan Qasımova, Arif Babayev, Habil Əliyev, Canəli Əkbərov, Ağaxan Abdullayev, Alim Qasımov... Aygün Bayramova, Nəzakət Teymurova, Mənsum İbrahimov, Elza Qaybalıyeva... Hara getmişiksə, harda çıxış eləmişiksə çox yüksək qarşılanıb.. Ertəsi gün həmin ölkənin mətbuatı və başqa infarmossiya vasitələri Azərbaycan musiqisinin qüdrətindən, möcüzəsindən söhbət açıb.. Hər konsertimizdə onlarla mediya işçiləri, telemüxbirlər, jurnalistlər iştirak eləyib.. Konsert bitən kimi yerbıyerdən necə deyərlər üstümüzə hucum çəkiblər.. Məsəlçün

Braziliyada nə Azərbaycanı tanımırdılar, nə də bizim musiqidən xəbərləri yox idi. Ora Alim Qasımovla getmişdik.. Əvvəlcə bizə təəcüblə baxırdılar.. Çıxışlarımızdan sonra Azərbaycan musiqisi onları o qədər heyran eləmişdi ki, hamı "Azərbaycan", "Alim" deyə qışqırırdı.. Ona görə deyirlər ki, musiqinin dili yoxdur.. Bizim muğamımızın dili elədir ki, hər kəsin ürəyinə yol tapır.. Eləcə də Mənsum İbrahimov, Munis Şərifovla Kanada səfərimiz, Habil Əliyev Aygün Bayramova və Elza Qaybaliyevlə Almaniya səfərimiz, yenə də Habil Əliyev və Elza Qaybalıyevlə Yunanstan səfərimiz, sonra Ağaxan Abdullayev və rəhmətlik Ədalət Vəzirovla Fransa səfərimiz çox uğurlu keçib.. Fransa səfərində çıxdıq səhnəyə, yadımda deyil Ağaxan müəllim "Rast" oxudu yoxsa "Mahur-hindi"? Elə ki muğama ayaq elədik, zaldakı bütün tamaşaçılar durdu ayağa başladılar "Urra" qışqırmağa.. Sonra bizə dedilər ki, biz çox xöşbəxtik ki, siz gəlib bizim üçün burda konsert verirsiz.. Dedilər ki, biz sizi yenə dəvət eləyəcəyik.. Konsertdən sonra şəhərdə gəzirdik, maqazinlərə baxırdıq, bitr fransız kişi yaxınlaşdı bizə dedi ki, mənm rus dilini bilirəm..Özüm də bir vaxtlar AZİ-də oxumuşam.. Başladı bizim muğamları saymağa.. Dedi siz konsertdə "Mahur" oxuduz, "Üşşaq" oxuduz.. Mən də zarafatla ona dedim ki, nə qədər fransız xalqı var, muğam ölməz.. Başqa xalqıların qarşısında çıxış eləmək, onlar üçün Azərbaycan musiqisinin gözəlliyini, muğamımızın ecazkarlığını nümayiş elətdirmək adama xüsusi zövq verir.. Bir də görürsən konsert salonunda mindən yuxarı adam var.. Bəzən bu say üç minə, dörd minə gedib çıxır.. Çıxışa başlayırsan... Salonda elə bir sükunət hökm sürür ki, sanki salonda heç kim yoxdur.. Milçək uçsa vızıltısı eşidilər.. O qədər valeh olurlar ki, bəzən çıxışımız bitəndən sonra əl çalmaq da yadlarından çıxır.. Alqışlayanda isə elə alqışlayırlar ki, elə bil hansısa dağ parçalanıb yerə tökülür.. Bu hamısı bizim musiqinin, muğamın sehrli qüvvəsidi.. Bizim musiqimiz çoxlarının qəlbini fəth eləyə bilir.. Bu musiqini elə bir dəfə eşidən də dərhal onun sehrinə düşür.. Bir dəfə Hollandiyada "Azərbaycan günləri" keçirilirdi.. Biz də Alim Qasımovla birlikdə konsert verdik.. Əlbəttə bu konsert də o birilər kimi çox uğurlu keçdi.. Konsertdən sonra yenə də mətbuat nümayəndələri, telemüxbirlər başımızın üstünü aldı, hər tərəfdən bizə tərəf mikrafonlar uzandı.. Çox yaxşı ki, tamaşaçılar arasında həm xeyli türk qardaşlarımız, həm də soydaşlarımız vardı.. Onlar da bizim üçün dilmanclıq eləməyə başladılar ki, həm bizim, həm də jurnalistlərin işi asanlaşsın.. Bu ərəfədə yaşlı

bir kişi bizə yaxınaşıb dedi:- “Mən türk dilində konuşa bilirəm .. Özüm Haaqa şəhərindənəm.. Azərbaycan folklorunu eşidib gəldim.. Mən uzun illərdir bu foiklorla məşğulam.. Siz “Bəstə-nigar”la başlayıb, “Çahargah”a düşdüz”,- deyəndə heyrətdən donub qaldıq.. Alim zarafatla: “Bu deyəsən nardaranlıdır”,-dedi.. Sonra o bizdən Zülfünün, Seyidin kasetini istəyəndə heyrətimiz ikiqat artdı.. Bizim muğamımızın, musiqimizin hər yerdə xiridarları var.. Bu elə bir avazdır ki, hamının ruhunu oxşayır, hər kəs bundan öz payını götürür.. Şəxsən mən bütün ağrı-acılarımı tar çalmağla müalicə eləyirəm.. Əgər mən tibb işçisi olsaydım xəstələri muğam avazı ilə müalicə eləyərdim.. Muğanm nə qədər qəlblərə sərinlik, sakitlik gətirir..

-Düz deyirsən Firuz.. Muğam elə bir təbibdir ki, bəzən ən dərdli adama dərdlərini unutdurur.. Muğam bəzən vüsala yetmək istəyənlər üçün vasitəçi olur, bəzən Ana torpağı düşməndən qoruyanlar üçün milli qeyrətin xəmirindən yoğrulub xain düşmənə endirilmək üçün düyümlənən ən qüvvətli yumruğa çevrilir.. Herç yadımdan çıxmaz mən radioda işləyərkən sənin “Çoban-bayatı”, “Dilkəş”, “Segah” çalmağın, mərhum bəsəkarlarımız Tofiq Quliyevin, Ələkbər Tağıyevin mahnılarını ifa eləməyin..

-Hə, o vaxt sənin köməkliyinlə bunlar fonda salındılar..

-Bu cür ifalar fonda salınmalı idilər də.. O nümunələr rəhmətlik Bəxtiyar Vahabzadə demişkən daş ürəkləri də yandırardı.. Doğurdan, yeri gəlmişkən sənə bir sual da verim? Daha kimləri müşayət eləmisən?

-Otuz ildi şirin və məlahətli səsi ilə milyonların qəlbində özünə yer eləmiş Teymur əmini, yəni Teymur Mustafayevi müşayət eləyirəm.. Teymur əmi bir dənə yerə mənsiz getmir.. Səsi yuxarı registirin lap axırıncı pərdəsinə gedib çatan, çox gözəl muğam ifaçısı, gözəl xanım Qəndab Quliyevayla çox toy-düyünlərdə, el şənliklərində olmuşam.. Zahid Quluyevi, Zabit Nəbizadəni Mələk xanım Əyyubovanı, Könül Xasıyevanı, Aygün Bəyləri, Aygün Bayramovanı, Elza Qaybəliyevanı çox müşayət eləmişəm.. Bunlar hamısı çox gözəl oxuyanlardı.. Əgər elə olmasaydı mən onları müşayət eləməzdim.. Mən gərək xanəndənin, müğənninin ifasından zövq alım.. Yoxsa onu müşayət eləyə bilmərəm..

-Gözəl bəstəkarımız Aygün Səmədzadənin bəstələdiyi və Aygün Bəylərin oxuduğu “Tut ağacı” uzun illərdi xalqın dilində gəzir... Hətta bu mahnı bir çox ölkələrdə də cürbəcür xalqlar tərəfindən sevilə-sevilə dinləlinir.. Gözəl mahnıdı, çox gözəl mahnıdı.. Yəqin ki, nə artıq mahnıları dillər əzbəri olan bəstəkarımız Aygün

Səmədzadə, nə poetik lövhələrlə bizi də uşaqlıq çağlarımıza aparan şairə Zakirə Allahverdiyeva, nə də səsi ilə çoxlarını heyran eləmiş Aygün Bəylər məndən inciməz desəm ki, “Tut ağacı”nı yüzə-yüz gözəlləşdirən sənin ifan olub.. Siz bu mahnıda Azəırbaycan xalqının dili, şer və musiqi yaradıcılığını qaynaqlarının nə qədər zəngin, bitkin və tükənməz olduğunu göstərmisiz... Belə mahnılar çox nadir hallarda olur ki, hər bir xırda detal belə çox gözəl bir şəkildə bir-birini tamamlayır.. Bu sanki mahnı yox, beş-altı dəqiqəlik möhtəşəm bir musiqi əsəridir.. Burda sözlə musiqi arasında heyrətamiz bir şəkildə uyarlıq var.. Sən orda “Bayatı-şiraz”da elə barmaqlar vurmusan kİ, indi bir çox gənc tarzənlər oxuyanları müşayət eləyəndə həmin barmaqları vururlar.. Onu da deyim ki, uzun illik yaradıcılığında heç vaxt bu barmaqlardan istifadə eləməmişdin..

-Nəsə fantaziyam əla işlədi, təbim də yaxşı gəldi.. Amma bu həmişə belə olmur..

-Həmişə öz ifandan razı qalırsan?

-Xeyr!... Bir də görürsən çəkirlər, yazılır.. Sonra gəlib evdə tamaşa eləyirəm, görürəm o qədər də yaxşı, mən istəyən kimi alınmayıb.. Bəzən xanəndələrin səsi yeribndə olmur.. Muğamı yarım ton, hətta bir ton aşağıdan ifa eləyirlər.. Mən də məcbur oluram, simləri boşaldım.. Bax, bu çox vaxt nəsə deffekt yaradır.. Düzdü bunu tamaşaçı, dinləyici hiss eləmir.. Amma mən görürəm ki, tar həmişəki kimi səslənmir.. Şübhəsiz ki, bu ifadan razı qalmıram.. Amma xanəndə hər muğamı öz yerindən oxuyanda bu mənə zövq verir.. Mən də həvəslə çalıram.. Onda da hər şey yerli-yerində olur.. Onu da deyim ki, bu problemlə tək mən yox, bütün tarzənlərmiz rastlaşır, özü də tez-tez...

-Bu günki tar ifaçıarından razısanmı?

-Çox razıyam... Ramiz Quliyev bizim tarı bütün dünyada tanıtdırıb və sevdirib.. Bizim musiqimizi bütün zənginliyi və gözəlliyi ilə dünya ictimayyəti qarşısında təbliğ eləyib.. Özü də çox virtouz sənətkardı.. Onun haqqında çox danışmaq olar. Ağasəlim Abdullayev, Vamiq Məmmədəliyev, Valeh Abbasov, Möhnət Müslümov, Zamiq Əiliyev, Elxan Mənsurov, Malik Mənsurov.. Bunlar da çox peşəkar və gözəl ifaçılardı.. Bunların hərəsi haqqında çoxlu kitablar bağlamaq olar, gecə-gündüz danışmaq olar.. Mən bunların ifasına qulaq asanda çox zövq alıram.. Xanəndələri də çox yüksək səviyyədə müşayət eləyirlər.. Cavanlardan da Elçin, Rövşən, Əliağa, Ələkbər, Sahib çox xoşuma gəlir.. Hərəsinin öz yolu, öz dəsti-xətti var.. Əla çalırlar,

əla da müşayət eləyirlər.. Hamısı çox yaxşıdı.. Bura Azərbaycandı.. Azərbaycan torpağı aravermədən istedad yetişdirir.. Bir sözlə tarımız layiqli adamlıarın əlindədi.. Lakin mən də içərilərində olmaqla bütün bu sənətkarların bu cür gözəl ifaçılıqlarına səbəb şübhəsiz ki, Azərbaycan muğamıdı.. Muğam biz ifaçılara o qədər zəngin material verir ki, Azərbaycanda mahir ifaçı kimi yetişməmək çox böyük günahdı.. Muğam hər şeyi bişirib qoyur ağzımıza ki, al ye! Əgər muğamımız olmasaydı hardan bəhrələnəcəkdik? Nə çalacaqdıq, nə oxuyacaqdıq? Bizim Üzeyir Hacıbəyovumuzdan tutmuş, Arif Məlikovumuza qədər muğamımızın işığında yazıb yaradıblar.. Əgər muğam olmasaydı Azərbaycan musiqisi o qədər bəsit olardı ki, heç bu barədə danışmağa dəyməzdi.. İfamız bəlkə də eskimosların ifasına bənzəyəcəkdi..
-Hansı muğamı ifa eləyəndə daha çox zövq alırsan?
-Muğam ulularımız tərəfindən bir kökdə, vahid axarda qaynaqlanıb cilalanıb.. Ona görə də onları bir-birindən ayırmaq mümkün deyil.. Hər muğamın öx xarakteri, obrazlılığı var..
-Gənc muğam ifaçılarından razısanmı?
-Əksəriyyətindən razıyam.. Amma muğamın qol-qabırğasını sındıranlar da var.. Onlardan çox narazıyam.. Muğam oyuncaq deyil. Onu mütləq mükəmməl şəkildə öyrənəndən sonra xalqın qarşısına çıxıb ifa eləmək lazımdı.. Muğamla zarafat eləmək olmaz..
-Azərbaycandakı şou-biznes haqqında nə deyə bilərsən?
-Bəzi telekanallar indi bizdə sürətlə inkişaf edən şou-biznesin əsas mühərrikidi.. Şou-biznes isə yalnız televiziya reklamı kimi misilsiz təbliğat üzərində ərsəyə gələ bilir.. Hər gün bir çox tamaşaçıların evinə girən bəzi televiziya kanalları qarışqadan fil, kor qızdan mələk düzəldə bilir.. Buna görə də nə səsi, nə musiqi duyumu, nə də abrı-həyası olan adamlar televiziya kanallarına üz tuturlar.. Bu da həmin kanallar üçün əlavə konkurensiya və reklam meydanı açır, dollar gətirir.. Bir qədər keçəndən sonra bu səviyyəsiz müğənnilərə şou-biznes aparıcıları utanmadan, çəkinmədən “ulduz” adı verirlər.. Çox yaxşı oldu ki, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva bizim misilsiz xəzinəmiz olan muğamımıza layiqli qiymətini verib olduqca təqdirəlayiq işlər gördü.. Milli dəyərlərimizin daşıyıcısı olan muğam layiq olduğu yerə, ön plana keçdi.. Biz muğam ifaçıları buna görə gecə-gündüz Mehriban xanıma dua eləməliyik.. Çünki o muğama qiymət verməklə bahəm bizə də

qiymət verdi.. Muğamın zirvələrə yüksəlməsi, bizim də zirvələrə yüksəlməmiz deməkdi.. Çünki biz muğamla nəfəs alırıq, muğamla yaşayırıq.. Muğam bizim həyatımızın mənasıdı.. Muğam da elə şeydi ki, şoubiznes zad onu maraqlandırmır.. Muğam təlxəkliyi sevmir.. Muğamın süjeti, girişi, ana xətti, leytmativi, ideyası, kulminassiyası, finalı var.. Hər bir muğam dəstgahı şahənədən də şahənə bir elə ləldir ki, onun qiyməti bu dünyanın var-dövləti ilə ölçüyə gəlməz.. Mehriban xanımın bu möhtəşəm layihəsindən sonra, muğama ikrahla baxan, onu lazımsız bir janr hesab eləyən alaq otları yavaş-yavaş çürüyüb getməkdədi..
-Sən mənim ürəyimdən xəbər verdin Firuz.. Mehriban xanım şəfəqləri ilə xiridarlarının zövqünü oxşayan, kədərli, nisgilli ürəkləri isidən, onlara ümid, təsəlli qığılcımı saçan muğamımızı göylərə qaldırdıqca, onun qızıl zərrələrini bütün dünyaya səpələdikcə xalqın milli-mənəvi dəyərləri də özünə qayıtmağa başlayıb və insanlar artıq ağla-qaranı, yaxşıyla-pisi asanlıqla ayıra bilirlər.. Artıq insanların əksəriyyəti başı-ayağı olmayan hansısa bir janrın deyil, məhz muğamın ən mərhəm, ən ülvi, ən nəcib hiss və duyğular yaratdığını çox gözəl bir şəkildə dərk eləməyə başlayıb..
-Çox şükürlər olsun Allaha...
-Bu qırx illik yaradıcılığında çox şeylər eləmisən.. Amma belə bir şey varmı ki, sən onu eləmədiyinə görə hardasa özünü qınayırsan?
-Ən çox utancağlığıma görə həmişə özümü qınayıram.. Lap uşaq vaxtlarından tənbəllik nə olduğunu bilməmişəm.. Elə həmişə çalışmışam, çalışmışam yenə də çalışmışam.. Amma həmişə də utanmışam, utanmışam, yenə də utanmışam.. Heç vaxt kimsəyə bir işə görə ağız açmamışam.. Bunu heç cürə özümə sığışdıra bilmirəm.. Elə sənət aləmində də heç zaman kiməsə deməmişəm ki, məni harasa dəvət eləyin, ya muğam çalım, yazın.. Elə ona görə də indiyə qədər bir solist kimi cəmisi altı dənə muğam yazmışam.. Xanəndələrlə lent yazılarım kifayət qədər var.. Amma solist kimi altı dənədi.. Mənim fikrimcə bu çox azdı.. Allah qoysa, inşallah fikrim var ki, yenə yazdırım.. Çox sağ olsun müğənni Teymur Əmrah ki, onun təşkilatçılığı ulə “Nurlu sabah” studiyası mənim bu yaxınlarda kompakt diskimi buraxıb.. Buna görə həmin studiyanın kollektivinə də çox minnətdaram.. Orda Arif Məlikovun, Ramiz Mirişlinin, Emin

Sabitoğlunun mahnılarını, muğam parçalarıyla birlikdə ifa eləmişəm..
-Diskin buraxılmasından çox az bir vaxt keçib.. Artıq səsi-sorağı bütün Azərbaycana yayılıb.. Çünki sən bu nəhəng bəstəkarların bu gözəl əsərlərini öz ifanla daha da ziynətləndirmisən, daha da gözəlləşdirmisən.. Müqəddəs Qurani-Kərimdə ayə var ki, "Şöhrətpərəst olmayın, Allah şöhrətpərəstləri sevməz".. Tibb elmi də subut eləyir ki, şöhrətpərəst adamlar olduqca eqoist, özünüsevən, özündən razı olur və belə adamlarda heç vaxt nə vətən sevgisi, nə milli dəyərlərə bağlılıq, nə də başqa müsbət keyfiyyətlər olur.. Son zamanlar musiqi meydanına yalnız şöhrət qazanmaq üçün gələn adamların sayı çoxalıb.. Lakin çox şükürlər olsun aləmləri yoxdan yaradan uca Allaha ki, mənim dostum Firuz şöhrətpərəstlikdən çox-çox uzaq olan bir adamdı.. Amma onun uzun illər gərgin əməyi, yuxusuz gecələri və Uca Yaradanın ona verdiyi fitri istedadın müqabilində şöhrət özü axtarıb onu tapıb.. Necə deyərlər Firuz daim şöhrətdən qaçıb, şöhrət isə özü onun arxasıyca yüyürüb ona çatıb.. Artıq çətin günlər arxada qalıb.. Bəs gəlib bu zirvəyə çatana qədər qabağını kəsənlər, mane olanlar, mərdimazarlar olubmu?
-O qədər olub ki... Amma öz qurdları özlərini dağıdıb.. –Dahi şairimiz Nizami Gəncəvi buyurub ki, Allah-taala bir adamı ucaltmaq istəsə bütün kürreyi-ərz də yığışıb gəlsə, onsuz da ucaldacaq. Yox əgər endirmək istəsə, yenə də bütün əhli-bəşər gəlsə heç nə eləyə bilməyəcək, onsuz da endirəcək.. Səni də bu mənsəbə, bu yüksəkliyə Allah ucaldıb..
-Mən Allahımdan hər şeyə görə çox razıyam, çox...
-Bir çox tələbələr yetişdirmisən.. Ən çox hansıların ifası sənin ürəyincədi?
-Əksəriyyətinin çalğısı məni qane eləyir.. Amma Rövşən Qurbanovun, Əliağa Sədiyevin ifasından çox razıyam.. Onlar artıq peşəkar tarzənlərdir.. Hər şeyi də yerli-yerində eləyirlər..
-Həyatında ən əlamətdar hadfisə hansıdı?
-Mənim həyatımda əlamətdar hadisələr çox olub.. Lakin bu elə hadisələrdir ki, bəşər övladının 99 faizində belə xoş günlər olur.. Məsəlçün övladın dünyaya gəlməsi, övlad toyu, nəvələrin dünyaya gəlməsi və ilaxır.. Bunlar Uca Yaradan tərəfindən adəm övladına bəxş olunmuş qiymətsiz bəxşişlərdi.. Lakin elə əlamətdar hadisələr var ki, bu səni daha artıq çalışmağa, daha artıq yaratmağa, daha artıq öz sənətinlə bağlı fəaliyyət göstərməyə sövq edir.. Bu baxımdan mənim həyatımda ən

əlamətdar hadisələr 2002-ci ildə ümummilli liderimiz, ulu öndərimiz mərhum Heydər Əliyev cənabları tərəfindən əməkdar artist fəxri adıyla təltif olunmağım, sonra isə 2007-ci ilin otyabrın 4-də Azərbaycanın prezidenti İlham Əliyev cənablarının məni respublikanın xalq artisti fəxri adına layiq görməsidir. İnan Vüqar, mən bunları gözləyirdim.. Çünki çox zəhmət çəkmişəm, çox yuxusuz gecələr keçirmişəm, çox çalışmışam.. Mən birdən-birə gəlib xalqın gördüyü Firuz olmamışam.. Bunun üçün mən can qoymuşam, bir sözlə çox əziyyət çəkmişəm, çox.. Mən buna görə də Allahımdan çox razıyam ki, həm mərhum Heydər Əliyev, həm də indiki bizim prezidentimiz ki, mənim sənətimi və zəhmətimi qiymətləndirib, məni belə fəxri adlara layiq gördülər.. Hörmətli prezidentimiz İlham Əliyev cənabları mənə xalq artisti fəxri adı verdiyi gün, mənim dostum, sənətinə və şəxsiyyətinə böyük hörmətim olan Ağasəlim Abdullayevi də xalq artisti adı ilə təltif eləmişdi.. Həmçinin mənim başqa sənət dostum, çox gözəl klarnet və balaban ustası Elşad Cabbarov da əməkdar artist fəxri adıyla təltif olunmuşdu.. Dostlarımın da fəxri adlara layiq görülməsi mənim ikiqat sevindirmişdi.. Buna görə də mən ən əlamətdar hadisə altmış illik həyatımda bunu hesab eləyirəm..
-Özünü xoşbəxt hesab eləyirsənmi?
-Xoşbəxtlik anlarladı.. Lakin ümumilikdə götürəndə xoşbəxtəm.. Böyük Nazim Hikmət deyib ki, ən xoşbəxt adam odur ki, səhər işə gedir, axşam evinə dönür.. Mən uzun illərdi səhər işə gedirəm, axşam, ya da gecə evə dönürəm, əlbəttə qastrol səfərlərini nəzərə almasaq.. Allah-taala məndən heç bir şey əsirgəməyib.. Buna görə də Allahımdan çox razıyam.. Böyük-böyük adamlar mənim sənətimə qiymət veriblər, mənim zəhmətimi dəyərləndiriblər.. Cahangir Cahangirov, Süleyman Ələsgərov, Xəyyam Mirzəzadə, Ramiz Mirişli kimi nəhəng bəstəkarlar mənim ifamı çox bəyəniblər... Əsərləri ilə ürəkləri oxşayan gözəl bəstəkarımız Ramiz Mirişli "Tar və simfonik orkestr üçün konsert"ində, "Oxu tar" əsərində solo ifanı mənə həvalə eləyib.. Bütün xalq məni tanıyır, sevir.. Hara gedirəm, hansı məclisdə oluram yuxarı başda otuzdururlar.. Böyük-böyük alimlər, şairlər, mədəniyyət xadimləri, orqan işçiləri, hətta yuixarı vəzifələrdə çalışan insanlar da mənim ifama müsbət qiymət veriblər, yeri düşəndə tərifləyiblər.. Bir Allah şahiddir ki, mən bu tərifləri heç bir zaman istəməmişəm.. Sadəcə olaraq öz sənətimlə məşğul olmuşam, tarımı çalmışam.. Allahdan başqa heç kimdən də heç nə gözləməmişəm, gözləmirəm də.. Amma

Allahın mənə bəxş etdiyi bu mülkü gizlədə də bilmərəm axı.. Demək olar ki, hər gün cürbəcür televiziya kanallarından çıxış üçün dəvət alıram.. Mediya işçiləri, müxbirlər tez-tez zəng vurur, məndən müsahibə götürmək istədiklərini bildirirlər.. Vaxtaşırı qəzetlərdə, jurnallarda mənim haqqımda, mənim sənətim haqqında yazılar dərc olunur.. Allah-taala məni altı övlad, iki nəvə bəxş eləyib.. Çox şükürlər olsun Uca Yaradana ki, yaxşı ailəm, tərbiyəli övladlarım var.. Övladlarım ali savad alıblar.. Böyük qızım Nərmin Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirb.. Bir qızı var, adı Ayandır.. İkinci qızım Fəcrin Bakı Dövlət Universitetinin Psixologiya fakültəsini qırmızı diplomla bitirib, amma hələ ailə qurmayıb.. Üçüncü qızım Firuzə Müəllimlər İnsitutunun pedaqogika bitirib.. Onun da Fidan adında bir qızı var.. Dördüncü qızıma rəhmətlik anamın adını qoymuşam, Balacaxanım.. O da pedoğoji universiteti qırmızı diplomla bitirib.. Dörd qızdan sonra Allah mənə iki əkiz oğul əta elədi.. Onlara da atamın adını qoydum.. Birinə Əli, o birinə Abbas.. Hal-hazırda hər iksi Asəf Zeynall adına musiqi kollecində oxuyur.. Əlbəttə xoşbəxtəm, çox xoşbəxt.. Daha xoşbəxt necə olur ki? Sənin kimi mərd, dəyanətli, qeyrətli dostlarım var.. Daha adama nə lazımdır ki?!... Bircə işğal olunmuş torpağlarımız geri qayıtsaydı... Onda mənim xoşbəxtliyim bütöv olardı.. İnan ki, heç bir dərdim qalmazdı..

-Sən həqiqətən də dostsevən, dosta bağlı, dostun hər xoş gününə ürəkdən sevinən, bəd gününə isə çox kədərlənən adamsan.. 2008-ci il yanvarın 27-də Dünya Azərbaycanlılarının Konqrensi Rusiya Nümayəndiliyi Ostankino Tele-Kral sarayında mənim yaradıcılıq gecəm keçiriləndə sənin nə qədər sevindiyinin və sevincdən doğan hisslərdən təzahür eləyən fövqəladə çalğın mənim heç vaxt yadımdan çıxmaz.. Onda sən tarı o qədər ürəklə çaldın ki, bütün məclis iştirakçıları yaxşı mənada şok vəziyyətinə düşdülər.. Bu ifa onları elə ehtizaza gətirmişdi ki, bunun təsirindən xeyli müddət ayıla bilmədilər..

Firuz mənim xəyallara daldığımı hiss eləyib susur.. Mən isə ona verəcəyim növbəti suallar barədə və onun haqqında daha kimlərdən müsahibə alacağım barədə düşünürəm..

Gecə artıq öz qara köynəyini geyinib.. Hava ayazdı.. Çiskin yağış yağır.. Ulduzlar buludların arxasında gizlənib.. Firuzun gülümsər üzünə, mavi gözlərinə baxıram və özümdən biixtiyarn əlimi uzadıb yanına qoyduğu tarı futlyarından çıxarıb ona uzadıram, o da dərhal mənim nə istədiyimi başa düşüb tarı

sinəsinə basıb dinləndirir.. Sükan arxasında oturan sürücü Firuz çaldıqca başını məmmunluqla tərpədir.. Mənimsə fikrimə bədahətən bir neçə misra gəlir;

Çal Firuz çal, çal qardaşım, bas bağrına sən o tarı,
Yenə kövrəlt bu Vüqarı, aşıb daşsın arzuları,
Coşsun təbim pərvazlansın, hər tərəf nura boyansın,
Çal Firuz çal, çal qardaşım, zülmətlərlə vidalaşım,
Qisas alım yağılardan, Qarabağı alım geri,
Bu səs, bu ün, bu təranə, Xocalıda sədalansın,
Çal ki, düşmən öz oduyla, atəşiylə alovlansın!...

Mən şeri söyləyib bitirən kimi Firuz çalğısını saxlayır;
-Yaz o şeri ver mənə! İstəyirəm aparım evdə uşaqların anası oxsun! Yox, bilirsən nə var? Gedirik bizə! Gedib oturarıq süfrə arxasında, qabağımızda pürrəngi çay. Mən bu şerin məndə yaratdığı duyğuların ilhamıyla tar çalmaq istəyirəm.. Şer məni yaman tutub!..

Evə daxil oluruq.. Əli ilə Abbas üstümə elə yüyürürlər ki, sanki ən doğma adamlarını görüblər.. Anaları Səyyarə xanım və bacıları Fəcrinlə, Balacaxanım da məni çox səmimi qarşılayır.. Süfrəyə mürəbbəli, pürrəngi çay gəlir.. Mən Firuzun təklifi ilə şeri bir də söyləyirəm.. Şer ailə üzvülərinin də çox xoşuna gəlir.. Ələlxüsus "Bu səs, bu ün, bu təranə Xocalıda sədalansın" misrasını oxuyanda hamı kövrəlir..

"Tarı bihudə hesab etmə əgər arifsən,
Ki, sədasında pərişanlıq işarətləri var"

deyən Vahid, həmin qəzəldə

"Şairin, alimin, musiqi xadimlərinin,
İncə qəlbinə gir, gör nə nəzakətləri var"

da deyib.. Şübhəsiz ki, nəhəng şair həmişəki kimi mənası dərin və zövq oxşayan misralarda da yanılmayıb..Firuzun sevda dolu çalğısını dərindən duyan və ona pərəstiş edən Səyyarə xanım isə mənim bu şerimi dinləyəndə hamıdan çox kövrəlir.. Şünki o da həyat yoldaşı Firuz kimi poeziyanı dərindən duymağla yanaşı, çox vətənpərvərdi.. Həyat yoldaşının belə kövrəldiyini görən Firuz bu dəfə təklif gözləmədən tarı futlyardan çıxarıb sinəsinə basır, elə yanıqlı-yanıqlı dilləndirir ki, bu səfər mən kövrəlirəm və nədənsə yadıma Qarabağ düşmən tapdağına keçəndən sonra, özü dediyi kimi ürəyi qırılan mömin anam Hacıxanım düşür.. Firuz çaldıqca rəhmətlik anamın nurlu sifəti, olduqca mehriban və səmimi baxışları gözümün önünə gəlir, lap balaca vaxtımda məni əzizləyib-oxşaması, yemək yedizdirməsi, əlimdən tutub

gəzdirməsi, Mikayıl Müşfiq adına 18 saylıi məktəbin ibtidai siniflərində oxuyarkən məktəbə, eyni zamanda 12 nömrəli musiqi məktəbinə aparıb-gətirməsi, bir qədər böyüyəndən sonra ləldən qiymətli kəlmələri, öyüd-nəsihətləri, mən ali məktəbə daxil olarkən, aspiranturanı bitirərkən, doktorluq disertassiyası müdafiə eləyərkən, professor adına layiq görülərkən nə qədər sevinməsi, nəvələrinə intəhasız qayğısı, gəlinləriylə çox mehriban rəftarı, qəlbində hər kəsə yer ayırması, bütün bəşəriyyəti sevməsi və əllərini açıb gecə-gündüz kainatı yoxdan xəlq eləyən Uca Yaradana bütün xalqı üçün dua etməsi gözümün önündən qısametrajlı bir film kimi gəılib keçir.. Özümdən biixtiyar gözlərimdən yaş axır.. Firuz bunu görüb bir az da artıq yandırıb-yaxmağa başlayır.. Elə çalır ki, sanki ana balasına layla çalır.. Gözlərimin yaşını silib ona baxıram.. O da bunu duyub bir anlıq nəzərlərini tardan ayırıb mənə baxır və onun olduqca dərin və mənalı baxışlarından hiss eləyirəm ki, o mənim hansı hissləri keçirdiyimi, nəyə görə bu qədər kövrəldiyimi çox yaxşı anlayıb.. Yenə anamla bağlı xatirələri varaqlayıram və onun Firuzu öz üç oğlundan ayırmadığını, onun xətrini dünyalar qədər istədiyini göz önünə gətirirəm..
Rəhmətlik anamın Firuza olan hüsn-rəğbətini xatırlayandan sonra düşünürəm: “Firuz özündən əvvəlki klıassik ənənənin layiqli davamçısı, eyni zamanda öz növbəsində yeni tar ifaçılığı məktəbinin banisidir.. Məhz Firuz tərəfindən yaradılan bu məktəb elə bir məktəbdir ki, hələ çox əsrlər neçə-neçə musiqiçinin ilham çeşməsi üçün çağlayacaq və muğam dünyamızda əbədi bir sənət məşəli kimi daim yanacaq”...

***

## Hacı Vasim Məmmədəliyev

AMEA-nın müxbir üzvü, İslam Konfransı Təşkilatı Müsəlman Huququ Akademiyasının həqiqi üzvü, İraq Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycanın Əməkdar elm xadimi, Dağıstan Respublikasının əməkdar elm xadimi, Qafqaz Müsəlmanları İdarəsi Elmi Dini Şurasının sədri, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin dekanı, Ərəb filoligiyası kafedrasının müdiri, filologiya elmləri doktoru, akademik...

Gözünü yumursan, elə bilirsən ki, Firuz çalır.. Baxıb görürsən ki, Firuz deyil, onun davamçılarından biridir.. Bunun özü böyük şeydi.. Məktəb yaradıb, yəni bu adamın ifaçılığını gənclər götürürlərsə, deməli yaxşı çalanlarımız çoxdu.. Firuzu yamsılayanlar bu dəqiqə çoxdu.. Amma Firuz, Firuzdu.. Firuz təkdi.. Firuzun yolu ilə gedənlər çoxdu.. Bunun özü Firuzun zəngin yaradıcılığının təzahürüdür ki, o bir çox tarzənlər üçün etalon rolunu oynayır.. Gənc tarzənlərin əksəriyyəti onun tar ifaçılığı məktəbindən bəhrələnirlər.. Firuz artıq sənətdə öz yolunu müəyyənləşdirmiş bir adamdı.. İstər xanəndə olsun, istər müğənni, istər ifaçı, insrumentalist olsun, əgər onun özünün yolu varsa o böyük sənətkardı.. Bu əlbəttə hər adama qismət olan şey deyil.. Standart yolla çalanlarımız çoxdu.. Yaxşı ifaçılarımız az da olsa var.. Tar sahəsində də, kamançada da, balabanda da, sazda da mükəmməl sənətçilərimiz var.. Firuz bu gün az saylı ifaçılarımızdan biridir ki, olduqca orijinal üslübü, özünəməxsus dəsti-xətti var.. Bu yol bəyənilir, dinləyicilər tərəfindən müsbət emosiyalarla, duyğularla qəbul olunur. Mənə elə gəlir ki, bir sənətkar üçün bundan böyük xoşbəxtlik yoxdur.. Firuz özü yaxşı musiqi təhsili görüb, yəni məktəb görüb.. İstər Maştağada musiqi məktəbində, sonra Asəf Zeynallıda, sonra konservatoriyada Novruz Aydəmirovdan yüksək səviyyədə not dərsləri alıb.. Asəf Zeynallıda Ceyran Haşımovadan, Əlikram Hüseynov kimi ustad tarzənimizdən çox şeylər öyrənib.. Yəni Firuz həm notu yaxşı bilir, həm də olduqca yüksək səviyyədə muğam ifaçısıdır.. Ondan başqa Firuz Buzovna kimi muğamla, musiqiylə nəfəs alan bir məkanda böyüyüb.. Bura elə bir yurddur ki, gözəl muğam pedaqoqu, ustad xanəndə Nəriman Əliyev, qaboyu həzin-həzin dilləndirən Kamil Cəlilov və bir çox musiqiçilər yetişdirib.. Bundan əlavə Firuz lap gənc yaşlarından bizim görkəmli xanəndələrmizlə məclisərdə olub, onları müşayət eləyib.. Bakı məclislərində, Mərdəkanda, Hövsanda, Türkanda, Kürdəxanıda, Əmircanda, Buzovnada, Suraxanıda, nə bilim hər yerdə.. Mən Firuzu cürbəcür böyük məclislərdə çox görmüşəm.. Firuz həmişə böyük xanəndələrlə işləyib, böyük xanəndələrlə oturub-durub və onlardan çox şeylər öyrənib.. Bakı və Abşeron məclislərində Firuz daim ustad xanəndələri müşayət eləyib və

indinin özündə də eləyir.. Ona görə də Firuz həmişə inkişafdadı.. Bir daha qeyd edirəm, Firuz muğamın da, tarın da bütün sirrlərinə bələddir.. O yolları, guşələri, məqamları, nəhləri çox gözəl bilir.. Hətta bunlara özünəməxsus bir tərzdə naxışlar vurur... Bax, bu da Firuzun məziyyətlərindən biridir.. Bu gün ən səs salan muğam üçlüyü Hacı Ağaxandan, Firuz Əliyevdən və İsmayıl Həmidovdan ibarət üçlükdür.. Vaxtilə bu üçlükdə kamançanı çox gözəl kamança ustası Hacı Ədalət çalırdı.. Allah ona qəni-qəni rəhmət eləsin, qəbri nurla dolsun.. Bu üçlük mənə Cabbar Qaryağdı oğlu, Qurban Pirimov üçlüyünü xatırladır.. Bu muğam üçlüyü bu gün həqiqətən də ən nümunəvi üçlüklərdən biridir..

Firuzun ifası çox möhtəşəm bir ifadı.. Mənim tardan və tar ifaçılığından az-çox başım çıxdığına görə deyə bilərəm ki, Firuzun ifası olduqca obrazlı bir ifadır.. O tarı elə ifa eləyir ki, bütün şirinliyi, həzinliyi ilə yanaşı təkbaşına bütov bir orkesteri əvəz eləyir.. Bundan əlavə Firuzu bir çox tarzənlərdən fərqləndirən xüsusiyyət odur ki, o muğamın ən templi şöbələrini, guşələrini çalarkən öz həzinliyini, lirizmini itirmir.. Bidiyiniz kimi muğamlarımız özünəməxsus fəlsəfəyə, dramaturgiyaya, formaya, intonasiya köklərinin müxtəlifliyinə malikdir.. Muğamı dəstgah şəklində istər tarda, istər kamançada ifa eləyəndə, onun lirizmini, həzinliyini itirmədən başdan-ayağa ifa eləmək çox çətindir.. Bu çətinliyi ram eləyib olduqca rahat ifa ilə dinləyiciləri feyzyab eləmək, bizim bir sıra klassik tarzənlərimiz, Əhmədxan Bakıxanova, Bəhram Məınsurova, Hacı Məmmədova, Əhsən Dadaşova, Həbib Bayramova, Sərvər İbrahimova xas idi.. Öz sələflərinin yolunu ləyaqətlə davam elətdirən Firuzda da bu xüsusiyyət açıq-aşkar nəzərə çarpır.. Firuz o ifaçılardandır ki, tutalum "Şur"un templi şöbələrindən "Səmai-şəms"i, "Hicaz"ı, "Hacı-yuni"i, "Mavərənnəhr"i, "Şah-Xətai"ni, "Saqinamə"i "Sarənc"i, "Əbu-əta"nı, "Qəməngiz"i, "Dügah"ı, "Zəmin-xarə"ni, "Nişibi-fəraz"ı çalarkən, "Rast"da "Ərak", "Pəncgah", "Rak-Xorasani", "Qərai" çalarkən, bir sözlə nə çalırsa çalsın, hər mizrabı o qədər aydın və effektli vurur ki, heyran olursan.. Mən Firuzla bir yerdə çox məclislərdə olmuşam. Hər dəfə də onun çalğısının məclis iştirakçıları tərəfindən nə qədər böyük sevgi ilə

qarşılandığının şahidi olmuşam.. Firuz bir şəxsiyyət kimi də gözəl bir insandır. Onun qəlbi də çalğısı kimi safdır.. Sadə, mehriban, ürəyiaçıq, böyüyün-kiçiyin yerini bilən, ədəb-ərkanlı bir insandır.. Gözəl ailə tərbiyə görüb. Özünün də çoxlarına nümunə ola biləcək ailəsi var.. Onun balalarının toyunda iştirak eləmişəm.. İnşallah o birilərinin də toyunda iştirak eləyəcəyəm.. Mən Firuzu altmış yaşı münasibətilə təbrik eləyirəm, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram, Uca Yaradandan ona uzun ömür, can sağlığı diləyirəm..

***

**Ziyad Səmədzadə**
**Akademik**

## “Sənətin həqiqi sənətkarı”

Həqiqətən milləti millət edən onun yüksək mədəniyyətidir.. Xalqımız daim öz qədim tarixi, zəngin incəsənəti, yüksək musiqi mədəniyyəti ilə fəxr etmişdir.. Təsadüfü deyil ki, bu gün xalq musiqisindən, Azərbaycan ifaçılıq məktəbindən danışarkən, onu yaşadanların, qoruyanların adı dərin hörmət və ehtiramla çəkilir..

Sadıqcan, Qurban Pirimov, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Mənsur Mənsuruv, Bəhram Mənsurov, Rübabə Muradova, Hacı Məmmədov, Əhsən Dadaşov.. Bu unudulmaz insanlar öz ürəklərini dinləndirə-dinləndirə xalqın məınəvi yaddaşında iz salmışlar.. Kimisi səsi, kimisi tarı, kimisi kamançası ilə.. Etiraf edək ki, yüzlərin içindən seçilmək, sənətin həqiqi sənətkarı olmaq, halal şöhrətin sevincini yaşamaq hər kəsə nəsib olan səadət deyil..

Bu gün musiqi aləmində öz dəsti-xətti ilə seçilən, görkəmli tarzən, respublikanınn xalq artisti Firuz Əliyev haqqında danışmaq mənim üçün çox xoşdur.. İlk öncə ona görə ki, o doğma Buzovnadan pərvazlanıb, sənət meydanına çıxdığı gündən milli musiqi mdəniyyətimizin ənənəsini yaşadan Firuz Əliyevlə məni uzun illər dostluq əlaqələri bağlayır..

Bir amili mütləq qeyd eləməliyəm ki, Firuz görkəmli olduğu qədər sadədir, səmimidir, təvəzökardır.. O, mavi Xəzərdən ilhamlanıb.. Elə ilk addımlarını da Xəzərin narın və isti qumlu sahillərində atıb.. Heç şübhəsiz ki, onun həm sənətkar, həm də əsl insan kimi yetişməsində doğulduğu, böyüyüb boya-başa çatdığı mühit, Bakı kəndlərinin özünəməxsus qədim adət-ənənəsi xüsusi yer tutur..

Yeri gəlmişkən onu da deyim ki, abşeronlular muğamın incəliklərini dərindən bilir, muğam ifaçılarını, ifaçılıq məharətindən asılı olaraq qiymətləndirirlər.. Bu mənada Bakı mühiti, qədim ənənələrə sadiq qalan Bakı kəndlərində keçirilən toy məclislərində muğam ifa eləmək ilk növbədə cəsarət tələb eləyir, ikincisi isə həmin toylar ifaçı üçün böyük bir məktəbə çevrilir.. İfaçıdan məsuliyyət və ustalıq tələb eləyir.. Firuz Əliyev bu olduqca çətin imtəhanlardan əla qiymətlər alan və xalq tərəfindən inanılmaz dərəcədə sevilən sənətkarlardandır..

Firuz Əliyev böyük bir məktəb keçmişdir.. O, ustad tarzənlər Əhmədxan Bakıxanov, Əliağa Quliyev, Əhsən Dadaşov kimi mahir sənətkarların sənətindən bəhrələnərək, nəinki öyrənmiş, üstəlik öyrəndiklərinə öz barmaqlarının şirinliyini də qatmışdır..

Onu hamı sevir. Musiqiçi dostları da, sadə insanlar da.. Mən dəfələrlə Abşeron kəndlərində keçirilən el şənliklərində xalqın ona olan sevgisini, hüsn-rəğbətini görmüşəm.. Çox təqdirəlayiqdir ki, Firuz pedoqoji fəaliyyətlə də məşğul olur.. Artıq uzun illərdir ki, neçə-neçə gənc tarzənlər ondan dərs alaraq zaman-zaman özləri də peşəkar sənətkarlara çevrilirlər.. Bununla da Firuz Azərbaycan tar məktəbinə yeni düşüncə, nəfəs, həyat verir..

Muğam təkcə vokal, musiqi vəhdəti deyil, sözün əsl mənasında dərin elm, dərin fəlsəfədir.. Firuz Əliyev bu dərin elmə vaqif olan bir tarzəndir desəm, məncə yanılmaram..

Bir həqiqəti də etiraf eləmək istəyirəm ki, qızım Aygün Səmədzadənin bəstələdiyi “Tut ağacı” mahnısında Firuzun “Bayatı-Şiraz” muğamı üstündəki ifasını dinlədikcə öz hissimdə, içimdə keçirdiyim bir doğmalıq, məlhəmliklə yanaşı Mikayıl Müşfiqin bu ölməz misraları yada düşür:

“Oxu tar, oxu tar, səni kim unudar?”

Bəli, musiqi insan hisslərini, düşüncələrini, arzu-istəklərini, hətta cəmiyyətin problemlərini belə əks etdirir.. Deməli musiqinin vəzifəsi təkcə zövq vermək deyil, eyni zamanda insanları tərbiyə etmək, həyatda düzgün mövqe tutnmağa kömək göstərməkdir..

Tam səmimiyyətlə deyə bilərəm ki, Firuz həqiqətən şöhrət üçün deyil, xalq musiqisinin düzgün təbliğ olunması üçün fədakarcasına əlindən gələni edir və bu yolda öz layiqli xidmətini göstərir.. Onun vətənə, xalqa yorulmadan xidməti, milli musiqimizə hədsiz sədaqətlə səciyyələnən yaradıcılıq yolu gənc tarzənlər nəsli üçün tükənməz mənbə, sənət məktəbidir..

Firuz Əliyev bir çox xarici ölkələrdə, konsertlərdə, dövlət tədbirlərində, eyni zamanda el şənliklərində dostum Hacı Ağaxan Abdullayevi və bir çox görkəmli xanəndələri müşayət etmişdir.. Muğamın ifası zamanı əgər tar varsa, deməli mütləq kaman da var.. Bu mənada muğam üçlüyü-Hacı Ağaxan Abdullayevin, Firuz Əliyevin və İsmayıl Həmidovun ifası hamıya məlumdur..

Tarixin sınağından çıxmış muğam sənəti bu gün özünün yeni mərhələsinə qədəm qoymuşdur.. Mən bu fikrimi dəfələrlə öz çıxışlarımda vurğulayıram ki, milli mədəniyyətlərə qloballaşma, xarici amillərin təsirinin gücləndiyi bir şəraitdə biz muğam sənətinə, onu yüksək professionallıqla qoruyan sənətkarlara minnətdar olmalıyıq.. Üzeyir Hacıbəyovun dahiliyi ondadır ki, o bütün yaradıcılığında muğamın böyük imkanlarından bacarıqla istifadə etmiş, Azərbayan xalq musiqisinin əsaslarının qorunmasında muğamın əvəzedilməz rolunu göstərmiş və musiqi irsimizi qorumağı müqəöddəs bir vəzifə hesab etmişdir..

Mən Firuz Əliyevə can sağlığı, yaradıcılıq uğurları müvəffəqiyyətlər arzulayıram.. Qoy onun duyğulu qəlbi ilə tarın sehrli simlərinin vəhdəti heç zaman əskik olmasın..

***

**Ramiz Mirişli**
**Respublikanın xalq artisti, Dövlət mükafatı laueratı, bəstəkar**

Firuz Əliyev altmış illik ömrünün az qala əlli ilini musiqiyə həsr eləyib.. Amma otuz ildən yuxarıdır ki, Azərbaycan musiqisinin yükünü çiyinlərində vətənimizin hududlarından uzaqlara daşıyır

və onu əsl ustadlar kimi layiqincə təmsil edir.. Firuz fitri isdedaddır.. Lakin bu istedad onun gərgin yaradıcılıq zəhməti, axtarışı hesabına cilalanmışdır.. Firuzun bir sənətkar kimi xoşbəxtliyi bundadır ki, o sənətə qədəm basdığı gündən artqı çox gözəl ənənələri olan Azərbaycan tar ifaçılığı məktəbinin təsirini duymuş ondan layiqincə bəhrələnmişdir.. Firuz muğamla yaşamış, muğamdan qida almış və onunla da pərvəriş tapmışdır.. Firuzun sanki bütün varlığı musiqidən yoğrulmuşdur.. Musiqidə həzinlik, lirika, gözəllik axtarmaq isə onun sanki bir peşəsinə çevrilmişdir.. Bu gün Firuz muğamımız üçün çox işlər görür: onun ifası yüzlərlə gənc muğam ifaçısı üçün bir məktəb rolunu oynayır.. Gənc muğam ifaçıları onun ifasının işığına bürünüb muğamı bütün həzinliyilə, gözəlliyi ilə oxumağı öyrənirlər.. Firuz təkcə tar ifaçısı kimi deyil, muğam ifaçısı kimi də bir tapıntıdır.. Onu da deməliyəm ki, Firuz bizim milli musiqimizə ürəkdən yanaşan, onu göz bəbəyi kimi qoruyan bir sənətkardır.. Firuz uzun illər mərhum İslam Rzayevin yaratdığı ansambıla başçılıq etmişdir.. Məhz Firuz bu ansambıla başçılıq etdiyi gündən ansambıl yeni profili, özünəməxsus ahəngi, repertuarı, ifaçılıq xüsusiyyəti və s. məziyyətləri ilə seçilməyə başlamışdı.. Mənim də mahnılarım o ansambılın repertuarında yer tutduöuna görə bilirəm ki, həmin ansambıl Firuzun səyi ilə daha musiqi nömrələrinin fotoşəklini çəkməmiş, hər mahnının üzərində zərgər kimi incə yaradıcılıq işi aparmışdır.. Ansambılın repertuarını bəzəyən musiqi miniatürləri daima xalqın zövqünü oxşaya biləcək bir bəstəkar qələmi ilə cilalamışdır.. Bütün bunlarla yanaşı Firuz klassik əsərlərin, eyni zamanda bizim bəstəkarlırımızın cürbəcür janrlarda olan əsərlərinin ən mahir ifaçılarından biridir.. Firuz mənim bəstələdiyim “Tar ilə simfonik orkestr üçün konsert”də, eyni zamanda “Oxu tar” əsərində solist kimi çıxış etmişdir. Firizin ifası hər iki əsərin uğur qazanmasında kifayət qədər əhəmiyyət kəsb etmişdir.. Mən Firuz Əliyevi altmış illik yubileyi münasibəti ilə ürəkdən təbrik eləyir, ona ailə səadəti, uzun ömür, can sağlığı və yeni-yeni uğurlar arzulayıram...

***

**Siyavuş Kərimli**
**Milli Konservatoriyanın rektoru, professor.. Respublikanın xalq artisti**

Mən çox şadam ki, Firuz qardaşım haqqında bir-iki kəlmə demək şərəfi mənə də qismət oldu.. Əvvəla ondan başlayım ki, mən Firuz müəllimi uzun illərdir tanıyıram.. Tələbə olarkən bir

kurs fərqimiz var idi, yəni Firuz müəllim bizdən bir kurs yuxarıda oxuyurdu.. Firuz müəllim hələ o vaxtlar da özünün olduqca mehriban və səmimi xasiyyətinə görə ətrafına xeyli dostlar yığmışdı. Elə o vaxtdan da Firuz müəllim öz orijinal çalğısı ilə hamıdan seçilirdi. Bir də baxıb gördüm ki, böyük sənətkarımız İslam Rzayevin ansamblına rəhbərlik eləyir, özü də necə eləyir?! Hər şey öz yerində.. Ansambl elə çalırdı ki, nə qədər axtarsan da səhv tapa bilmirdin.. Səslənmə olduqca effektli və cazibəli idi.. Adam bu ansamblın ifasına qulaq asdıqca doymurdu.. İslam Rzayevin və yaxud başqa bir müğənninin ifasında muğam səslənməyə başlayırdısa bir möcüzə yaranırdı.. Firuz müəllim tarı sinəsinə basıb elə çalırdı ki, adamın ruhunu uçurdurdu.. Mənim yaradıcılıq istiqamətim başqa bir səmtdə olduğuna görə demək olar ki, görüşmək imkanımız məhdud idi. Amma tale elə gətirdi ki, biz Firuz müəllimlə artıq milli konservotoriya yaranandan sonra çiyin-çiyinə işləməyə başladıq. O vaxtdan bəri Firuz müəllim öz pedoqoji fəaliyyətini yüksək nizam-intizamla və peşəkarcasına apardığına görə ondan dərs almaq istəyən tələbələrin sayı gün-gündən artırdı.. Firuz müəllimin sinfində oxumaq istəyən tələbələrin sayı çox olduğuna görə mən belə bir fikrə gəldim ki, bütün tələbələrə azad seçim imkanı yaradaq.. Hər bir tələbə istədiyi müəllimi götürsün.. Elə buna görə də Firuz müəllimin sinfinə bir axın başladı.. Firuz müəllim adi müəllimlikdən baş müəllimə qədər yüksəlib.. Bu ildən artıq dossent vəzifəsini daşıyır.. İnşallah yəqin ki, yaxın zamanlarda professorluğa da addım atacaqdır.. O öz çoxsaylı tələbələrinə səmimi-qəlbdən, böyük məhhəbət və sevgiylə dərs keçir. Məhz buna görə də artıq onlarla peşəkar tarzən yetişdirmişdir.. Azərbaycanın xalq artistidi, bütün muğam müsabiqələrinin olduqca fəal iştirakçısıdı, yəni üzdə olan musiqiçilərdəndi.. İfasına qibtə eləyən və onun yaradıcılığına xüsusi münasibət bəsləyən tələbələrin sayı olduqca çoxdur.. Bu gün Firuz müəllimin tar ifaçılığında öz məktəbi var.. Mən onlarla tar ifaçısı tanıyıram ki, bilavasitə Firuz müəllimin tələbəsi olmaya-olmaya onun işlətdiyi xalları vurur, impervozələrdən istifadə eləyir.. Onların ifasını eşidən kimi “Bu Firuz yoludur”-deyirsən.. Firuz müəllimin sənətinə olan məhəbbəti, onu bu gün xalq tərəfindən ən çox sevilən sənətçilərdən birinə çeviribdir.. Firuz müəllimin yaradıcılığı haqqında uzun-uzadı danışmaq olar.. Amma şükür Allaha ki, hər şey göz qabağındadır.. Necə deyərlər, görünən kəndə bələdçi lazım deyil.. Firuz müəllimin adı sayılıb-seçilən

musiqiçilərin sırasında çəkilir.. Onu da qeyd eləyim ki, bu yol olduqca çətin bir yol olsa da çox şirin, ifadəli və əhatəli bir yoldur.. Nə deyim? Firuz müəllim çox böyük sənətkardı, bizim muğam sənətimizi, müqəddəs saydığımız tarımızı ləyaqətlə yaşadan sənətkarlardandı.. Vüqar müəllim, bu yaxınlarda biz səninlə Firuz müəllim haqqında söhbət eləyəndə, dahi bəstəkarımız Cahangir Cahangirovun ona nə qədər yüksək qiymət verdiyindən söz açdıq.. Siz çox gözəl xatırlatdız ki, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Sara Qədimova, Şövkət Ələkbərova "Musiqimizin bu günü" verilişi zamanı dəyirmi masa arxasında oturub tar ifaçılarından söz salıblarmış. Cahangir müəllimdən başqa hamısı bir nəfər məhşur tarzəni tərifləyirmiş.. Cahangir müəllimdən onun fikrini soruşanda, o fikirləşmədən əvvəl artıq illər öncə dünyasını dəyişmiş unudulmaz sənətkarımız Əhsən Dadaşovun, sonra isə hələ adını bilmədiyi, sadəcə olaraq İslam Rzayevin ansamblına rəhbərlik eləyən cavan oğlanın, yəni Firuz Əliyevin ifasından xüsusi zövq aldığını deyib....

Firuz müəllimin şəxsiyyətinə də söz ola bilməz.. Çox təvəzökar, alicənab və mərd adamdır.. Mən hələ Firuz müəllimdən eşitməmişəm desin ki, mən filan yerdə elə çaldım ki, valeh oldular.. Bilavasitə bu da onun böyüklüyünü, sadəliyini göstərir.. Mənim Buzovnada çox sayda dostlarım var.. Etibar, Ziyad müəllim.. Buzovnada Firuz müəllimin nə cür hörmətə malik olduğundan çox yaxşı xəbərim var.. Onun necə gözəl ailə başçısı olduğunu da hamı bilir.. Allah balalarını, nəvələrini saxlasın.. Mən onu altmış yaşı münasibətilə təbrik eləyirəm, ona daimi səadət arzulayıram..

***

**Hacı Madər**
**Millət vəkili**

Firuzun çalğısı misilsiz bir çalğıdı... Belələri çox az olur.. Buna fitri isdedad deyirlər.. Bildiyiniz kimi mən iş adamıyam, həm də millət vəkiliyəm.. Qonaq getdiyim məclislərin hamısında axıradək oturmağa çox zaman vaxtım olmur.. Amma əgər həmin məclisdə Firuz varsa hər şeyi unudub axıradək oturu
ram və feyziyab oluram.. Mən muğamın vurğunuyam.. Muğam bizim qanımızda, canımızdadı.. Firuz da muğamı bütün incəlikləriylə, xırdalıqlarıyla

ifa eləyir.. Çox şirin çalır, çox.. Şübhəsiz ki, bu bir Allah vergisidi.. Özü də çalarkən heç bir çətinlik çəkmir.. Bir sözlə tarı özünə elə tabe eləyir ki, tar onun hər bir göstərişini dərhal yerinə yetirir.. Adama elə gəlir ki, o tarı günlərlə dincəlmədən çala bilər.. Mənim musiqidən az-çox başım çıxır.. Firuz bir şöbədə işlətdiyi xalı heç vaxt ikinci dəfə təkrar etmir.. Onun təxəyyülü çox zəngindir.. Çaldıqca yaşayır və yaradır.. Musiqiçilərdə belə bir ifadə var; "Filankəsin ürəyi var".. Məlum məsələdir ki, hər bir canlının ürəyi var və ürək olmasa yaşamaq mümkün deyil.. Lakin musiqçilər bu ifadəni kim ürəklə oxuyursa və yaxud çalırsa ona şamil eləyirlər.. Firuz çox ürəklə çalır və çaldıqca da ona qulaq asanları öz hiyləsiz, riyasız, saf və pak dünyasına aparır.. Firuz ona qulaq asanların mənəviyyatını zənginləşdirir, əsəblərinə sakitlik gətirir.. İnsanlığına gəldikdə isə çox qanacaqlı, mərifətli, abırlı, namuslu, qeyrətli bir adamdır.. Gözəl ailə başçısıdır.. Mən onun xatirini çox istəyirəm və çox şadam ki, bir neçə il bundan qabaq çox hörmətli prezentimiz zati-aliləri İlham Əliyev onun sənətini qiymətləndirib və onu xalq artisti kimi fəxri adla təltif eləyib..

Mən Firuzu altmış yaşı münasibətilə təbrik eləyirəm, ona yeni-yeni nəaliyyətlər və Uca Allahdan dünyada ən şirin nemət olan can sağlığı diləyirəm..

***

**Ərəstun Cavadov**
**Millət vəkili**

Azərbaycan musiqisi, Azərbaycan muğamı artqı uzun illərdir ki, dünyaya səs salb.. Hamı bilir ki, muğam və ya musiqi ifaçısı olmadan heç bir yana ayaq tutub yeriyə bilməz.. Azərbaycanın mədəniyyət xəzinəsi olan musiqimizi Uca Yaradan tərəfindən fitri istedad verilmiş sənətkarlar bütün dünyaya yayırlar.. Buna misal olaraq unudulmaz müğənnilərimiz Bülbülü, Rəşid Behbudovu, eyni zamanda Zeynəb Xanlarovu, Alim Qasımovu və başqalarını göstərmək olar..

Lakin Azərbaycanda elə sənətkarlar var ki, onlar bizim əsrarəngiz musiqimizi səsləri ilə yox, barmaqlarının qüdrəti ilə aləmdə nümayiş etdirirlər.. Bunlardan biri də artıq otuzdan çox ölkədə Azərbaycan musiqisini ləyaqətlə təmsil edən Firuz Əliyevdir..

Mən artıq neçə illərdir informassiya vasitələrindən bu haqda məlumatlar alıram və Firuz Əliyevin necə böyük məharətlə musiqimizi dünyanın cürbəcür ölkələrində təbliğ eləməyinin şahidi oluram..

Əlbəttə buna səbəb ilk növbədə Firuzun olduqca möhtəşəm ifası, muğamlarımızı dərindən bilməsi, Azərbaycan milli musiqisinə bütün incəliklərinə qədər bələd olması, müğənniləri, xanəndələri olduqca peşəkarcısına müşayət eləməsidir..

Firuzun ifası bənzərsiz, olduqca mükəmməl, obrazlı, şirin və ürəyəyatımlı bir ifadır.. O öz sələflərinin ləyaqətli davamçısı olmaqla yanaşı, tar ifaçılığına yeni nəfəs, yeni səs, yeni barmaqlar, yeni üslub gətirən bir sənətkardır..

Bu gözəl ifada dinamikliklə, çeviklikə yanaşı, həzinlik, mülayimlik, lirizm var.. Firuz tar çalarkən sanki tar dil açıb danışır.. Belə bir ifa Firuza qədər ancaq kamança ustası Habil Əliyevdə olub.. Firuzun ifasından doymaq olmur.

Mən Firuz müəllimi çox məclislərdə, eyni zamanda Dövlət tədbirlərində çox görmüşəm.. O tar çalarkən bütün məclis iştirakçılarının və yaxud bütün salondakıların səslərini çıxarmadan, tərpənmədən, bütün fikirlərini toplayaraq olduqca diqqətlə ona qulaq asdıqlarının və üzlərinin ifadəsindən bu ifadan nə qədər feyz aldıqlarının, ifanın ortasında hələ xanəndə muğama ayaq verməmiş onu sürəkli alqışlarla alqışladıqlarının dəfələrlə şahidi olmuşam..

Nakam şairimiz Mikayıl Müşfiq tarı xalqının "acısı, şərbəti-alovlu sənəti" adlandırırdı.. Bu olduqca poetik və düşündürücü misralar bir vaxtlar milli musiqi alətlərimizə, o cümlədən tara qarşı kampaniya aparıldığı bir zamanda milli musiqi alətlərimizin müdafiəçisi kimi səslənmişdi.. Lakin Müşfiqin bu şeri eyni zamanda tarın Azərbaycan xalqı üçün nə qədər əhəmiyyət kəsb etdiyini, onun acısının, kədərinin, eyni zamanda sevincinin, xoş günlərinin aynası kimi əks-sədasını ifadə edir..

Mənim fikrimcə Firuz Əliyev xalqın tarix boyu keçdiyi yolu, iztirablarını, müsibətlərini, eyni zamanda firavan günlərini, xoşbəxt anlarını öz ifasıyla canlandıran, bizə həzin musiqi lövhələriylə təqdim edən sənətkarlardan ən ön sırada gedənlərindəndir..

Firuz çalarkən xəyala getməmək, dəruni hisslərə qapılmamaq, ehtizaza gəlməmək mümkün deyil..

Firuz Əliyev bir çox xanəndələri müşayət etmişdir.. Məsələ burasındadır ki, bizim muğam xəzinəmiz həddən artıq zəngin

olduğu üçün, eyni zamanda xanəndələrimiz hamısı orijinal üslübda oxuduqdaları üçün, hər xanəndə, ayrı-ayrı muğamları özünəməxsus şəkildə ifa eləyir.. Arif Babayev “Segah”ı bir başqa cür, Teymur Mustafayev bir başqa cür, Ağaxan Abdullayev bir başqa cür, Alim Qasımov bir başqa cür oxuyur... Firuz müəllim isə hər xanəndəni mütləq onun ifasına uyğun tərzdə müşayət eləyir.. Xanəndə cümləni hansı notların üstündə qurursa, Firuz müəllim hökmən məhz o notlara bəzək vurur.. Belə bir müşayət isə xanəndəyə sanki qol-qanad verir və xanəndə daha hamar, daha rahat oxuyur..

Buda Firuz müəllimin öz sənətini, peşəsini ən xırda detallarına qədər bilməsindən irəli gəlir..

O insan kimi də çox sadə, alicənab, təvəzökar, ədəb-ərkan sevən bir insandır.. Mən Firuz müəllimi altmış illik yubileyi münasibəti ilə təbrik edir, ona xoşbəxtli, xoşbəxtlik, yenə də xoşbəxtlik arzulayıram..

***

**Əlibaba Məmmədov**
**Xalq artisti**

Firuz Əliyev haqqında danışmaq şərəfli, eyni zamanda çətin bir işdir.. Çünki onun haqqında söz deyəndə gərək lazımi səviyyədə danışa biləsən.. Mən Firuzu çoxdan tanıyıram.. Vüqar müəllim sən özün bilirsən ki, mən tar çala bilirəm.. Elə yüzdən yuxarı bəstələrimi də tarla bəstələmişəm.. Ona görə də kimin nə səviyyədə, hansı çəkidə tarzən olduğunu şükür Allaha ki, yaxşı anlayıram.. Firuz tarı çox şirin və yanıqlı çalır... Bu haqda təkcə bir misal gətirmək istəyirəm ki, bir dəfə İran İslam Respublikasında qastrol səfərində olduğum zaman Firuzla bir mənzildə qalırdıq.. O on gün ərzində mənim üçün hər gecə “Şur” çalırdı.. Özü də heç vaxt təkrara yol vermir, hər dəfə bir-birinə bənzəməyən xallar vururdu.. Nəhayət mən heyrətimi gizlədə bilməyib soruşdum:- Ay Firuz bu qədər xalları, hardan, necə tapırsan?

-Vallah əmi, heç özüm də bilmirəm,-deyə cavab verdi... Demək istəyirəm ki, Firuz yaradıcı ifaçıdı.. Bəzi tarzənlər var ki, elə otuz

il, qırx il bundan qabaq necə çalıblarsa, indi də elə çalırlar. Heç bir dəyişiklik, inkişaf yoxdu.. Firuz isə çala-çala yaradan sənətkarlardandır.. Əgər o indiyəcən çaldığlarının hamısını saxlasaydı xalların, imporvizələrin sayı-hesabı bilinməzdi..Firuz çəkisi iki-üç kilodan artıq olmayan ağac parçasında xarüqələr yaradır.. Bəs buna fitri-isdedad deməyəsən, nə deyəsən.. Mənim yadıma gəlir ki, hələ Firuz çox gənc ikən bizim çox nəhəng bəstəkarımız, Allah ona qəni-qəni rəhmət eləsin, Cahangir Cahangirov Firuzun çalğısını çox bəyənmişdi.. Onu da deyim ki, dahi bəstəkar hələ Firuzu tanımamışdan əvvəl tarzənlərdən bir dənə rəhmətlik Əhsən Dadaşovu bəyənirdi.. Əlbəttə o boyda bəstəkarın Firuza yüksək qiymət verməsi özü bizə çox şey deyir.. Mən Firuzun elə xüsusiyyətindən danışmaq istəyirəm ki, bu barədə ya az deyilib, ya da heç deyilməyib.. Mənim fikrimcə Firuz çalmır, oxuyur.. Firuz çalanda məndə elə bir təsəvvür yaranır ki, ilahi bir səsi olan hansısa xanəndə irfani şərqilər oxuyur.. Söz lazım deyil.. Onsuz da bizim o nəhənglərimizin bütün bədii irsi, kitabın vərəqləri kimi bir-bir açılır və sətirbəsətir gözümüzün önündə canlanır.. Nə yaxşı şey istəsən Firuzun çalğısında var.. İstəyirsən əsəblərin sakitləşsin Firuza qulaq as! İstəyirsən səndə yaratmağa yeni həvəs oyansın Firuza qulaq as! Bir sözlə onun ifası çox təsirlidi, sözün əsl mənasında insanın ruhuna qida verir.. Onu da qeyd eləyim ki, o özündən əvvəlki tarzənlərdən dərslər alsa da, onun çalğısı sələflərinə qətiyyən bənzəmir.. Onun sənətdə öz səsi, öz nəfəsi, öz dəsti-xətti var.. Üslubu çox orijinaldır.. Heç kəsi təkrar eləmir, heç kəsin təsirinə qapılmır. Yaratdıqlarının hamısı öz istedadının məhsuludur.. Özü də çox mehriban və səmimi adamdır.. Qəlbi də billur kimi pakdır.. Mən onu tanıdığımdan bəri ondan bir xoşagəlməyən hərəkət, ürəkaçmayan bir əməl görməmişəm..Xasiyyəti də çalğısı kimi ləli-gövhərdir.. Mən deyərdim elə Firuz özü bizim musiqi xəzinəsinə Allah tərəfindən töhvə verilən çox-çox bahalı bir cəvahirdir.. Biz Firuz kimi sənətkarın qədrini bilməliyik.. Bir sözlə Firuz haqqında ən yaxşı sözləri demək olar.. Vüqar müəllim sən də min dəfə sağ ol ki, belə gövhərlərə layiq olduqları dəyəri və qiyməti verib qiymətini heç bir şeylə ölçmək olmayan kitablar

yazırsan və gələcək nəsillər üçün çox lazımlı ərməğanlar hazırlayırsan.. Min dəfə sağ ol Vüqar müəllim..

Mən Firuzu altmış yaşı münasibətilə səmimi qəlbdən təbrik eləyirəm.. Ona həyatda balaları, nəvələri, ailəsi ilə birlikdə səadət, firavanlıq, bol-bol ruzi-bərəkət, sənətdə isə yeni-yeni uğurlar və nailiyyətlər arzu edirəm..

***

**Hacı Arif Babayev**
**Xalq artisti**

Çox gözəl çalır.. Elə çalır ki, elə hey oxumaq istəyirsən. Bizim çox böyük muğam ustadımız, qızıl səsə malik olan Yağub Məmmədov Firuz haqqında belə bir ifadə işlətmişdi,- “Ay tar çalanlar Firuzun barmaqlarından qorxun, bu barmaqların gücü böyük, ömrü uzundur.. Onun müşayəti ilə oxuyanda adam baş alıb dünyadan gedir, di gəl, yalvar ki, səni özünə qaytarsın”.. Yağub Məmmədov kimi dühanın Firuz haqqında belə sözlər söyləməsi Firuzun kim olduğunu, nə boyda sənətkar olduğunu çox ətraflı surətdə bildirir.. Mən Firuzla çox toy-düyünlərdə, el şənliklərində, qastrollarda olmuşam.. Televiziya ekranlarında dəfələrlə çıxış eləmişəm.. Onun müşayətilə oxumaq mənə o qədər zövq verib ki, tədbirin və yaxud şənliyin nə vaxt bitdiyini hiss eləməmişəm.. Onunla bir yerdə İranda, ABŞ-da, Kanadada qastrol səfərində olmuşam.. Hər dəfə də kamança çalan Munis Şərifov bizimlə olub.. Çox bəyəniblər tamaşaçılar Firuzu, çox.. İranda yetmiş gün bir yerdə olmuşuq. Millətindən asılı olmayaraq hər kəs Firuzun çalğısına heyran olub.. 1991-ci ildə “Vətən” cəmiyyətinin xəttilə ABŞ-da qastrol səfərində olmuşuq.. Harda oluruqsa, olaq, Firuz məni müşayət edərkən tamaşaçıları o qədər valeh edib ki, mən hələ oxumağa başlamamışdan onun üçün ayrıca əl çalıblar.. Çox gözəl yoldaşlığı var.. Onunla yol getmək də xoşdur.. Adamı heç darıxmağa qoymur.. Çox danışan deyil, amma hərdən elə söz deyir ki, uğunub gedirsən.. Özü gülmür, amma adamı elə güldürür ki, gözlərin yaşarıyıncaya qədər gülürsən.. Hər şeyin də yerini bilir.. Uşaqla uşaqdı, böyüklə böyük.. Özü də xeyrə-şərə yarıyan adamdı.. Özünü heç vaxt tərifləmir, həmişə başqalarını tərifləyir.. Tamaşaçı alqışı, tamaşaçı sevgisi heç vaxt bəziləri kimi onun başını gicəlləndirmir.. Milli dəyərlərə çox bağlıdı, qeybət sevməz, kimsəyə rişxənd eləməz, yalan danışmaz, ya düzün danışar, ya

da susar.. Bir sözlə islam ehkamlarına çox bağlıdı, necə deyərlər əsl azərbaycan kişisidi.. Vətənimizin hududlarından çox-çox uzaqlarda da onun çalğısının on minlərlə pərəstişkarı var.. Mən özüm bunun şahidi olmuşam.. Firuz mənim ən çox bəyəndiyim və sevdiyim tarzənlərdəndi.. Mən də onun altmış yaşını səmimi qəlbdən təbrik edirəm, ona ailə səadəti, uzun ömür, can sağlığı və daha böyük zirvələri fəth etməyi arzulayıram...

***

**Hacı Ağaxan Abdullayev**
**Xalq artisti**

Firuz sözün əsl mənasında ustad sənətkardır.. Xalq arasında deyirlər: “Papaq altında oğullar var”.. Firuz da belələrindəndir.. Xalqımız belə oğlu ilə fəxr eləyib və fəxr edəcəkdir.. Firuz kimdir? Bu sual ilk baxışda bəzilərinə qəribə görünə bilər.. “Necə yəni Firuz kimdir?”-Firuz tarzəndir.. Hətta əlavə edib deyə bilərlər ki, misilsiz bir tarzəndir..Ancaq mənə elə gəlir ki, Firuz haqqında nəsə daha ülvi bir söz demək lazımdır.. Mən şəxsən o sözü tapa bilmirəm..Çoxdandı onunla bir yerdəyik.. Televiziya kanallarında, toy-düyünlərdə, el şənliklərində, Dövlət konsertlərində, xarici ölkələrə qastrollarda.. Türkiyədə, Rumuniyada, Almaniyada, Fransada bir yerdə çıxış eləmişik.. Həm “Muğam üçlüyü”müz var, həm də “Abşeron” instrumental ansamblımız.. Artıq uzun illərdir, demək olar ki, hər gün görüşürük, bir yerdə oluruq.. Mən ürəklə oxumağı sevirəm.. Əgər Firuz yanımdadısa bir az da ürəklə oxuyuram. Firuzun çalğısı məni belə oxutdurur.. Bir dəfə Abşeron toylarının birində Firuzun çalğısı məni o qədər məftun elədi ki, özümdən biixtiyar bədahətən muğam üstündə belə bir bayatı oxudum;

Əzizim tarçalana, tarı ver tarçalana,
Məni Firuzdan ayıranın, ürəyi parçalana...

Mən Firuzun çalğısından həmişə ilham almışam.. Onunla hara getmişiksə, harda çıxış eləmişiksə, onun ifası həmişə tamaşaçıların sürəkli alqışına və böyük sevgisinə səbəb olub. Xarici ölkərdə də bizim tarımızı göylərə qaldırıb, elə çalıb ki, hamı həm onun ifasına, həm də Azərbaycan tarına vurulub... Firuz tar çalarkən məndə yaşamağa, yaratmağa daha da güclü həvəs oyadır, mənə həyatı daha da artıq sevdirir.. Firuz şəxsiyyətcə də çox kamildi.. Nümunə ola biləcək ailə başçısı, vəfalı dost, vətəni, torpağı canından artıq sevən bir adamdır..

Mən Firuz qardaşımı altmış yaşı münasibətilə ürəkdən təbrik eləyirəm, ona dünyada ən şirin nemət olan can sağlığı, uzun-uzun ömür, qayğısız, firavan, xoşbəxt həyat arzulayıram..



**Alim Qasımov**
**Xalq artisti**

Firuzla çox çalıb oxumuşam.. Dəfələrlə cürbəcür xarici ölkələrdə qastrol səfərlərində olmuşuq. Almaniya, Braziliya, Hollandiya, Fransa, hansını deyim? Mən oxuyan zaman impervizə eləməyi sevirəm.. O da hər detalı, hər ştrixi o saniyə tutur. Necə oxuyursansa, elə də çalır.. Sən yaratdıqca, o da yaradır.. Fantaziyası çox güclüdür.. Firuz yanında olanda müşayət sarıdan yüz faiz arxayınçılıq yaranır.. Onun ifasından həmişə zövq almışam.. Elə indinin özündə də əgər televiziya ekranlarında Firuz çalırsa işimi-gücümü atıb ona qulaq asıram və dinləməkdən doymuram.. Axı bu cür möhtəşəm ifadan necə doymaq olar? Bir sözlə məni hər cəhətdən qane edən tarzənlərdən biri də Firuz Əliyevdir.. Qardaş Türkiyədə dahi şairimiz Füzulinin beş yüz illik yübileyi keçirilirdi. O vaxt Türkiyənin prezidenti Süleyman Dəmirəl idi.. O konsert salonunda oturub bizi izləyirdi.. Ulu öndərimiz, ümummilli liderimiz mərhum Heydər Əliyev də orda idi.. Dəmirəlin yanında oturmuşdu.. Hamımızın sevimlisi rəhmətlik Bəxtiyar Vahabzadə də orda idi.. Firuz konsert zamanı tarı o qədər şirin, həzin və ustalıqla ifa elədi ki, Bəxtiyar müəllim onu "Əfsanəvi tarzən" adlandırdı və belə bir ifanı ancaq röyada eşitmək olar dedi.. Hamı bilir ki, Bəxtiyar müəllimin çox həssas bir musiqi duyumu var idi və o hər ifanı, hər musiqiçini bəyənmirdi.. Onun xoşuna gəlmək üçün gərək hökmən qeyri-adi bir yol seçəydin, elə çalıb-oxuyaydın ki, onun şair qəlbinin musiqi tələbatını qane eləyə biləsən.. Amma o Firuzun çalğısını çox bəyənirdi, həm də qiymətləndirirdi.. Mənim fikrimcə sənətkarın ifası Bəxtiyar Vahabzadə kimi dahi bir şairin bu dərəcə xoşuna gəlirsə daha onun sənətinin hansı zirvədə olduğunu söyləmək üçün artıq şərhə ehtiyac yoxdu.. Bir dəfə Hollandiyada "Azərbaycan günləri" keçirilirdi.. Yenə də bizim muğam üçlüyüyün çıxışı yerli tamaşaçıları valeh elədi.. Firuzun çalğısı da onları o qədər valeh elədi ki, onu ayağa qalxıb alqışladılar.. Firuzun çox gözəl yol-yoldaşlığı da var.. Onunla yol-yoldaşı olanda heç bilmirsən vaxt nə zaman ötüb-keçir.. Çox duzlu-məzəli zarafatları var.. Bir dəfə onun yanında dedim ki, indi televizora çıxmaq moddu.. Dedi, yox, indi televizora çıxmaq mod deyil, soyuducuya çıxmaq moddu..

Mən də Firuz qardaşımı altmış yaşı münasibətilə təbrik edir, ona daimi işıq və səadət arzu edirəm...

71, avenue Charles Floquet 93150 Blanc-Mesnil — Centre musical et chorégraphique Érik Satie — École nationale — téléphone (1) 48 65 59 83, télécopie (1) 48 65 01 63

Mardi **8** Mars 1994 à 20h30

Auditorium du Forum Culturel.

# Musique d'AZERBAÏDJAN

## ALIM QASIMOV (chant et daf)

accompagné par :

**Hamidov ISMAÏL** (Kamancha)

et **Firouz ALIEV** (Târ)

Musique et danse au Blanc-Mesnil saison 93-94

**Renseignements réservations :**
Forum Culturel place de la Libération
tel.: 48 14 22 22
Centre musical et chorégraphique Érik Satie
71, avenue Charles Floquet
tel : 48 65 59 83
fax : 48 65 01 63

**Prix des places :** 80 F
tarif réduit : 65 F
tarif abonnés : 60 F

Blanc Mesnil

---

VILLE DU BLANC-MESNIL

ECOLE NATIONALE
DE MUSIQUE ET DE DANSE

"MUSIQUE ET DANSE AU BLANC-MESNIL"

MARDI 8 MARS 1994 à 20h30

Auditorium du Forum Culturel

**Musique d'AZERBAÏDJAN**

**par Alim QASIMOV (chant et daff)**

accompagné par :

Firouz ALIEV (tar)

et Hamidov ISMAIL (kamancha)

**Alim QASIMOV, la musique azerbaïdjanaise et l'art du *mugam*.**

Depuis l'époque où vers le milieu du siècle dernier, le Comte de Gobineau s'extasiait dans la ville de Shamakha sur la beauté d'une danseuse azéri, notre connaissance de cet art musical jusque–là livresque et par ouï dire, s'est vigoureusement étoffée. Cet art a même fait un bond gigantesque ces dernières années dans notre paysage musical. Aujourd'hui non seulement on apprécie de mieux en mieux cet art empreint de passion, de furie, de nostalgie mais on l'admire de plus en plus. On irait jusqu'à dire que la musique savante de l'Azerbaïdjan est à l'heure actuelle l'une des plus prisée du public parisien. Elle risque même de concurrencer le domaine de la musique indienne tant adulée. Du moins chaque concert azéri est l'objet de révélations. Sans doute ceci est dû à la beauté des voix, à la technique toute particulière de l'utilisation d'un procédé de navette entre la voix de tête et la voix de poitrine et ce panachage du chanté–lancé–crié, à l'art consommé des vocalises, à cette quête de griserie, à la virtuosité de ces interprètes qui raniment sous nos yeux le combat de Jacob et de l'ange.

Tout ceci n'aurait sans doute pas fonctionné à merveille si au départ les musiciens azerbaïdjanais qui se produisent régulièrement dans l'Hexagone depuis cette dernière décennie, ne s'étaient fait représenter par leurs meilleurs fleurons de ce pays montagneux accroché aux flancs de la mer Caspienne. Et parmi ces interprètes valeureux se détache un nom : c'est la vedette Alim Qasimov. Chacune de ses manifestations parisiennes soulève un enthousiasme délirant.

Qasimov est né en 1957, dans cette ville même de Shamakha où le siècle dernier le Comte de Gobineau avait tant été bouleversé par sa musique et sa danse. Qasimov perdure donc cet héritage que l'on croyait irrémédiablement égaré celui d'une musique qui se perpétue et dont on pouvait penser que seul Gobineau en avait été l'unique témoin. Qasimov est l'une des plus fortes personnalités révélées ces dernières années dans le domaine de la musique traditionnelle toujours fertile en surprises. Son seul nom fait dresser l'oreille et déplacer des foules. On sait pour sûr qu'un concert de Qasimov sera un évènement. Il faut le voir conduire le chant, s'emporter, malmener le tambourin qui lui sert de guide, le frotter avec amour, ou le cogner avec rage sur le chassis en faisant grésiller ses anneaux entrelacés, puis clamer son désespoir. Au moment où tout semble définitivement perdu, le voilà qui repart dans une course pleine d'entrain et de joie, il aborde la dernière ligne droite dans un mouvement qui aspire à la danse et franchit la ligne d'arrivée en grand vainqueur avec ses deux compères accompagnateurs.

Car un concert de musique savante azéri se règle en présence de trois protagonistes. D'abord le chanteur soliste, maître de la soirée. Tout tourne autour de lui. Il exposera dans son chant les poèmes qui parlent souvent d'amours malheureuses, de hauts faits historiques ou de thèmes religieux. Il peut, par ailleurs, les combiner à sa guise. Puis viennent les deux autres comparses instrumentistes de leur métier. A eux sont dévolus les instruments à cordes. Le premier est le luth à long manche, il porte le nom de *târ*, le second est une vielle à cordes frottées et à pique qui épouse la forme sphérique *kamancha*. Ces deux comparses accompagnent le chanteur, débroussaillent le terrain, le balisent, le suivent et le referment, mais ils s'effacent toujours devant le soliste. [Le timbre des deux instruments qui s'enchevêtrent et qui donnent le sentiment d'une perpétuelle hétérophone est là pour esquisser une sorte d'ombre à la voix. Celle–ci s'y prolonge.] Tout se passe comme si dans ces deux instruments, il y avait une sorte d'écho du chanté et son aboutissement suprême. Qui plus est et afin de permettre au soliste de pouvoir se reposer, car l'effort requis est exténuant, les instrumentistes passent à l'attaque et montent au créneau au moyen d'improvisations individuelles ou de duos aussi haletants que passionnés. Celles–ci arrivent toujours dans une sorte de climat lorsque le chant a soulevé une question, et qu'on se trouve accroché à la réponse, bien qu'on ne comprennent point la langue, mais la persuasion musicale l'emporte. Les deux instrumentistes sont là pour dévier l'attention, faire durer l'attente, et ce plaisir nouveau devient véritable supplice pour le public. Ou alors ils agissent afin de réfréner l'ardeur. Ils font donc une diversion. Ou encore ils nous font davantage pénétrer dans les méandres de cette esthétique en nous obligeant à différents détours qui deviennent une véritable initiation.

La musique azéri est une musique savante. Elle se transmet de maître à disciple par voie d'oralité et par le truchement d'un code qui doit être respecté. Cette musique puise son originalité dans ce qu'elle a réussi une synthèse harmonieuse entre des éléments venus de la Perse et ceux apportés par les Turcs : nostalgie et dynamisme. La langue azéri fait néanmoins partie du grand rameau des langues turques. Comme toutes les musiques du Proche–Orient, elle fonde une unité qui cimente l'interprétation : c'est la notion de modalité véhiculant l'éthos c'est–à–dire, l'expression, dont la dimension est capitale dans cet univers. La mise en forme de la modalité porte le nom *mugam* ou de *muquam*, terme arabe qui à l'origine voulait dire le lieu où se plaçait le musicien pour jouer sa partie. Dans l'univers de la modalité, il s'agit d'amener un mode à exprimer la quintessence de son secret, à littéralement exploser, en le traitant comme un individu : c'est–à–dire en le rassasiant. Ceci est rendu possible dans le discours musical, d'une part par l'improvisation, de l'autre par une série de pièces qui s'enchaîrient et qui généralement alternent section libres à d'autres mesurées. On est pas loin de l'esprit rhapsodique tel qu'on peut l'observer dans la musique occidentale.

Il va s'en dire que le déroulement d'un *muquam* donne naissance à la perception d'une suite qui peut s'avérer être vocale ou instrumentale, longue ou courte. Chacune de ces suites porte le nom du mode qui la sous–tend et qui en Azerbaïdjan s'appelle *bayâti shiraz, rast, chahargah, segah mahûr, etc.* De plus, ces suites peuvent commencer par une introduction mesurée, dénommée *daramad*, sorte d'appel à la délimitation du terrain où va se jouer le drame, car cette musique est foncièrement dramatique, mais où, O stupeur, les coups de théâtre sont fréquents, puisqu'au moment le plus inattendu, un rayon de soleil revient et balaie l'inquiétude. Il s'exprime au moyen d'une pièce dénommée *tasnif* ou *reng* d'obédience populaire et qui peut appartenir au domaine du dansé.

Comme pour toutes les musiques du Proche–Orient, l'art musical savant azerbaïdjanais est monodique. Néanmoins, il se passe comme si un télescope dû à la virtuosité des interprètes, faisait se chevaucher les notes de musique créant ainsi un tissage serré qui n'est pas sans évoquer l'art du tapis. Ne l'oublions pas, l'Azerbaïdjan est aussi connu pour la spendeur de ses tapis. Les contempler suscite l'ineffable, comme pour sa musique.

Christian POCHE, Ethnomusicologue

Şamil Əliabbas oğlu Səmədzadə.. AZTu-nun “Sənaye iqtisadiyyatı və menecment” kafedrasının müdiri, i.e.d.,prof.,Azərbaycan Dövlət Mükafatı Laueratı..

Xatirimdədir, keçən əsrin 60-cı illərinin ortalarında Azərbaycan qəzetlərinin birində (qəzetin adı və tarixi yadımdan çıxıb) Azərbaycanın məhşur bəstəkarı Fikrət Əmirov haqqında bir məqalə çap olumuşdu.. Məqalədə bəstəkarın “Azərbaycan Kapriçiyosu”na xeyli yer ayrılmışdı. Bu əsər Londonun konsert salonlarının birində ifa edildikdən sonra milliyətcə ingilis olan musiqi tənqidçisi əsəri yüksək qiymətləndirərək, Azərbaycan təbiətinin füsukarlığından, çəmənlərinin gözəlliyindən, çaylarının və bulaqlarının şırıltısından, insanlarının mülayimliyindən, məğrurluğundan danışırdı.. Çıxışdan məmmun olan bəstəkar tənqidçiyə belə bir sual verdi:-Siz Azərbaycanda olmusuz?

TƏNQİDÇİ-Yox..

BƏSTƏKAR-Bəs bunları hardan bilirsiz?

TƏNQİDÇİ-Məgər sizin musiqiniz bütün bunları demir?

Yuxarıda deyilənləri Firuzun ifasına da şamil etmək olar.. Firuzun ifası Xəzərin ləpələrini, “Tut ağacının” yarpaqlarının həzin pıçıltısını, Buzovna qayalarının ətrafında toplanmış qızıl qum dalğalarının (təəsüf ki, indi yoxdur) xışıltısını yadıma salır.. Firuz olduqca mülayim təbiətlidir, tarı da öz təbiətinə uyğun ifa eləyir.. O, həssas barmağlarlı ilə tarın pərdələrində gəzişərkən olduqca böyük ustalıqla pianodan fortoya keçir, melodiya coşur, tüğyan edir, sonra yenə qeyri-adi bir peşəkarlıqla öz zümzüməsinə qayıdır.. Hind filmlərinin birində “Badju Babra” filmində deyilir:-“Sirrini musiqiyə vermə, musiqi sirr saxlamaz”. Firuz öz istedadı və bacarığı, həssas ürəyi və barmaqları ilə musiqimizin-muğam və mahnılarımızın sirrini xırdalıqlarla, təkcə Azərbaycanın deyil, dünyanın musiqi-xüsusən muğam sevənlərinə çatdırır..

Mən Firuzu yubileyi münasibəti ilə təbrik edir, ona və ailəsinə can sağlığı, xoşbəxtlik, eyni zamanda daha böyük uğurlar arzullayıram..

**Novruz Aydəmirov**
**Tarzən və pedaqoq**

Mən Firuza beş il Maştağadakı musiqi məktəbində, bir il də konservatoriyada dərs demişəm.. Ona tarı tutmağı, tarla rəftar eləməyi mən öyrətmişəm.. O musiqi məktəbinin birinci sinifində oxuyanda cımisi on bir yaşı vardı. Arıq, çəlimsiz, sısqa bir uşaq idi.. Amma çox həvəskar idi.. Vaxtından qabaq çox şeyləri öyrənmək istəyirdi.. Bəzən buna nail olurdu da.. Çox zehinli, tez qavrayan və çalışqan idi.. Onunla dərs keçmək zövq verirdi.. Çünki nə göstərirdin, demək olar ki, o dəqiqə götürürdü.. Artıq üçüncü sinifdə yaşına uyğun olmayan əsərlər çalırdı.. Mən hiss eləyirdim, bilirdim ki, o çox mahir bir ifaçı olacaq.. Ona görə də ona həvəslə öyrədirdim.. İllər keçdi, Firuz tanınmağa, sevilməyə başladı.. Hər dəfə onu məhşur xanəndələrlə birlikdə televiziya ekranlarında görəndə ürəyim dağa dönürdü.. Çox fərəhlənirdim, hətta gözlərim yaşarırdı.. Həm ona görə çox sevinirdim ki, o ilk növbədə mənim yetişdirməmdi, həm də ona görə qurur hissi keçirirdim ki, Firuz zaman-zaman misilsiz bir tarzənə çevrilirdi.. Onun sorağı xarici ölkələrdən gələndə isə sevincimin həddi-hududu olmurdu.. İndi də belədir.. Bu gün Firuz bizim tar sənətinin şahıdır.. Əgər əlimdə imkanım olsaydı onun başına buna görə tac qoyardım.. Bu çalğı, bu ifa fövqəladə bir şeydir.. Tarı bu cür gözəl ifa eləmək bəlkə də insan imkanından xaricdədir.. Amma Uca Yaradan Firuza elə bir fitri istedad verib ki, onun çalğısı daim mənim fikrimin, hissimin, duyğularımın fövqündə dayanır.. İndi xəstəyəm, yatağdayam, canım ağrayır, iynəylə, dərmanla yaşayıram.. Amma yenə də Firuzun ifasını eşidəndə ifa bitənəcən xəstəliyim, ağrılarım, əzablarım yaddan çıxır.. Mən Firuzla fəxr edirəm, qurur duyuram.. Açığı artıq onun altmış yaşa çatmasına da nəsə heç inanmağım gəlmir..

Mən onu altmış illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik eləyir, ona ailə səadəti, uzun ömür, ən şirin nemət olan can sağlığı, həyatda və sənətdə yeni-yeni naliyyətlər arzulayıram..

**Nazim Kazımov**
**A. Zeynallı adına Bakı musiqi kollecinin direktoru, əməkdar incəsənət xadimi**

Mən Firuzu artıq otuz beş ilə yaxındır ki, tanıyıram.. Biz onunla birlikdə mənim indi müdir olduğum A.Zeynallı adına musiqi tədrisi ocağında təhsil almışıq.. Etiraf eləməliyəm ki, Firuz elə o vaxtdan həm xasiyyəti ilə, həm çalışqanlığı ilə, həm də öz yaşına qətiyyən uyğun gəlməyən çalğısıyla hamıdan seçilirdi.. O vaxt biz hələ demək olar ki, yeniyetmə idik.. Bəzən bir-biriylə mübahisə eləyir, az qala dalaşırdıq da.. Firuzun isə heç vaxt, heç kimlə sözü çəp gəlmirdi.. Çox qəribə də olsa, o hətta ipə-sapa yatmayan, şıltaq tələbələrlə də çox mehriban idi.. Onlar da ona xüsusi hörmət göstərir, onunla aralarında pərdə saxlayır, daha doğrusu onu görəndə şıltağlıqlarını, ərköyünlüklərini yerə qoyub, sakit, təmkinli, ciddi adama çevrilirdilər.. Bunun isə bir səbəbi vardı.. Firuz öz ciddiliyi, çalışqanlığı, ədəb-ərkanı, qəliqə-səhmanı və nizam-intizamı ilə onları tərbiyə edirdi.. O, heç vaxt kimsənin xətrinə dəymir, kimsəni acılamırdı.. Heç kimə də yersiz öyüd-nəsihət vermirdi.. Elə buna görə də hamı onun xətrini çox istəyir, hörmətini saxlayırdı.. Bundan əlavə tar müəllimləri Əlikram Hüseynov, Ceyran Haşımova da ona xüsusi hüsn-rəğbət bəsləyirdilər..

İllər keçdi.. Firuzun iç dünyasında olan yüksək mənəvi keyfiyyətlər özünü biruzə verdi.. Firuz həm mahir bir sənətkar kimi, həm də nəcib sifətlərə malik olan bir insan kimi xalqın sevimlisinə çevrildi..

Artıq vətənimizdə çox az adam tapılar ki, onun ifasından yüksək zövq almasın, onu dinlədikcə dinləmək istəməsin..

Firuz artıq öz adını qızıl hərflərlə Azərbaycan musiqi tarixinə yazmışdır..

Mən Firuz qardaşımı altmış yaşı münasibətilə səmimi qəlbdən təbrik edir, ona ailə səadəti, dünyada ən şirin nemət olan cansağlığı və naliyyətlər arzulayıram..

**Vaqif Əbdülqasımov**
**Professor, əməkdar incəsənət xadimi**

Hal-hazırda müasir tarzənlər içərisində öz dəsti-xətti ilə seçilən xalq artisti, dossent Firuz Əliyevin də öz yeri var.. Musiqi mədəniyyətimizin, xüsusilə milli instrumental ifaçılığın inkişaf etdirilməsində əməyi olan sənətkarlardan biri də odur.. Onun bir tarzən kimi muğamlarımızın təfsirində və xanəndələrimizin müşayətindəki fəaliyyəti xüsusilə daha çox əhəmiyyət daşıyır.. Bununla yanaşı o, müəllimlik sahəsində də gözəçarpacaq dərəcədə özünü göstərə bilmişdir..

Mən 1970-1975-ci illərdə Azərbaycan Dövlət konservatoriyasında Firuz Əliyevin tar ixtisas fənni üzrə müəllimi olmuşam.. Onu etiraf eləməliyəm ki, ilk illərdə bu "utancaq oğlan" öz ifa tərzi ilə öz tələbə yoldaşlarından seşilirdi.. Xüsusilə Azərbaycan bəstəkarlarının tar üçün yazılmış konsert, sonatina və digər orijinal əsərlərin ifasında onun özünəməxsus interpretasiya ifa üslubu həmişə seçilirdi və maraqla qarşılanırdı.. Bu ondan irəli gəlirdi ki, o tarın ifa xüsusiyyətlərini gözəl bilir və onu öz daxili aləmi ilə tarazlaşdırmağı heyrətamiz dərəcədə bacarırdı.. Bir hadisəni yada salmaq istərdim.. 1970-ci ildə buraxılış imtəhanı zamanı bəstəkar, xalq artisti, professor Süleyman Ələsgərovun yazdığı "Tar ilə xalq çalğı alətləri orkestri" üçün I saylı konsertinin ifası müəllifin çox marağına səbəb olmuşdu.. Hətta mənim yadımdadır ki, Firuzun ifasında səsləndirilən bi konserti dinləyən Süleyman müəllim dedi ki, "baxmayaraq ki, bu əsəri digər tarzənlər də çalıblar, ancaq sən bunu onların hamısından yaxşı ifa edirsən.. Gəl bu əsəri mənim sdirijorluğumla lentə yazaq". Lakin təəsüflə qeyd etmək istəyirəm ki, Firuz Süleyman müəllimin bu təklifini yerinə yetirmədi..

İllər ötəndən sonra Firuzun ifası radio və televiziya ekranlarında özünü göstərməyə başladı. Onun istər instrumental-muğam, istərsə də xanəndələri müşayətindəki ifaçılığına nəzər yetirəndə həmişə bir şeyə təəcüblənirəm ki, axı bu tarzən notlu əsərlərin mahir ifaçısı idi, necə oldu ki, ancaq sırf muğam ifaçısı oldu.. Onu da deyim ki, Firuz oxuduğu dövrdə Konsevatoriyada instrumental muğam fənni keçirilmirdi.. Mən bu barədə onun özü ilə də dəfələrlə söhbət etmişdim.. Lakin faydası olmadı.. Çox arzu edərdim ki, o tarda muğamla bərabər notlu əsərlər də ifa eləsin..

Qeyd etdiyimiz kimi xalq artisti Firuz Əliyevin muğam ifaçılığında özünəməxsus dəsti-xətti olan bir üslubu vardır. Buna görə də onun muğam interpretasiyası heç bir tarzənin ifasına bənzəmir.. Muğam çalğısında həmişə yeni xallar, barmaq gəzişmələri, melodik intonasiyalar və s.. kimi maraqlı və təzadlı işləmələr movcuddur.. Onu da qeyd eləyim ki, bu tarzən əvvəlcədən ölçülüb-biçilmiş muğam çalmır.. Çalacağı muğamı daxili hissiyatdan irəli gələn barmaq və mizrablarla təfsir edir..

Firuz Əliyev muğam müşayətçisi kimi də tanınır.. Xüsusilə onun xalq artisti, şöhrət ordenli görkəmli xanəndə Ağaxan Abdullayevlə uzunmüddətli birgə işi daim çox maraqla qarşılanır.. Onu da qeyd eləyim ki, Ağaxan Abdullayevin muğam oxuma sənətindəki yeni nəfəsləri, modulyasiyalı deyimləri, böyük ustalıq tələb edən gedişləri və bu kimi maraqlı ifa xüsusiyyətləri Firuz Əliyevin tar muğam ifaçılığına məncə öz təsirini göstərmişdir..

Firuz Əliyevin müəllimlik fəaliyyəti də yaradıcılığında böyük rol oynamışdır.. Koservatoriyanın dossenti olmaqla instrumental muğam fənni üzrə dərs aparır.. Yetişdirdiyi tarzənlər müxtəlif müsabiqə və festivallarda, ansambl və orkestr kollektivlərində geniş fəaliyyət göstərir..

Firuzun bu yaxınlarda anadan olmasının 60 ili tamam olur.. Ustad sənətkar bu yaşına baxmayaraq hələ də özünü gümrah, cavan hiss edir.. Onun irəlidə hələ görəcək işləri çoxdur.. Mən bu münasibətlə onu təbrik edir, yaradıcılıq müvəffəqiyyətləri arzulayıram...

***

**Razi Şükürov**
**Respublikanın xalq artisti**

Mən ancaq o musiqiçiləri sevirəm ki, onun ürəyi olsun.. Çalanda oxuyanda ürəklə çalsın, ürəklə oxusun.. Dinləyicilərin zövqünü oxşaya bilsin, onları düşündürə bilsin, onların ruhuna sözün əsl mənsanda qida verə bilsin.. Yoxsa elə quru-quru çalmaq-oxumaq kimin nəyinə lazımdı? Vahid demişkən, musiqi qəm dağıtmaq, zövq vermək üçündü, insanların əsəbləriylə oynamaqdan ötrü deyil.. Bu baxımdan Firuz olduqca böyük zövq verən bir musiqiçidi.. Firuzun çalğısı insanın daxili aləmini,

könlünü-gözünü işıqlandırır.. Mən Firuzla çox çalıb oxumuşam, çox yollar getmişəm.. O mənim yanımda olanda mən çox arxayın olmuşam, hətta arxayın olmaqdan başqa bilmişəm ki, o öz eyibsiz, ləkəsiz, pak, təmiz və həddindən artıq şirin, həzin çalğısıyla məni daha da həvəsə gətirəcək, oxuduğum musiqilər daha da öz effektini artıracaq, daha əlvan, daha parlaq, daha zəngin görünəcək..

Firuz çox böyük bir sənətkar olmaqla yanaşı, gözəl dost və mərd bir yoldaşdı.. Bilmirəm yerinə düşər ya düşməz, Firuzda elə bir xasiyyət var ki, bu musiqiçilərin əksəriyyətində yoxdu.. O hər bir cəhətdən müsbət bir adamdı.. Mən bildiyim qədər onun heç bir mənfi xüsusiyyəti yoxdu.. İnsanlığı da ifası kimi kamildi..

Mən dostum Firuzu altmış illik yubileyi münasibətilə təbrik eləyirəm, ona möhkəm can sağlığı, uzun ömür, ailəsi, balaları, nəvələri ilə bitrlikdə daimi səadət, işıq, nur, ruzi-bərəkət və dayandığı zirvədən heç vaxt düşməməyi arzulayıram..

***

**Sabir Əliyev**
**Opera-balet teatırının solisti, respublikanın əməkdar artisti**

Vüqar müəllim, gəl bir anlığa həm bəstələri həm də sözləri sənə aid olan “Söz” və “Vahidim” mahnılarını və Firuzun hər iki mahnıda möhtəşəm ifasını yadımıza salaq.. Açığı belə bir ifanı tez-tez yuxumda eşidirdim.. Deməli bəzən royalar həqiqətən də gerçəyə çevrilirmiş.. Şəxsən mən Firuzun ifasını dinləyəndə tərki-dünya oluram.. Elə bil bu maddi aləmdən çıxıb, başqa bir aləmə, ancaq gözəlliklərdən ibarət, əsrarəngiz bir aləmə düşürəm.. Heç o aləmdən geri dönmək istəmirəm.. O elə bir aləmdəki, orda nə yemək istəyirsən, nə içmək istəyirsən, nə əsəbləşirsən, nə haqsızlıqlarla üzləşirsən, nə sənətə soxulmuş əbləhlərin sırtıq sifətini görürsən.. Burda ancaq ülvi eşq, paklıq, saflıq, ecazkarlıq var.. Bu aləmə məni Firuz aparır.. Öz ağacdan düzəldilmiş çəkisi iki, üç kiloqramdan artıq olmayan tarının vasitəsilə.. Gərək nə qədər fitri istedad olasan ki, bu cür xarüqələr yaradasan.. Firuzun sənəti o qədər böyükdür ki, bunu

təsvir eləmək üçün gərək ya Füzuli olasan, ya da elə yenə Füzuli olasan..

Vüqar müəllim, 2008-ci ilddə yanvarın 27-də Dünya Azərbaycanlılarının Konqresi Rusiya Nümayəndiliyi Ostankino Tele-Kral sarayında sənin yaradıcılıq gecən keçiriləndə Firuzun necə fəğan eləməsini və o çaldıqca bütün saraydakıların ona nə qədər heyranlıqla qulaq asmalarını mən heç vaxt unutmaram.. Bu həm sənin yaradıcılıq gecən idi, həm də böyük bir bayram idi.. Bu Azərbaycan poeziyasının, Azərbaycan elminin, Azərbaycan musiqisinin çox möhtəşəm bir bayramı idi.. Bu bayramın səbəbkarı sən idin.. Sənin poeziyan, elm aləmində göstərdiyin naliyyətlər, musiqi sahəsində gördüyün olduqca müqəddəs işlər idi.. Fəqət bu bayramı ziynətləndirəndən biri də öz çalğısı ilə inanılmaz dərəcədə könülləri oxşamağı bacaran Firuz Əliyev idi..

Mən bu virtouz sənətkarı altmış illik yubileyi münasibətilə ürəkdən təbrik eləyirəm, ona dünyüda olan ən yaxşı şeyləri arzulayıram...

***

**Ağasəlim Abdullayev**
**Respublikanın xalq artisti, tarzən**

Səmimiyyətlə etiraf eləmək istəyirəm ki, dostum, qardaşım və sənəti ilə məni çox qane eləyən Firuz Əliyev haqqında söz demək üçün çox həyəcan keçirirəm.. Artıq uzun illərdir ki, Firuz qardaşımın tar sənətinin inkişafı üçün çox böyük xidmətləri vardır.. Əgər poetik ifadə ilə desək Firuz ətri insanları yaxşı mənada bihuş eləyən saysız-hesabsız qızılgüllər yetişdirən elə bir bağbandır ki, bu qızılgüllərin ətrindən hər bir kəs böyük zövq alır.. Açığını desəm mən Firuz haqqında söz deməyə çətinlik çəkirəm.. Çünki gözəl ifadələr işlətməyə o qədər də səriştəm yoxdu.. Firuz sənətə bütün varlığını verən sənətkarlardandı.. O sənəti müqəddəs bilir.. Onda istedad və zəhmətin vəhdəti öz ifadəsini tapıb.. O tarı ifa edərkən münasib formanı tapır, sonra onu musiqi dili ilə ifa eləyir.. Onun ifası heç kimin ifasına bənzəmir.. Bu isə sənətdə çox gözəl bir şeydi.. Firuz bizim tar sənətimizi yüksəkliklərə qaldıran sənətkarlardandı.. Biz sənətkarlar Firuzun və onun kimilərin qədrini bilməliyik.. Firuzun sənətdə gördüyü hər bir iş “beş” qiymətə layiqdi.. İnsan kimi isə

o pərəstiş ediləcək qədər gözəl bir insandı.. Mənim ona çox böyük hüsn-rəğbətim var..

Mən çox şadam ki, Firuzun əkiz oğlanlarından biri Əli, Asəf Zeynallı adına konservatoriyada mənim sinifimdə oxuyur, daha doğrusu mən ona tardan dərs deyirəm..

Mən inanıram ki, Əli atasının yolunu ləyaqətlə davam etdirəcək və bizim tar sənəmizi layiqincəsinə yaşadacaqdır.. Mən Firuz qardaşımı 60 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona ailə səadəti, uzun ömür, can sağlığı və yeni-yeni naliyyətlər arzu edirəm....

***

**Mirnazim Əsədullayev**
**Respublikanın əməkdar artisti**

Firuz mənim uşaqlıq dostumdu.. Sənətə də demək olar ki, bir yerdə başlamışıq.. Bir yerdə öyrənmişik, bir yerdə çalmışıq, bir yerdə hazırlaşmışıq, məşq eləmişik.. Fikrimiz-zikrimiz öyrənmək, öyrənmək, yenə də öyrənmək olub.. Şübhəsiz ki, gecə-gündüz çalışmaq, zəhmət çəkmək öz bəhrəsini verib.. Xalq tərəfindən qiymətləndirilən, sevilən sənətkarlara çevrilmişik..

Deyirlər xalqın gözü tərəzidi.. Xalq yaxşıyla-pisi, ağla-qaranı çox yaxşı seçib ayırır.. Mən uzun illərdir Firuzla bir yerdə xarici ölkələrə qastrol səfərlərinə, Azərbaycanın cürbəcür bölgələrinə konsertlər verməyə, tədbirlərdə iştirak eləməyə, el şənliklərinə, toy mərasimlərinə gedirəm.. Onun ifasının hər yerdə nə qədər bəyənildiyinin, sevildiyinin, qiymətləndirildiyinin saysız-hesabsız dəfə şahidi olmuşam.. Vüqar müəllim, bir neçə il bundan qabaq Moskvada Dünya Azərbaycanlılarının konqrensi Rusiya nümayəndiliyi Ostankino Tele-Kral sarayında sizin yaradıcılıq gecəniz keçiriləndə Firuzun mən deyərdim sehli ifasının qarşısında məclis iştirakçılarının yaxşı mənada necə diz çökdüyünü mən ömrü boyu unuda bilmərəm.. O zaman məclisin şahı siz idiz.. Firuz isə necə deyərlər şahın başındakı taca bəzək vuran mahir bir zərgər idi..

Bəli, Firuz həqiqətən də öz sənətinin zərgəridir.. O musiqiyə, muğama daim heyrətramiz bəzəklər, naxışlar vurur.. Onun naxış vuran baqajı isə ölçüsüzdür.. O bir gün içərisində yüz dəfə “Şur” çalsa, “Şur”a hər dəfə bir-birinə oxşamayan, lakin bir-birindən gözəl saysız-hesabsız naxışlar vuracaq..

Mən böyük məmmuniyyətlə bildirirəm ki, Firuz mənim həm sənətdə, həm də həyatda ən yaxın dostumdur.. Onun oğlu Abbasa da A.Zeynallı adına musiqi kollecində kamançadan mən dərs keçirəm.. Biz həm də Firuzla ailəvi dostuq..

Mən Firuz qardaşımı altmış illik yubileyi münasibətilə qəlbicandan təbrik edir, ona dünyada ən şirin nemət olan cansağlığı, uzun ömür, ailə səadəti, daim xalqın sevimli sənətkarı olmağı, dostluğdan heş vaxt əskik olmamağı və müvəffəqiyyətlər arzu edirəm..

***

**Arif Əsədullayev**
**Ü. Hacıbəyov adına Bakı musiqi akademiyasının professoru.. Sənətşünaslıq namizədi..**

Biz bir məhəllədə boya-başa çatmışıq.. Alilələrimiz də çox yaxın olub.. Boş vaxtlarımızı həmişə birlikdə keçirərdik.. Mən, Firuz, Qüdrətəli, Yusif və Yaşar.. Çox vaxt Firuz gilin evində toplaşardıq.. Gecə yarısına kimi çalardıq.. Firuz çox vaxt tarı sinəsinə basıb uzanan yerdə çalardı.. Əliabbas əmi, Balacaxanım xala, Firuzun bacı və qardaşları bizim üçün hər cürə şərait yaradardılar ki, biz ancaq musiqi ilə məşğul olaq.. Beləliklə bizim gələcəkdə bir musiqiçi kimi yetişməyimizdə bu ocağın da böyük bir rolu olmuşdur..

İlk musiqi təhsilimizi Maştağadakı 10 saylı musiqi məktəbində almışıq.. Sonra Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinə daxil olduq.. Nəhayət 1970-ci ildə Ü, Hacıbəyov adına Azərbaycan Dövlət konservatoriyasına daxil olduq, 1975-ci ildə oranı bitirdik.. Bu illər ərzində günlərimiz daima birlikdə keçib..

Firuz Əiiyev.. Bu ad indi demək olar ki, bütün muğamsevərlərə tanışdır.. Muğam ifaçılığında özünəməxsus ifa tərzi, musiqi duyumu ilə seçilən tar ifaçılarımız çox olub.. Bunlarda misal olaraq Mirzə Sadıq Əsəd oğlu, Mirzə Fərəc Rzayev, Qurban Pirimov, Mirzə Mənsur Mənsurov, Əhmədxan Bakıxanov, Bəhram Mənsurov, Hacı Məmmədov, Əhsən Dadaşov, Həbib Bayramov, Sərvər İbrahimimov, Məmmədağa Muradov, Əliağa Quliyev, Zərif Qayıbov, Kamil Əhmədov, Ramiz Quliyev və başqalarını göstərmək olar..

Adları qeyd olunan tar ifaçıları heç vaxt bir-birini təkrarlamayıblar.. Hər ifaçının orijinal üslübü, öz dəsti-xətti olub.. Firuz da öz sələflərinin ifaçılığını təkrarlamağa heç vaxt səy göstərməyib.. Əksinə bu gün ki, tar ifaçılarının bir qismi onu yamsılamağa çalışırlar..

Firuz olduqca işgüzar, sənətinə məsuliyyətlə yanaşan, özünə qarşı çox tələbkar bir insandır.. Eyni zamanda sənət dostlarının naliyyətlərinə sevinməyi, kədərinə şərik olmağı bacaran insandır.. O, sənətə, elmə, mədəniyyətə, isdedada düzgün qiymət verə bilən, vətənini, xalqını, torpağını sözün əsl mənasında ürəkdən sevən bir olduqca vətənpərvər bir sənətkardır.. Kamillik dövrünü yaşayan Firuz qardaşıma uzun ömür, möhkəm can sağlığı, yeni-yeni uğurlar və bol-bol ailə sevincləri arzulayıram...

***

**Arif Buzovnalı**
**Şair**

FİRUZUN TARI...

Könül, duyğuların dənizindəyəm,
Şirin xatirələr açıb yelkənim,
Sevincə aparan qəm izindəyəm,
Tufanlardan keçir yolların sənin.
Qəlbimi titrədən hər dalğa səsi
Bir həsrət nəğməsi, hicran nəğməsi,
Bu yerdə dadıma çataydı barı,
Firuzun tarı...

Vüsal müjdəsindən dolaydı gözüm,
Səhər şəbnəm içən çiçəklər kimi,
Sahibin tapmaqçun sevdalı sözüm
Gəzəydi dünyanı küləklər kimi.
Gözümdə canlanan hər rəngli şəkil
Sözümə çatınca özür elə bil
Dilənsin, qaytarsın gedən baharı,
Firuzun tarı..

Hər insan şəfqətə, qayğıya möhtac,
Bəzən bir söz də edir kifayət,
Aşiqlər kimsədən istəməz əlac,
Bir azca etina, bir azca diqqət..

Yaxşılıq etməmək deyilmi asan,
Yamanlıq eyləyib qəlb sındırmaqdan?
Anlar könlümdəki bu dərd-qubarı,
Firuzun tarı..

Tarzən, bir az da Segahda gəziş,
Bitsin şikayətim, giley-güzarım.
Ürək anlatmağın yeri deyilmiş
Saxta baxışlara yox etibarım..
Ey segah, mən susdum, sən danış indi,
Göz yaşı mənimdi, gözlər sənindi,
Bu həzin anlara çəksin tumarı,
Firuzun tarı...

Mən də Firuz müəllimi altmış yaşı münasibətilə cani-dildən təbrik eləyir, ona Allahdan bütün arzularına yetməyi arzulayıram...

***

**Rüstəm Rüstəmov**
**Tibb elmləi doktoru, professor**

Mənim Firuz müəllimlə tanışlığım XX əsrin 80-cı illərinə təsadüf edir.. İlk dəfə bir toy məclisində onun tarda ifasını dinlədikdə istər-istəməz məndə bu yanığlı səsin müəllifi ilə tanış olmaq arzusu yarandı.. Toy məclisinin lap qızğın çağı idi.. Uca boylu, ağ saçlı, yaşlı bir kişi ayağa qalxıb qarşısındakı adamları sınayırmış kimi bir-bir nəzərdən keçirdi və mikrafona yaxınlaşdı. Salonda bir anlığa sakitlik yarandı.. Mənimlə yanaşı əyləşmiş adamlar;-"Bu adam buzovnalı professor Şamil Səmədzadədir, indi o Firizin ifasından danışacaq",-dedilər.. Həqiqətən də belə oldu o Firuzun sənətindən söz açdı və onun dedikləri indiki kimi yadımdadır; "Firuzun tarının səsi, qeybdən gələn səsə bənzəyir.. Bu səsi dinlədikdə insan uşaqlıqda eşitdiyi ana laylasını, gəncliyində ilk sevgisini xatırlayır.. Musiqini insanlar icad etmişlər.. Axan suyun şırıltısı, quşların nəğməsi təbiətin səsidir.. Küləyin tərpətdiyi yarpağların xışıltısı fonunda quşların, heyvanların çıxardığı səslər ilk musiqi notlarına bənzəyir.. Diqqətlə fikir versəz görərsiz ki, bunlar da müəyyən intervalla təkrar olunur, sonra isə mürəkkəbləşərək melodiyaya çevrilir. Musiqinin təsiri sözün, nitqin təsirindən daha güclüdür.. Hər şey musiqinin daxilindəki səslə əlaqəlidir"... Nə qədər gözəl danışırdı Şamil müəllim.. O sözün əsl mənasında musiqinin fəlsəfi şərhini verirdi.. Onu belə

danışdıran isə şübhəsiz ki, Firuzun möcüzəli ifası isi.. Sonralar tale elə gətirdi ki, mənim Şamil müəllimlə, həm də Firuzla münasibətim qırılmaz tellərlə bağlanıb, dostluğa çevrildi.. Məlumdur ki, Azərbaycanda fərdiliyi, özünəməxsusluğu, ifa şirinliyi ilə seçilən və sənət zirvəsinə qalxan tarzənlər az olmamışdır, elə indi də var.. Əgər bunların hamısını ümumi anlaşma vasitəsilə, müəyyən meyarlarla cərgəyə düzmək mümkün olsaydı, şübhəsiz ki, Firuz öndə gedənlərdən biri olardı. Onun tarda ifa etdiyi muğam və ya xalq mahnılarının, təsniflərin, bəstəkar mahnılarının, rənglərin, dəramədlərin ecazkar təbiəti, xalların özünəməxsusluğu, onun hiss və duyğularının, ilhamının təzahürüdü. Firuz tarın bitib-tükənməz xəzinəsiinin təbii çalarlarını öz duyğularında yaşadaraq, olduqca orijinal ifa tərzi yarada bilmişdir.. Hər hansı bir musiqi alətində müəyyən musiqi parçasını ifa edərkən, klassik ifa tərzindən fərqli və fərdi xalların yaranması, şübhəsiz ki, sənətkarın ifaçılıq dərəcəsindən başqa onun bu sənəti nə dərəcə bilməsindən, zövq və dünyagörüşündən asılıdır. Firuzun ifası elə fərdiləşmişdir ki, onu birbaşa seyr etmədən də, yüzlərlə ifasından seçmək mümkündür. Çünki bu bədii icad səviyyəsinə yüksəlmiş ifa tərzidir. Bəlkə də tarda bu ifanı müəyyən qəlibə salaraq işlətmək, təkrar etmək mümkün olar.. Lakin bu qəm naləsini, kədər gülşənini, sarı simin fəryadını təkrar etmək mümkün deyil.. Bir məsələyə də toxunmağı vacib sayıram.. Firuz xalqın içindən çıxmış sənətkardır.. O ğözünü yalnız səhnədə deyil, məişətdə də, ictimai yerlərdə də musiqi mədəniyyətimizin daşıyıcısı kimi aparır. Sadəlik, təbiilik, ünsiyyətdə olduğu hər bir adama hörmət və diqqət onun çoxsaylı yüksək keyfiyyətlərindəndir. O, ətraf aləmə gözəllikə ülviyyət və nəciblik yayan bir şəxsiyyətdir.. Daima təmkinli, nizam-intizamlı və gülərüzdür.. O, evdə də, öz ailəsində də belədir...

Bu gün Firuz ömrünün ən müdrik çağlarını yaşayır. Öz yeni ifa tərzini cilalandırır.. Bu yolda ona böyük yaradıcılıq uğurları arzulayıram, eyni zamanda onu altmış yaşı münasibətilə ürəkdən təbrik eləyir və ona öz ailəsi ilə birlikdə daimi səadət diləyirəm...

**Xosrov Əyyub oğlu Məmmədov**
**Azərbaycan Texniki Universitetinin "Fizika" kafedrasının dossenti, texnika elmləri namizədi**

Yeniyetməliyimdən xalq mahnılarına, muğamlarımıza böyük sevgim olub.. Yaşa dolduğca bu sevgi böyüyərək muğamımızın görkəmli ifaçılarına tərəf istiqamətlənib.. Aydın məsələdir ki, muğam ifasında tar alətinin olduqca əhəmiyyətli yeri var.. Tarsız muğam sanki qanadı qırılmış quşa bənzətir.. Ələlxüsus da xanəndə oxuyarkən tarsız elə bil nəsə çatışmır.. Kamança çalan nə qədər mahir bir usta olsa da, tarzən onun yanında olmayanda sanki sıxıntı içinə düşür, nə qədər gözəl çalsa da, kamançanı yandırıb-yaxsa da istəınilən dərəcədə obraz yarada bilmir.. Bu bir növ bir aktyorun monoloq yox, dioloq söyləməsinə bənzəyir.. Yəni o cürə tarı əvəz eləyə bilmir.. Şox şükürlər olsun Allaha ki, Azərbaycanda olduqca istedadlı, peşəkar və səriştəli tarzənlər olub və indinin özündə də bunların sayı kifayət qədərdi.. Bu tarzənləri isə iki qrupa bölmək olar.. Sola ifaçıları: Çox böyük ustad tarzən Hacı Məmmədov, Azərbaycan tarını beynəlxalq aləmdə ləyaqətlə təmsil edən Ramiz Quliyev və ən çətin klassik əsərlərin öhdəsindən çox asanlıqla gələn Həmid Vəkilov və s.. Əlbəttə bu ifaçılar istənilən vaxt lazımi səviyyədə xanəndələri də müşayət eləyiblər, lakin onların dəsti-xətti əsasən solo ifasıyla bağlı olub və bu işdə də çox böyük nailiyyətlər əldə eləyiblər.. İkinci qrup tarzənlər isə müşayətçi tarzənlərdir.. Bunların yaradıcılığı əsasən xanəndələri müşayət eləməklə bağlıdı.. Bunlara misal olaraq Əhmədxan Bakıxanovu, Bəhram Mənsurovu, Əhsən Dadaşovu, Həbib Bayramovu, Sərvər İbrahimovu və başqalarını gətirmək olar.. 70-80-ci illərdə yeni tarzənlər ordusu yaranmağa başladı.. Ağasəlim Abdullayev, Möhlət Müslümov, Vamiq Məmmədəliyeb və başqaları.. Bunların hərəsinin öz dəsti-xətti, öz üslubu var.. Onlar xanəndələri olduqca peşəkar bir səviyyədə müşayət eləyə bilir, xanəndənin rahat oxuması üçün öz çalğılarıyla olduqca münasib bir şərait yarada bilirlər.. Bunların arasında Firuz Əliyev özünün olduqca orijinal üslubu ilə, qeyri-adi ifa tərzi ilə lakonikliyilə, insanı ehtizaza gətirən musiqi cümlələrini yığcam notlarda yerləşdirməyilə fərqlənir.. Bu baxımdan Firuzun çalğısı belə demək mümkündüsə poetik lövhələr üstündə qurulur.. Əgər onun çalğısını pioeziyaya bənzətsək burda olduqca hikmətli və mənalı misralara, bəhrlərə, rədiflərə, qafiyələrə və təşbihlərə rast gələrik.. 80-cı illərdə radio dalğalarında, televiziya ekranlarında tez-tez Firuzu dinləyirdim.. Eyni zamanda onun toy şənliklərində

maqnitafon lentlərinə yazılan ifalarına heyranlıqla qulaq asırdım.. Həmin illərdə bir dəfə əvəzolunmaz muğam ustası, mənim həmyerlim mərhum Yağub Məmmədovdan Firuz Əliyevin sənəti və kimliyi haqqında məlumat aldım.. Öyrəndim ki, Firuz Bakının Buzovna kəndindəndir.. Yağub müəllimlə, Firuz haqqındakı fikirlərimiz demək olar ki, üst-üstə düşdü.. 1990-cı ildə ailəmlə bağlı keçirilən ziyafətlərdə və mənim özümüm 40 illik yubileyimdə Firuz Əliyev, Yağub Məmmədovla və Sabir Novruzovla birlikdə iştirak elədi.. Həmin vaxtdan bizim ailəvi dostluğuz başladı və indiyə qədər də davam edir.. Mənə elə gəlir ki, tarı yaxşı çalmaq üçün insanın əli, ürəyi və beyni bir nöqtəyə istiqamətlənməlidir.. Əks halda yaxşı effekt alınmaz... Bu baxımdan Firuzun ruhu ilə cisminin arasında çox gözəl bir harmoniya yaranır ki, o tarı ifa eləyərkən cismini ruhuna asanlıqla tabe eləyir və qəlbində tüğyan edən bitib-tükənməz musiqi ahənglərini barmaqlarına köçürdür.. Məhz buna görə də Firuzun ifası başqalarından əsaslı şəkildə fərqlənir və dinləyicini heyran edir.. Firuz tarı necə çalırsa, maşını da o cür sürür, insanlarla rəftarı da o qədər səmimidir.. Sənətə 90-cı illərdən bu yana sənətə gəlmiş tarzənlər, məndən inciməsinlər, demək olar ki, hamısı Firuzun xırdalıqlarını edirlər.. Əslində bu çox yaxşıdır.. Bu onu göstərir ki, Firuz artıq uzun illərdir ki, öz “məktəbini” yaradıb.. Belə ki, bu məktəbdən təkcə onun əyani olaraq dərs keçdiyi, tarın sirrlərini öyrətdiyi tələbələr bəhrələnmirlər, bu məktəbdən Firuzun özüylə bilavasitə təmasda olmayan onlarla tarzən olduqca lazımlı və vacib dərslər alırlar, bu da onların gözəl bir tarzən kimi yetişməsi üçün çox gözəl imkan yaradır.. Təəsüfləndirici hal isə odur ki, bəzi tarzənlər nədənsə Firuzun çalğısına qısqanclığla yanaşırlar.. Həmin yoldaşlara üzümü tutub deyirəm:- “Həqiqət nazilər amma üzülməz”.. Ona görə də yaxşı sənətə və sənətkara hörmət eləmək lazımdır ki, sizə də Allah və xalq hörmət eləsin”! Tar sənətindən az-çox başı çıxan, duyan isə hər kəs Firuz Əliyev sənətini sevir və qiymətləndirir.. Mən Firuzu 60 illik yubileyi münasibəti ilə təbrik edir, ona uzun ömür, can sağlığı, ailə səadəti, aydın səma, rahat yaşamaq arzulamaqla yanaşı, yeni-yeni naliyyəitlər diləyirəm...

**Cavid Xaspoladov**
**Daxili İşlər Nazirliyi Mətbuat Xidmətinin rəis müavini-**
**"Mübariz keşikdə" qəzetinin redaktoru, polis polkovniki, respublikanın əməkdar jurnalisti**

O insan, xüsusilə də o sənət adamı xoşbəxtdir ki, istedadı kimi mənəviyyatı da gözəl, mükəmməl olsun və bunlar bir-birini tamamlasın.. Vay o gündən ki, tərəzinin iki gözündən biri digərindən aşağı əyilsin.. Yəqin ki, elə həmin səbəbdən xoşbəxtlərin sayı azdır və adama insan, şəxsiyyət deyilmir..

Xalq artistimiz, xalqın içindən çıxıb, əsl xalq adamı olan tarzən Firuz Əliyev belə bəxti gətirən insanlardan, sənətkarlardandı.. Azərbaycan mədəniyyətini, mənəviyyatını ürəyində, sənətində yaşadan, əzizləyən, qoruyan, onu hələ tanımayanlara sevdirənFiruz müəllim həm də öz nümunəsi ilə gənclərimiz üçün örnəkdir, bələdçidir..

Musiqi dünya içində əsrarəngiz, yalnız onu sevə bilənlərin görə, yaşaya biləcəyi bir dünyadır.. Bizim dünyamız dəyişsə ölə, yox ola bilərik.. Amma səs, ilahi musiqi əbədidir.. İlahi musiqi İlahidən gəlir və ölümsüzdür.. Bu mənada əziz qardaşım, görkəmli sənətkarımız Firuz müəllimin özünə, sənətinə, hətta mizrabına belə həsəd aparıram-əbədi səsin, əbədi sözün daşıyıcısı olmağı arzulayan milyonlardan biri kimi...

***

**Üzeyir Muradov**
**Jurnalist-fotomüxbir**

**"Təşnə ürəklərin sərin bulağı"**

Günlərin birində xidməti işimlə əsaqədar əvvəllər DİN-nin tərkibində olan Baş Yanğın Təhlükəsizliyi və Qəza Xilasetmə işləri Baş İdarəsinin Rəisi general-mayor Murad Hüseynovun qəbuluna getmişdim. Qapıda məni çox gözlətməyən general tez də içəri dəvət etdi.. Vacib işi olmasa da, sözüm təsili deyilsə bir neçə dəqiqə gözləməyimi xahiş etdi.. Bu "Fasilə"nin səbəbini anlamasam da mənim üçün göydəndüşmə oldu.. Televiziyada xalq mahnıları verdilər.. Tar ustası Firuz Əliyev tarını tanış havaların birinə kökləmişdi.. Mahnı bitən kimi kabinet sahibi nəzakətlə məni yubatmağının səbəbini izah etdi:-"Mən Firuzun ifasını çox sevirəm..O tarı danışdıra bilir.. Daha doğrusu bu həzin sədanı aləmə yaymaqla insanı musiqinin cazibəsinə sala bilir.. Xalq musiqimizin nadir ifaçılarının tuta bildiyi xalları ilə insanı

ruhlandırmaq bacarığı var onda”.. Sözarası,-“Bütün yanğınları söndürməyin bir yolu var, ürəyimin yanğısını da Firuzun çalğısı ilə söndürürəm”,- buyurdu.. Bu sözlərdən elə bir ürəyim atlandı.. Xəyalımın qanadları məni zamanın pərdəsi arxasında qalmış gəncliyimə apardı.. Yeniyetmə vaxtında Firuza öz tarımı verib, özfəaliyyət ansamblına dəvət etdiyimi deyəndə, həmsöhbətim marağını boğa bilmədi..

1960-cı illərin əvvəlləri idi.. Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinin tələbəsi idim.. Hər axşam Buzovnadakı T. Axundov adına Mədəniyyət evində fəaliyyət göstərən Xalq Teatrının bədii özfəaliyyət kollektivində gedib tar çalırdım.. Artıq neçə gün idi ki, sarıbəniz bir yeniyetmənin qapının arasından bizə göz qoyub, diqqətlə izləməyi nəzərimdən qaçmamışdı.. Amma deyim ki, baxmaq var, baxmaq da var da.. Bəlkə də elə mənim rahatlığımı çəkən onun baxışlarındakı həsrət, yanğı idi.. Bu yeniyetmənin hisslərinin ötəri olub, olmamasını yoxlamaq üçün növbəti dəfə o qapı ağzında peyda olanda içəri dəvət etdim, kimliyini soruşdum və bildim ki, valideynləri çox hörmət etdiyim kəndlilərimdi.. Tarımı ona uzadıb, simlərini istədiyi qədər “danışdırmağa” verdim. O isə ehtiyatla götürdüyü bu musiqi alətini əlində bir xeyli saxlayıb, simlərinə sığal çəkib, özümə qaytardı.. Mən də Firuz adlı bu yeniyetməyə həmişə ürəklə içəri keçib, məşqlərə baxa biləcəyini, hətta musiqi dərnəyinə yazıla biləcəyini də deyib, məşqlərə başladım..

Həmin vaxtdan bir qədər ötmüşdü.. Daha dostlaşmışdıq.. Ara-sıra məşğələrimizə gəlib, əvvəlki tək seyr edib gedirdi.. Günlərin birində yolda rastlaşananda az qala məni muştuluqladı:- Musiqi məktəbinə yazılmışam, tar sinifinə.. Elə maraqlıdı ki...

Elə həmin anda müşahidə etdiyim hisslərin ötəri olmadığını, musiqiyə, bu qədim milli alətimizə sevgisini görüb, xeyir-dua verdim, görüb bildiklərimdən danışdım ki, həvəsini bir az da artırım...

Universiteti bitirəndən sonra mərkəzi mətbuatda, o illərdə az inkişaf eləmiş fotojurnalistika sahəsində fəaliyyətə başlamağımla əlaqədar olaraq, o vaxt ki, musiqiyə meyli olan kəndimizin cavanları üçün sənət məbədi sayılan ansambldan uzaqlaşdım.. Gecə yarıdan keçmiş evə qayıdır, tez-tez respublikamlızın şəhər və rayonlarına, xarici ölkələrə ezamiyyətlərə gedirdim.. Günlərin birində vaxt tapıb, xalq teatrının məşqinə baş çəkəndə çox sevindim.. Artıq ansamblda tarı Firuz Əliyev ifa edirdi.. Kollektivimizin üzvləri ondan çox razılıq edir, onun çox istedadlı bir gənc kimi tez parlayacağından xəbər verirdilər.. Sonralar Firuz Asəf zeynallı adına musiqi məktəbində təhsil aldı və el şənlikləeinə dəvət olunmağa başladı..

El şənliyi demişkən, hərdən dəvətli olduğum kənddəki toy məclislərinə gedəndə Firuz məni görən kimi ayağa qalxırdı. Düzü onun bu təvəzökarlığını deyim, xətitr-hörmət saxlamağını deyim, məni utandırırdı.. Odur ki, məclislərin birində məsələni zarafatla yoluna qoymaq üçün ona yaxınlaşıb, yavaşca:- “Kişi, sən daha

oturmuş sənətkarsan ey, sənə tez-tez qalxmaq olmaz”,-dedim.. Zarafatımdakı incə ehyamı duyub, xeyli güldü..

İllər ötdükcə Firuz televiziya ekranlarında tez-tez görünür, ifası efirdə səslənir, konsert proqramlıarı ilə ən böyük salonlarda çıxış edirdi.. Köksünə sıxdığı tarı elə bil ürəyini oxuyurmuş kimi dinləyiciyə nələr demir, nələr danışmırdı?!... İstər ayrı-ayrı muğamlarımızın ifası zamanı, istərsə də xanəndələrimizi müşayət edəndə onun ifasının kamilliyi məni çox sevindirirdi..

İndi aradan illər keçib.. Bir vaxtlar tara həsrətlə qapı arxasından baxan yeniyetmə-sənət aləmində tanınmış sima, respublikanın xalq artisti Firuz Əliyevin indi 60 yaşı tamam olur.. Mən bu münasibətlə öz köhnə dostuma, Firuza deyəsi bircə sözüm qalıb.. Sən daha oturmuş yox, ustad sənətkarsan qardaşım.. Milli musiqimizi dünyada tanıtmaqla sən mədəniyyətimizə, incəsənətimizə dəyərli töhfələr vermisən.. Sevilən ifanla, musiqini dinlətmək məharətinlə könüllər fəth etmisən.. Ona görə də bu gün mən səni harda olsan ayaq üstə alqışlayır, yaradıcılığında, şəxsi həyatında məhsuldar aylar, illər, unudulmaz, sevincli günlər arzulayıram...

***

## Munis Şərifov
## Kamança ifaçısı, respublikanın xalq artisti

Mən Firuzu uzun illərdir tanıyıram və dostluq edirəm.. Mən mərhum İslam Rzayevin rəhbərlik etdiyi, Firuzun konsertmeysteri olduğu ansmda faliyyətə başlayanda çox gənc idim.. Hələ o qədər səriştəm yox idi.. Hər məşqdə Firuzdan nəsə öyrənirdim.. O, ansambılla məşq eləyəndə heç bir çətinlik çəkmirdi. Ansamblda tək İslam müəllim oxumurdu.. Bəlkə də yüzlərlə həm peşəkar, yəni artıq təcrübəsi olan, həm də gənc, hələ necə deyərlər bişməmiş müğənnilər bizim ansambılla çıxış eləməyi özlərinə şərəf bilirdilər.. Məhz firuzun sayəsində ansambıl saysıq-hesabsız mahnını olduqca yüksək səviyyədə, hər bir müğənninin arzu elədiyi şəkildə ifa eləyirdi.. Ən üzdə olan müğənnilər də bizim ansambılla çıxış eləmək istəyirdilər.. Bunun elə ən böyük səbəbkarı Firuz idi.. O həm xalq mahnılarını, həm bəstəkar mahnılarını bütün elementləri ilə, bütün incəlijkləri ilə bilirdi.. Firuzun üstünlüyü bir də onda idi ki, o Azərbaycan musiqisinə yad nəfəsin girməsinə heç vaxt imkan vermirdi.. Deyirdi ki, müğənni o vaxt yad nəfəs işlədir ki, onun baqajı olmur, daha doğrusu Azərbaycan musiqisinin incəliklərini bilmir.. Firuz

onlarla müğənniyə yad nəfəslər vurmağı tərgizdirib, onlara özümüzün olduqca həzin, bulaqların şırıltısı kimi zümzüməli melizmalarımızı öyrədib.. Bəzən müğənnilər yersiz zəngulə vuranda Firuz məşqi saxlayıb ona deyirdi ki, zəngulə çox gözəl şeydi, amma onu yerində gərək vurasan ki, dinləyici də zövq ala bilsin.. Yerli-yersiz zəngulə vurmaq xörəyə həddindən çox duz qatmaq kimi olur.. Amma zənguləni yerli-yerində işlədəndə çox səliqəli alınır.. O, buna misal olaraq bizim klassiklərimizi, Cabbar Qaryağdı oğlunu, Seyid Şuşinskini, Xan Şuşinskini, Zülfü Adıgözəlovu, elə mərhum İslam müəllimin özünü, Əbülfət Əliyevi, Əlibaba Məmmədovu, Yağub Məmmədovu, Arif Babayevi, Ağaxan Abdullayevi, Alim Qasımovu və başqalarını gətirdirdi.. Firuz həyatda olduğu kimi ansambılda da nizam-intizamı çox sevirdi, həm də çox tələbkar idi.. Ona görə də bizim ansambılın ifası belə gözəl alınırdı.. Mən Firuzdan çox şey öyrənmişəm.. Mənim kamança sənətimdə müəllimim gözəl kamança ustası Şəfiqə xanım Eyvazova olub.. Mən Şəfiqə xanıma ömrü boyu minnətdaram.. Amma mənim bir kamança çalan kimi püxtələşməyimdə Firuzun da xidməti var.. Biz onunlıa birlikdə Dövlət tədbirlərində, konsertlərdə, el şənliklərində, toy-düyünlərdə, eyni zamanda xarici ölkələrdə qastrollarda çox olmuşuq.. Onun insanlığı, mədəniyyəti, kişiliyi, mərdliyi də çalğısına bənzəyir.. O bütöv bir insandır.. Onda heç bir şey yarımçıq deyil.. Onun yanında mən həmişə özümü rahat və qayğısız hiss edirəm.. Biz lap təzəlikcə Novruz bayramı ilə əlaqdar YUNESKO-nun xətti ilə keçirilən türk dilli xalqların fesfivalından dönmüşük.. Həm Parisdə, həm də Strasburqda çıxışlarımız olub. Gözəl xanım müğınnimiz Nuriyyə xanım Hüseynova da bizimlə festivalda iştirak eləyirdi.. Bütün çıxışlarımız çox uğurlu keçdi.. Yenə də Azərbaycan musiqisinin zirvədə durduğunu böyük həvəslə nümayiş elətdirdik və həmişəki kimi çox bəyənildik, çox tərifləndik.. Amma yenə başçımız, necə deyərlər komandirimiz Firuz Əliyev idi.. O yenə tarı o qədər peşəkarlıqla, o qədər məharətlə, ustalıqla ifa elədi ki, dəfələrlə salondakıları Azərbaycan musiqisinin, Azərbaycan tarının möcüzəsi qarşısında ayağa durmağa məcbur etdi.. İlk çıxışımız YUNESKO-nun konsert salonunda oldu.. Bu salon üç min nəfər tamaşaçı tutur.. Musiqiyə sərhəd yoxdu. Musiqi xalqlar araslında ən gözəl sülh, mehribançılıq, əmin-amanlıq vasitəsidi. Musiqinin

dili ən humanist dildi.. Musiqi hamını dostluğa, qardaşlığa, mehribançılığa, mərhəmətə çağırır.. Hamı bizim musiqinin ecazına bürünmüşdü.. Fransanın musiqi mütəxəssisləri bizim ifamızı inləyəndən sonra öz heyrətlərini gizlədə bilmədilər.. Bizim musiqini dünyanın ən həzin, ən romantik, ən sevdalı musiqisi adlandırdılar.. Firuzun ifasına isə qədər yüksək qiymət verdilər ki, bunu dil ilə təsvir eləmək mümkün deyil.. Firuzla harda olursa olaq, həmişə belə olub.. Vüqar müəllim, "Səbuhi" studyasının sənin şerlərindən ibarət "Şer nəğmələşəndə" diskində Firuzun ifası o qədər heyrətamizdi ki, bu diskə qulaq asan hər kəs həm sənin şerlərində olan hikmətə, mənaya, poetikliyə, fəlsəfəyə, həm də Firuzun fövqəladə çalğısına vurulurlar.. Mən sənin televizyada 40 illik yubileyinlə bağlı gedən bir saatlıq verlişi xatırlayıram.. Verlişi böyük alimimiz Hacı Basim Məmmədəliyev aparırdı.. Orda da müşayətçi mən idim.. Orda da həm sənin şerlərindən, həm də Firuzun ifasından doymaq olmurdu.. Bu qəlblərə xoş duyğular saçan bir məəviyyat çeşməsini idi.. Mən fəxr edirəm ki, uzun illərdir Firuzla həm sənət yoldaşlığı, həm də həyat yoldaşlığı eləyirəm.. Firuz çox nəcib, əməlisaleh və pak bir insan, əsl dost və gözəl ailə başçısıdır.. Mən Firuzu 60 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona ən yaxşı şeyləri, eyni zamanda uzun ömür, can sağlığı və ailə səadəti arzulayıram! Onu bağrıma basıb opürəm!




## İsmayıl Həmidov
## Kamança ifaçısı, Respublikanın əməkdar artisti

Firuz Əliyev sözün həqiqi mənasında fitri isdedada malik sənətkardır.. Onun ifasında qırıqlıq və ya natamamlıq görmək mümkün deyil.. Onun ifası həmişə qabarıq şəkildə nəzərə çarpır.. O öz gözəl ifası ilə xalqın rəğbətini və məhəbbətini qazanmışdır.. Bəzən düşünürəm ki, bu müvəffəqiyyətin sirri nədədir? Sonra isə öz sualımı belə cavablandırıram,-Onun ifasında dərin məna, güclü təsir qüvvəsi vardır.. Hazırda istər muğamımızı, istərsə də tar ifaçılığını Firuzsuz təsəvvür etmək mümkün deyil.. Firuz öz fərdi xüsusiyyətlərinə malik bir sənətkardır.. Sənətdə isə mənim fikrimcə ən başlıca cəhət fərdilikdir.. Bu mühüm vəziyyət istedadın dərəcəsini, yaradıcılıq axtarışlarının genişliyini müəyyən eləyən amillərdəndir.. Firuzun ifası son dərəcə fərdidir, özünəməxsusdur.. Bu ifa səni öz sehrinə salıb arxasıyca aparır, eyni zamanda güclü bir dəstək verir.. Mən uzun illərdir Firuzla bir yerdəyəm.. Daha doğrusu xanəndəsi Ağaxan Abdullayev kimi böyük bir sənətkar olan

muğam üçlüyündə birlikdə fəaliyyət göstəririk.. Dövlət tədbirlərində, televiziya kanallarında birlikdə çıxış edirik.. Dəfələrlə xarici ölkələrdə qastrol səfərlərində də bir yerdə olmuşuq.. Bir neçə il bundan əvvəl yaradılmış “Abşeron” ansambılında da elə Firuzun özünün rəhbərliyi ilə bir yerdə çalışırıq..Eyni zamanda el şənliklərində, toy düyünlərdə çox vaxt bir yerdə oluruq.. Firuzla bir yerdə xanəndəni müşayət eləmək mənə o qədər  zövq verir ki, kamançanı əlimdən yerə qoymaq istəmirəm.. Firuzun fantaziyası o qədər zəngindir ki, bəzən məni heyrətə gətirir.. Düşünürəm ki, axı bir sənətçidə bu qədər də güclü baqaj ola bilərmi ki, elə necə deyərlər bədahətən sayı-hesabı olmayan lirik və şirin xallarla  dayanmadan dinləyicinin zövqünü oxşaya bilsin? Sonra yenə də özüm-öz sualımı çox sadə bir şəkildə cavablandırıram:-  Bu muğam, bu musiqi xalqın milli sərvətidir.. Bizim xalq isə çox zəngin mədəniyyətə malik bir xalqdır.. Xalqın bu zəngin mədəniyyətini özünə qaytarmaq üçün hər şeydən öncə xalqın özünün yaratdığı misilsiz xəzinədən faydalanmaq  lazımdır.. Firuz bu xəzinədən olduqca səmərəli şəkildə faydalanmış bir sənətçidir.. Ona görə də necə deyərlər balın üstünə bal töküb dinləyicini onun istədiyi qədər məmmun edə bilir.. Firuz mənim bir kamança çalan kimi püxtələşməyimdə də az xidmət göstərməyib.. Mən ondan çox şeylər öyrənmişəm.. Ömrü boyu da ona minnətdar olacağam..  Mən Firuz qardaşımı 60 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik eləyir, ona Uca aradandan ailə səadəti, uzun ömür, can sağlığı, firavanlıq və yeni-yeni nəaliyyətlər diləyirəm...

***

**Hacı Mirzə Ağabəyli**
**Respublikanın əməkdar artisti.. Azərbaycan Milli Dram Teatrının aktyoru**

Firuzun tara, muğama, ümumiyyətlə musiqi aləminə olan məhəbbəti hələ kiçik yaşlarından  mənimlə bir sinifdə oxuyanda özqünü çox aydın bir surətdə biruzə verirdi.. Sinif rəhbərimiz dərsdə boşluq yaranarkən Firuza deyirdi ki, götür tarı çal...

Firuzla mən toy şənliklərində, məclislərdə tez-tez rastlaşarıq, onun tarının sarı simindən çıxan muğam naləsi, fəryadı altında qəzəl, şer söyləmək insanı rqqətə gətirir.. Firuz özündən qabaqki tar ifaçılarından öyrəndiklərini özünə uyğun tərzdə ifadə eləməyi çox gözəl bacarır.. Onun ifası əvəzolunmazdır.. Firuzun ənm gözəl xüsusiyyətlərindən biri də gözəl dost, gözəl insan olmağıdır.. Firuz musiqini duyur, yaşayır və yaşadır.. Bəxtiyar Vahabzadə çox gözəl deyib:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın  mənsaı yalnız ondadır,

Şəm əgər yanmırsa yaşamır deməl,
Onun yaşamağı yanmağındadır..

İncəsənət aləmində tək musiqi sahəsində yox, incəsənətlə məşğul olan, istər aktyor, istər rejissor, istər dramaturq, fərqi yoxdur, hamı Firuzun sənətinə, tarının ecazkar səsinə vurğundur.. Çox əfsuslar olsun ki, bu gənc (O mənim aləmimdə hələ də gəncdir) sənətkarın haqqında hələ də televiziya filmi çəkilməyib.. Çox minnətdarlığımı bildirirəm Firz haqqındakı bu kitabın müəlluifi, gözəl şair, alim, musiqi sahəsində bənzərsiz bir dəsti-xətti olan, musiqini yaşadan, sevdirən dostum Vüqar Əhmədə ki, Firuzun əməyini, zəhmətini qiymətləndirərək onun yaradıcılığına kitab həsr edib..

Firuz, ən sonda sənə ürək sözümü deməyi özümə borc bilirəm.. Firuz, bizim ömrümüz "Yetim gegah"ın qəmli sədaları altında sona yetəcək.. Lakin sənin ifaçılıq məktəbində qoyduğun dəsti-xətt daim əbədi yaşayacaq və təkrar olunmayacaq..

Əziz dostum, mehriban qəlb sirdaşım, sadə insan, böyük sənətkar Firuz! Səni 60 illik yubileyin münasibəytilə təbrik edir, sənə can sağlığı, uzun ömür arzulayır və barmağlarının sarı simdən əskik olmamasını arzulayıram.. Nəhayət sözümü nakam şair M. Müşfiqin ölməz poeziyasının həzin sətirləriylə bitirirəm:

Oxu tar, oxu tar, səni kim unudar....

***

**Teymur Əmrah**
**Müğənni**

Firuz müəllimin ifası mənə o qədər zövq verir ki, mən demək olar ki, heç vaxt bunun təsirindən ayıla bilmirəm.. Onun ifası məndə ən xoş və həzin duyğular oyadır.. Mən xasiyyətcə çox həlim bir adam olduğum üçün Firuz müəllimin ifası məni daha da həlimləşdirir.. Mən bu ifanı eşidəndə o qədər duyğulanıram ki, özümdən biixtiyar gözümdən yaş axır.. Bu ifa zatən mənim dərdlərimə şərik olur, sanki mənim dərlərimi yüngülləşdirmək üçün mənə ürək-dirək verir, bir qədər göz yaşı töküb rahatlanmaqdan ötrü mənə inanılmaz dərəcədə kömək eləyir.. Hamı bilir ki, mən estrada-vokal müğənnisiyəm.. Muğam mənim janrım deyil.. Lakin mən bir azərbaycanlı olduğum üçün, daha doğrusu damarlarımdan azərbaycanlı qanı axdığı üçün, muğamın pərəstişkarıyam.. Gözəl ifaçların ifasında muğama qulaq asmaqdan doymuram.. Çünki muğam bizim canımızda,

qanımızdadı.. Muğam bizim həyatımızın obrazıdı.. Muğamsız biz heç kimik, heç nəyik və məhz Firuz kimi virtouz sənətkarların ifasında muğam xalqımızın qəlbinə hakim kəsilir.. Muğamı Azərbaycansız, Azərbaycanı da muğamsız təsəvvür eləmək mümkün deyil. Muğamı Firuz Əliyevsiz də təsəvvür eləmək mümkün deyil.. Firuz müəllim bizim muğamımızı zirvələrə qaldıran sənətkarlardandı.. Bizim muğamımız məhz Firuz Əliyev kimi nəhənglərin sayəsində büyün dünya musiqisinin üzərinə işıq saçıb..

Mən artıq sağlığında canlı klassikə çevrilmiş Firuz müəllimi altımış illik yubileyi münasibətilə ürəkdən təbrik eləyirəm, ona ailə səadəti və bütün yerdə qalan arzularına yetməyi arzulayıram...

## İbrahim Tatlısəs
## Qardaş Türkiyənin ən ünlü sənətçilərindən biri

“Əfəndim canım kərdeşim.. Sənin güzəl ifan bəni hayran etdi.. Bən zatən azəri muziyinin hayranıyım.. Zaman-zaman azəri şarkıları da söylərim.. Ama Firuz bəyin ifası bir başkadır.. O tar çalarkən o kadar zövk aldım ki, kəntimi belə unutdum və kafama-kafama vurdum.. Büyük Haydar Əliyev na kadar güzəl söyləmiş.. “Biz bir millət iki dövlətiz”... Şimdi düşünürüm ki, bən həm Türkiyənin, həm də Azərbaycanın ünlü bir sanatçısı olduğum gibi, Firuz bəy də həm Azərbaycanın, həm də Türkiyənin ünlü bir sənətçisidir”..



## Füzuli Nəcəfov
## "Barmaqları mizrablı dostum"

Mərhum müğənnimiz İslam Rzayev öz ansamblını yaradan vaxtdan, ansamblın konsertmeysteri tarzən Abdulla Qurbani idi.. Etiraf eləmək lazımdır ki, pis musiqiçi deyildi.. Lakin muğam ifa edərkən fars ahəngindən istifadə edir, hətta ansamblın ifa etdiyi bütün musiqi nömrəlini, istər mahnı olsun, istər rəng, hər vəhclə farslaşdrmağa çalışırdı.. Firuz Əliyev həmin ansambla rəhbərlik eləyən gündən isə hər şey dəyişdi.. Ansamblın ifası yad notlardan, yad xallardan təmizlənib, Azərbaycan musiqisinin əvəzolunmaz çalarları ilə nəvalandı, ansambl şablon ifadan çıxıb Azərbaycan musiqi dəryasının dərinliklərinə baş vurdu və hər bir musiqi nömrəsini ayrı-ayrı ştrixlərlə, ayrı-ayrı detallarla ifa eləməyə başladı.. Bu isə bilavasitə o vaxt cavan olmasına baxmayaraq artqı ustad və olduqca peşakar bir sənətkara çevrilmiş Firuz Əliyevin düzgün metodundan, Azərbaycan musiqisinin incəliklərini dərindən bilməsindən, bütün xalq mahnılarını və bəstəkar mahnılarını ən xırda elementlərinə qədər bilməsindən irəli gəlirdi..

Firuz xanəndələri müşayət eləyəndə, onlar çox rahat oxuyurlar, çünki o onları yaxşı duyur, nə eləmək istədiklərini dərhal anlayır və xanəndənin hamar oxuması üçün hər cür şərait yaradır..

Firuzun xoşbəxtliyi ondadır ki, sənəti də gözəldi, insanlığı da.. Onda bir uşaq təmizliyi var.. İstər yaşlı olsun, istər gənc, mən hələ bir adam görməmişəm ki, Firuzdan narazı olsun, haçansa ondan incidiyini desin..

Firuz altmış yaşına yetsə də hələ gəncdir.. Allahdan arzu edirəm ki, o gənclik təravəti ilə, gənclik eşqi ilə hələ uzun illər öz xalqı qarşısında çıxış etsdin.. Barmaqları mizrabdan heç vaxt doymasın...

***

## Taleh Mirzəyev
## (Dostu, Buzovna sakini)

Çox yaxşı dostdur.. Sənəti də ki, göz qabağındadır.. Vüqar müəllim, ondan Moskvada, özüm təşkilatçısı olduğum bir tədbirdə "Çahargah" eşitmişəm ki, qılıncdan necə qığılcım çıxırsa, qəlbimə də elə od düşüb.. Bir dəfə Alim Qasımov

oxuyanda bu bir dənə “Bayatı-qacar” çaldı ki, heyrətdən boğazım qurudu, ifası məni o qədər feyziyab elədi ki, neçə dəqiqə özümə gələ bilmədim.. Belə tar çalmaq hər adama qismət ola bilməz.. Bizdə çox peşəkar, güclü tarzənlər olub.. Mən bunların adlarını çəkmirəm.. Onsuz da muğamla maraqlanan adamlar hamısı onların adlarını əzbər bilir. İndi məsələ burasındadır ki, Firuzun adı elə indidən onların adı ilə qoşa çəkilir.. Bizim kənddə hamı onu sevir.. Təkcə bir sənətkar kimi yox, elə bir insan kimi də.. Ona görə də kəndimizdə elə bvir xeyir iş olmaz ki, Firuzsuz keçsin.. Özü də həmişə yuxarı başda otuzdururlar.. O, bu hörmətə tək sənətiylə yox, böyük-kiçik yeri bilməklə, təmiz və gözəl əxlaq sahibi olmaqla, ədəb-ərkanıyla, ləyaqətiylə və xoş xasiyyətiylə nail olub.. Nə qədər kişi xüsusiyyəti varsa, hamısı Firuzda cəmləşib.. Hələ indiyə qədər Firuz bir adamın ürəyini sındırmayıb, hələ bir adam tanımıram desin ki, mən Firuzdan incidim.. Çox əməlisalehdi Firuz, çox.. Özü də uşağlığından belə olub.. Başqa uşaqlar dəcəllik eləyəndə, daşa-divara dırmaşanda bu tarı götürüb əlinə sənət öyrənib.. Elə ona görə də mahir bir ustaya çevrilib.. Elə hamı öz işində, peşəsində Firuz kimi olsaydı, bütün dünya gülə-çiçəyə bürünərdi.. Hamı can deyib, can eşidərdi, nə müharibə olardı, nə dağıdıcı silahlar olardı, nə adırsızlıq olardı, nə də cinayət. Sənətkarlarında kı, sayı-hesabı bilinməzdi.. ..

Alıtmış yaşın mübarək olsun Firuz! Uğurların daha artıq olsun! Balaların xoşbəxt olsun! Allah səni bütün arzularına yetirsin inşallah!

Sözümü mərhum qəzəlxan Maarifin sözləri ilə bitirmək istəyirəm:

Hər gün gündəliyi varaqladıqca,
Hər andan, saatdan yazmaq istərəm...

***

**Cəmşid Mirzəyev**
**(Dostu, Buzovna sakini)**

Vüqar müəllim, gözəl xanəndəmiz Hacı Tələt Qasımov sizin apardığınız bir tədbirdə, rəhmətlik Hacıbaba Hüseynovun 85 illiyində dedi ki, Hacıbaba ustad deyil, ustadı-əzəmdir.. Bu sözləri Firuza da şamil eləmək olar.. Elə bir xanəndə yoxdur ki, Firuz onu müşayət eləməsin.. Firuz öz doğma kəndi Buzovnada məclislərdə, toylarda, başqa şənlik mərasimlərində çox iştirak eləyib.. O, böyük səhnəyə Buzovnadan pərvazlanıb..

Firuz səsi olmayan xanəndəni də elə müşayət eləyib ki, hamı elə bilib həmin xanəndənin səsi var.. Nəinki tarzənlərin, hətta bir çox xanəndələrin peşəkar bir musiqiçi kimi yetişməsindəı Firuzun xidmətləri var.. Firuz tarı o qədər gözəl, o qədər məharətlə, şirin, həzin ifa edir ki, insan bütün dərdi-sərini unudur, sakitləşir, rahatlanır.. Sanki o öz çalğısıyla adamın əsəblərinin üstünə su çiləyir.. Nakam M, Müşfiq sanki elə Firuzun çalğısı üçün deyib:

Oxu tar, oxu tar, səni kim unudar,
Səsindən ən lətif şerlər dinləyim,
Nəğməni su kimi alışan ruhuma çiləyim..

Tar çöx gözəl alətdir.. Azərbaycan muğamını, musiqisini tarsız təsəvvür eləmək mümkün deyil. Lakin tar cansız bir ağac parçasıdır.. Bu cansız ağac parçasını ifa eləyənin göz nə qədər istedadı, bacarığı, qabiliyyəti və bilgisi olmaldır ki, insnların qəlbini, zövqünü oxşasın, bir sözlə tarı elə bir dillə dinlərdirsin ki, hər kəs onun nə dediyini öz ruhu ilə duysun və bu nəvanın abi-həvasına bürünsün..

Bizim ailəmizdə həmişə musiqiyə çox böyük məhəbbət olub.. Bir vaxtlar evimizə Vahid gəlib, Seyid gəlib.. Biz Firuzu da o dahilərlə bir sırada sayırıq.. Rəhmətlik qardaşlarım Qüdrət də, Saleh də Firuzu çox istəyirdilər..

Altmış yaşın çox mübarək Firuz.. O gün olsun yüz yaşın olsun.. Elə həmişə belə cavan, gümrah qalasan.. Uğurların, naliyyətlərin bundan da artıq olsun.. Balalarınla, ailənlə, nəvələrinlə birlikdə həmişə firavan yaşayasan.. Uca Yaradan nəzərini sənin və sənin doğmalarının, yaxınlarının, dostlarının və bütün xalqının üstündən əskik eləməsin..

***

**Mətləb Babayev**
**Buzovna sakini (İş adamı)**

Mən uzun illərdir Firuzun pərəstişkarıyam.. Onun ifalarının məndə çox sayda kasetləri, diskləri var.. Mən demək olar ki, hər gün Firuzun ifasına qulaq asıram və dinlədikcə doymuram.. İstər onun xanəndələrlə birlikdə ifası olsun, istərsə də solo ifası, fərqi yoxdur.. Artlıq onun çalğısını hər gün dinləmək mənim üçün bir ruhi qidaya çevrilib.. Kim deyibsə ki, musiqi ruhun qidasıdır, çox doğru buyurub.. İnsan yeməklə, suyla öz orqanizmini qidalandırır.. Lakin ruhu da qidalandırmaq hökmən lazımdı.. Mənimsə ruhuma qida verən ən çox Firuzun ifasıdı.. Mən

Firuzun ifasını dinləyəndən sonra özümü çox yaxşı hiss eləyirəm və xeyli gümrahlaşıram.. İşləməyə, calışmağa və ümumiyyətlə bu həyatdan zövq almağa həvəsim birə beş artır..

Firuzun çalğısı yalnız muğam üstündə köklənib.. O nə ifa eləyirsə, eləsin, dinləyicilərin ruhu üçün muğamın təfsirini verir.. Mən onun ifasını çox məclislərdə dinləmişəm və məclis iştirakçılarının onun ifasına nə qədər valeh olduğunun hər zaman şahidi olmuşam..

Vüqar müəllim, heç bir vax unuda bilməyəcəyim bir tarixçəni də xatırlamağn yəqin indi əsl məqamıdır.. Neçə il bundan qabaq Moskvada Tele-Kral sarayında sənin yaradıcılıq gecən keçiriləndə mən saraydakı qonaqların Firuzun möcüzəli ifasına müştaq olduqlarının şahiidi olmuşam.. Bu heyrətamiz ifa qonaqları o qədər məftun eləmişdi ki, onların ruhu sanki qanadlanıb uçurdu.. Onların Firuzun ifasından nə qədər böyük zövq aldıqları, üzlərindən, gözlərindən, reyaksiyalarından, hərəkətlərindən hiss olunurdu.. Firuz öz sehrli ifasıyla hamını gözəllikdən və eşqdən ibarət olan Azərbaycan musiqi ümmanının intəhasızlıqlarına aparmışdı..

Firuz insan kimi də kamillik zirvəsinə yetmiş, ən yüksək mənəvi keyfiyyətlərə malik olan bir insandı..

Mən Firuzu altmış illik yubileyi münasibəti ilə cani-dildən təbrik edir, ona polad can sağlığı, yüz il ömür, daimi səadət və saysız hesabsız naliyyətlər arzu edirəm...

***

**Etibar Babayev**
**Xalq çalğı alətləri laborotoriyasının müdiri**

Mən Firuzun kəndlisiyəm, buzovnalıyam.. Onu bir vaxtlar 19 nömrəli musiqi məktəbində bir yerdə işləmişik.. Onun həmin musiqi məktəbində şagirdlərə necə ürəklə dərs keçdiyinin, onların qayğısına qaldığının, onlara bir böyük qardaş, ata nəvazişi göstərdiyinin demək olar ki, hər gün şahidi olmuşam..

Firuz çox sadə, mehriban, səmimi və təvəzökar bir insandır.. Sənəti necədirsə, özü də elədir.. Hər şey saf, hər şey təmiz.

Bir qədər də onun təkrarolunmaz sənəti barədə danışmaq istəyirəm.. Ola bilər ki, hamının işlətdiyi ifadələri işlədim və təkrara yol verim.. Amma yəqin məni qınamazsız desəm ki, Firuzun ifası dahiyanədi.. Belə bir ifanı ancaq dahilər eləyə bilər.. Bu ifa, bu nəva, bu avaz başdan-başa Firuz dühasının

məhsuludu.. Buna başqa ad vermək olmaz.. Firuzu dinləyərkən şəxsən mən özümü tamam başqa bir aləmdə hiss eləyirəm.. Onun çalğısı məni sonu olmayan olduqca romantik bir ümmana aparır.. Mən burda firizim ifa etdiyi musiqinin ecazına bürünüb uyquya dalıram və əsrarəngiz dünyadan qayıtmaq istəmirəm..

Nə yaxşı ki, rəhman və rahim olan Allah muğamı, musiqini və onların Firuz kimi ifaçılarını yaradıb.. Əgər muğam, musiqi və Firuz kimi ifaçılar olmasaydı, onda mən bilmirəm bizim həyat tərzimiz, düşüncəmiz, anlayışımız necə olardı?

Firuzun ifası bizə ancaq və ancaq sevdalı duyğular və gözəlliklər bəxş edir..

Mən dostum Firuz Əliyevi 60 yaşı münasibətiilə səmimi qəlbdən təbrik edir, ona ailə səadəti, polad can sağlığı, uzun ömür və yeni-yeni naliyyətlər arzulayıram..

***

**Mövsüm Əhməd**
**Yazıçı-dramaturq**

Çal Firuz, şal qardaş, baxıb geriyə,
Soyumu, kökümü xatırlayım mən,
Səhnələr canlansın gen yaddaşımda,
Gülüm, nəşələnim, həm ağlayım mən,
“Şur”,”Mahur”, “Humayun”, “Segah”, “Çahargah”,
Bizi çox sirrlərdən eyləsin agah,
Xəbər ver sən bizə qədim dünyadan,
Xəzər övladıtək, çıxaq dəryadan,
Bürünək Bakının küləkllərinə,
Dırmaşaq Qafqazın ətəklərinə,
Boylanıb Kəpəzin zirvəsindən biz,
Baxaq, necə imiş ulu Gəncəmiz,
Qarabağ, muğamın parlaq aynası,
Naxçıvan, Nuh yurdu, Nuhun binası,
Keçsin göz nündən kinolentitək,
Çox həqiqətləri öyrənək, bilək.
Hər mizrab, hər səda, hər avaz, hər səs,
Söyləsin qoy bizə tariximizi,
Xəbərdar eləsin dünyadan bizi,
Şamaxı, Qax, Qazax, Şəki, Lənkəran,
Zəngəzur, Qubadlı, Göyçə, Zəngilan,

Quba, Dərbənd, Təbriz, Borçalı, Zəncan,
Ərdəbil, Urmiya, Astara, Gilan,
Nəql etsin minləirlə bizə hekayət,
Çox-çox qədimlərə edək səyahət,
Niyə fəryad edir tarın nəvası?
Axı bütün bunun nədir mənası?
Söylə kimlər olub bizim babamız?
Nə işlə məşğulmuş yeddi arxamız?
Dulusçu, dəmirçi, nalbənd ya misgər,
Bənna, memar, nəqqaş, arabaçı, dülgər,
Bağban, dəyirmançı, əkinçi, rəncbər,
Naxırçı, ilxıçı, dəvəçi, çoban,
Filosüof, kimyagər, həkim ya loğman?
Dabbaq, əllaf, baqqal, çarvadar, tacir,
Hafiz, xəttat, alim, müəzzin, şair?
Tusi ulduzlardan gətirsin xəbər,
Xətai göstərsin cənglərdə hünər,
Nizami "Xəmsə"ni anlatsın bizə,
Xaqani "şinniyə" salsın əruza,
Əcəmi daşlara min bəzək vursun,
Nəsimi şeriylə min səhnə qursun,
Füzuli dönməsin Haqq sevdasından,
Vaqif oyanmasın eşq röyasından,
Seyd-Əzim bizlərə versin nəsihət,
Duyaq nə böyükmüş elmi-mərifət,
Ələsgər götürsün sazı əlinə,
İrfani şerlər söyləsin yenə,
Tarixlər söyləsin tarın sədası,
Bütün vətən geysin muğam libası...

Həqiqətən də Firuz Əliyev tar çalarkən bizə yüksək zövq verməkdən əlavə, bizi dərindən düşünməyə, keçmişimizə boylanmağa, yeddi-arxa dönənmizin kim olduğunu öyrənməyə vadar edir.. Çünki bu olduqca möhtəşəm ifa sanki qədim dövrlərdən süzülüb gəlir və bizə çox sayda rəvayətlər, hekayətlər nəql eləyir.. Mənim fikrimcə Firuz Əliyev sənəti əlçatmaz bir zirvədədir.. Belə ifaya gecə-gündüz tar çalmaqla nail olmaq mümkün deyil.. Bu Allah vergisidir.. Mən otuz ildən artıqdır ki, Firuz sənətinin pərəstiçkarıyam.. O televiziya ekranlarında çıxış eləyərkən əlimdəki ən vacib işimi atıb dərhal onun ifasını dinləməyə başlayıram və mənə elə gəlir ki, əgər bu ifanı dinləməsəm, nəyisə itirmiş olacağam.. Ən əsası odur ki, mən

Firizu dinləyərkən Azərbaycan xalqının böyüklüyünü, müdrikliyini, əyilməzliyini, eyni zamanda humanistliyini həmişəkindən artıq duyuram və bu da məni çox fərəhləndirir..

Mən əvəzolunmaz tarzənimiz Firuzu altmış yaşı münasibəti ilə səmimi qəlbdən təbrik eləyir, ona ailəsi ilə birlikdə daima firavan olmağı arzu edirəm və uca Yaradandan onun ürəyindəki bütün arzularının yerinə yetməyini diləyirəm..

## Ay Firuz

Çalğında var həm möcüzə, həm vüqar,
"Əfsanəvi tarzən"- dedi Bəxtiyar,
Bu ifada hələ nələr, nələr var,
Altmış yaşın nə tez oldu ay Firuz..

Çalğının var həm ədvəsi, həm duzu,
"Segah"ına mən kəsərə min quzu,
Quzey-Güney, hamı sevir Firuzu,
Altmış yaşın nə tez oldu ay Firuz..

"Dilkeş"inlə ürəkləri ram etdin,
Sən "Şüştər"i qulaqlarda tam etdin,
Dünya gəzdin, Buzovnada şam etdin,
Altmış yaşın nə tez oldu ay Firuz..

Sağlığında sən bir məktəb yaratdın,
Öz adını ürəklərdə ucaltdın,
Ürəyini mizrabınla qocaltdın,
Altmış yaşın nə tez oldu ay Firuz..

Qoca tarı, cavan edib sevindin,
Bir kəs görməz sənətinlə öyündün,
Öz çalğına gözü yaşlı sevindin,
Altmış yaşın nə tez oldu ay Firuz..

Əkiz oğlun, həm dörd qızın ürəyin,
Analıarı oldu daim gərəyin,
Əvəzsizdir sənin böyük əməyin,
Altmış yaşın nə tez oldu ay Firuz...

Xanəndəyə ilham verir müşayət,

Sən çalanda oxuyurlar qiyamət,
Eləmisən bu dünyanı səyahət,
Altmış yaşın nə tez oldu ay Firuz...

Uca tutdun ustaların yolunu
Oxutmusan Hacbabanı, Qulunu,
Çox tarzənlər öyrəniblər yolunu,
Altmış yaşın nə tez oldu ay Firuz...

Hacı Tələt, Həcc Ağaxan, Həcc Arif,
Xanəndə Alim də edir çox tərif,
Gün gələr, rəhbər də eyləyər təltif,
Altmış yaşın nə tez oldu ay Firuz..

Hamı bilir çox çəkmisən zəhməti,
Dərdləşmisən ürəyində xəlvəti,
Əziz tutdun şair Vüqar Əhmədi,
Altmış yaşın nə tez oldu ay Firuz...

Firuz Əliyevin adı bu gün təkcə afişalarda, disklərdə, televiziya verlişlərindən əlavə, daha böyük bir məna kəsb edir.. Onun adı, yaradıcılığı, Azərbaycan musiqi sənətinin inkişafı tarixində bütöv bir dövrdür..

Cansız tar Firuzun sehrli barmaqlarının təması ilə müxtəlif emosional çalarlarda insan qəlbinin ülvi hisslərini, ən nəcib duyğularını təlatümə gətirib kövrəldir, sevindirir, şadlandırır və ruhlandırır.. İnsan qəlbinin zəruri tələbi, mənəvi qidası olan eşqi Firuz öz tarı vasitəsilə gözəlliklə vəhdətdə alıb dinləyicilərinə böyük səxavətlə bəxş eləyir..

Eşq səhnələri, sevda lövhələri, məhəbbət mənzərələri, gözəllik təsvirləri bilavasitə Firuzun çalğısında öz əksini tapır və bütün musiqisevərlərin çox aydın şəkildə başa düşəcəyi bir dildə insanlarda dəruni hisslər oyadan məhəbbət romanları söyləyir.. Firuzun ifası əsrlərin dərinliyindən gələn olduqca lirik, təmkinli, həzin, eyni zamanda aşiqanə bir ifadır.. Heç bir zaman sevdasından usanmayan böyük Füzuli eşq aləminə çox haqlı olaraq öz adını yazmışdı:

Löhvi aləmdən yudum əşk ilə Məcnun adını,
Ey Füzuli, mən dəxi aləmdə bir ad eylərəm..

Bu gün Firuz da qəlbin cövhəri olan eşqdən doğan ecazkar ifası ilə artıq sağlığında öz sənət abidəsini ucaltmış, aləmdə bir ad qoymuşdur.. Mənə elə gəlir ki, nə qədər Azərbaycan varsa, nə qədər həyat varsa, bu ad da olacaq və löhvi-aləmdən heç bir zaman silinməyəcəkdir...

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

I.Ayxan Nəbi.. Azərbaycan musiqi ifaçılarının I-ci Moskva şəhər müsabiqəsi.. "Vaxt" qəzeti, mart 2005-ci il..
2."Deyilən söz yadigardır"Bakı-"Yazıçı"-1987..
3.Əbdülqasımov V. "Azərbaycan tarı", Bakı, "İşıq" 1989..
4.Əssar Təbrizi. "Mehr və Müştəri", Bakı, "Yazıçı" 1988..
5.Əzimli F. "Azərbaycan xalq musiqisinin qısa lüğəti". Bakı, "Hərbi nəşriyyat", 2000..
6.Əmirob F. "Musiqi səhifələri", Bakı, "İşıq" 1978..
7.Əlizadə L. "Füzulinin gizli sözü" Bakı, 1990.
8.Əlizadə L. "Füzulini tədris edərkən", Bakı, "İrşad" 1995.
9.Əliyev V. "Muğam aşiqi" Bakı, "Nurlan" 2009..
I0.Əhmədov V, Nəbioğlu A. "Ürəyimdə oxuyuram" Bakı, 2003..
II.Əhmədov V. "Ağaxanın nəğməli dünyası", "Açıq söz" qəzeti, 28 dekabr 1995-ci il..
I2.Əliyev V. "Ürəyin hökmü ilə" "Vaxt" qəzeti, 15-21 iyul, 2001-ci il.
I3.Əliağa Vahid. "Yüz bir qəzəl, min bir gözəl", "Yazıçı" nəşriyyatı, Bakı-1993..
I4.Əmirxanlı Z. "Televiziyada oxuyan Alim, düş aşağı Allah xatirinə" "Azadlıq" qəzeti, 19 may, 1994-cü il..
15.Əhmədov M. "Muğam sənətimiz" "Muğam" Azərbaycan "Muğam" Asossasiyasının elmi-kütləvi jurnalı.
16.Fərabi Ə. "Kitabül-musiqiyi-kəbir". Qahirə, 1967, ərəb dilində..
17.Hacıbəov Ü. "Əsərləri" II cild, Bakı, Azərbaycan EA nəşriyyatı, 1965.
18.İmrani R. "Muğam tarixi" Bakı-"Elm" 1998.
19.İmrani R. "Azərbaycan musiqisi tarixi" Bakı-"Elm" 1999..
20.Qasımov T., Alim Nəbioğlu. "Mənsuriyyə yanğısı" Bakı-2005..
2I.Qasımova S. "Səslən tarım" "Azərbaycan" nəşriyyatı, Bakı-1998.
22.Marağayi Ə. "Musiqi alətləri və onların növləri" "Qobustan" jurnalı, nömrə I. Bakı, 1977, fars dilindən çevirəni M.Müsəddiq..
23.Marağayi Ə. "Məqasidil-əlham" Tehran 1344 (1966), fars dilində..
24.Məhəmməd Füzuli.. "Əsərləri" I cild, Azərbaycan EA-nın nəşriyyatı.

25.Məhəmməd Füzuli.. “Seçilmiş əsərləri” Azərbaycan Dövlət Nəşriyyatı.
26.Məhəmməd Füzuli.. “Saqinamə” Divan..
27.Məhəmməd Füzuli. “Rindu-Zahid.. SSRİ EA-nın Şərqşünaslıq insitutunun Leninqrad şöbəsi küliyyatı-“Füzuli”, şrift nömrə S 1924..
28.Mir Mövsüm Nəvvab Qarabaği..”Vüzuhül-Əqdam”. Bakı, Orucov qardaşlarının elektrik mətbəəsi, 1913-cü il..
29.Misiroğlu Ə. “Hər sim bir dünyadır”. “Mədəniyyət” qəzeti, 20 yanvar 1992-ci il..
30.Məhərrəmova T. “Muğamın hər yerdə xiridarı var” “Kaspi” qəzeti 30 sentyabr 2004-cü il..
31.Məhərrəmova T. “İndi müşayət olunmalı xanəndələr azdır” “Kaspi” qəzeti 10 sentyabr, 2007-ci il..
32.Etibar.. “Məni Firuzdan ayıranın ürəyi parçalana” “Yeni müsavat” qəzeti, 5 iyun 2001-ci il..
33.Tariyel Azərtürk. Muğam “Şumer” deyilən azəri türkünün milli sərvətidir.. “Tariyel Vəli Əli” korporasiyası “Sietl”, ABŞ, 2001...
34.Ürməvi S. “Kitab əl-ədvar”, ərəb dilində...